AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

2022-Cİ İLİN YEKUNLARINA DAİR

HESABAT

MÜNDƏRİCAT

Xülasə.....3

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması.....14

Azərbaycan xalqının milli-mədəni irsinin təbliği.....56

Lobbiçiliyin inkişafı istiqamətində atılan addımlar.....90

Xaricdə yaşayan azərbaycanlıların inteqrasiyası üzrə görülmüş tədbirlər.....97

Diaspor fəaliyyəti xarici KİV-də.....113

Xaricdəki soydaşlarımızın təşkilatlanması istiqamətində atılan addımlar.....128

Gənclərin diaspor fəaliyyətinə cəlb edilməsi.....143

Cari istiqamətlər.....147

Dünya Azərbaycanlılarının V Qurultayı..... 153

Bakıda "Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf"
mövzusunda beynəlxalq tədbir 160

Diaspor Gənclərinin III Yay Düşərgəsi.....163

N saylı hərbi hissədə əsgərlərlə görüş.....167

"Diaspor Məsələlərinə məsul Dövlət Qurumları
Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu".....171

AZƏRBAYCAN DİASPORUNA DƏSTƏK FONDU.....174

AZƏRBAYCAN EVLƏRİ.....178

XÜLASƏ

2022-ci il ərzində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi (DİDK) Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılması, maddi-mənəvi irsin kütləvi təbliği, xaricdə yaşayan azərbaycanlıların yaşadıqları ölkələrdə sivil adaptasiyası və inteqrasiyası, lobbiçiliyin təkamülü, həmçinin digər istiqamətlərdə müvafiq fəaliyyətini davam etdirib.

Komitə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda aktivliyinin təmin olunması, tarixi vətənlə əlaqələrinin genişləndirilməsi, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər və videokonfranslar həyata keçirib. Diaspor təşkilatlarından Komitəyə daxil olan məktub və ərizələrə baxılıb, bu xüsusda aidiyyəti üzrə cavablar verilib. [Foto 1] [Foto 1.1]

Foto: 1



[Foto 1.1]



Hesabat dövründə Azərbaycan diasporu xüsusi aktiv olub, nümunəvi yekdillik və mütəşəkkillik göstərib. Dövlət Komitəsi milli kimliyin qorunması, diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyətini davam etdirib, soydaşlarımızın birliyi, azərbaycançılıq ideologiyası ətrafında daha sıx birləşməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirib.

Bu il İsveçin Stokholm, Norveçin Oslo, Avstraliyanın Sidney, Melburn, Balarat, Polşanın Varşava, Estoniyanın Tallin, İsrailin Akko, Almaniyanın Hannover, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərlərində Komitə sədrinin iştirakı ilə Azərbaycan icması ilə görüşlər keçirilib, Avstraliya və Okeaniya ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurası təsis olunub. [Foto 2]

Foto: 2

Ötən dövrdə Ermənistanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi separatçılıq, ekstremizm, özünüküləşdirmə siyas əti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizə qarşı erməni diasporu və lobbisi tərəfindən həyata keçirilən kampaniyaların qarşısının alınması, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqların tapılması ilə əlaqədar xarici ölkələrdə Azərbaycan diaspor təşkilatları tərəfindən toplantılar, sərgilər, piketlər, nümayişlər və digər zəruri tədbirlər təşkil olunub. Ermənistanın 12-14 sentyabr təxribatı ilə əlaqədar Azərbaycan diaspor təşkilatları Avropanın aparıcı paytaxtlarında və şəhərlərində aksiyalar keçirərək, Ermənistan rəhbərliyinə etirazlarını bildiriblər. Ümumilikdə diaspor fəalları yaşadıqları ölkələrin ictimai-siyasi dairələrinə və dövlət-hökumət nümayəndələrinə təxribat barədə 70, diaspor təşkilatları isə 143 müraciət və bəyanat ünvanlayıblar. [Foto 3]

Foto: 3

Artıq ikinci ildir ki, 8 Noyabr – Zəfər Günü və Azərbaycanın Vətən müharibəsindəki tarixi Qələbəsinin ildönümü diaspor təşkilatları tərəfindən təntənəli şəkildə qeyd olunur.

2022-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Zəfər Günü ilə əlaqədar müxtəlif ölkələrdə yüzdən artıq tədbir keçirilib. Bu tədbirlər 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin təbliği, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılması məqsədinə xidmət edib. Eyni zamanda 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Novruz bayramı, 10 May – ulu öndər Heydər Əliyevin doğum günü, 28 May - Müstəqillik Günü, 27 Sentyabr - Anım Günü, 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü, 9 Noyabr - Dövlət Bayrağı Günü, 12 Dekabr – Heydər Əliyevin anım günü, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi tarixlərdə müxtəlif formatlı tədbirlər həyata keçirilib.

24 fevral 2022-ci ildə Ukraynada başlayan müharibə ilə əlaqədar olaraq DİDK-də operativ qərargah yaradılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Diasporla İş üzrə Dövlət Komitəsi digər dövlət qurumları ilə koordinasiyalı şəkildə işləyərək, Ukraynada yaşayan soydaşlarımızın təxliyəsi üçün bütün imkanlarını səfərbər edib. Komitənin tövsiyəsi ilə Ukrayna Azərbaycanlıları Radasında operativ qərargah və qaynar xətt yaradılıb. Təxliyə olunan soydaşlarımızın qarşılanması və yerləşdirilməsi üçün Komitənin əməkdaşları Ukraynanın Moldova və Polşa ilə sərhədinə ezam olunub. Martın 2-də 1100 Azərbaycan vətəndaşı Kiyevin dəmir yolu vağzalından qatarla Mogilyov-Podolsk şəhərinə yola salınıb. Azərbaycan Respublikasının vətəndaşları üçün planlaşdırılan qatara minik biletsiz, canlı növbə əsasında həyata keçirilib. Elə həmin gün yüz nəfərdən çox Azərbaycan vətəndaşı Odessadan Moldova sərhədinə yola salınıb. Ukrayna-Moldova sərhədində Azərbaycanın müvafiq dövlət orqanlarının nümayəndələri tərəfindən qarşılanan soydaşlarımız Odessadakı Azərbaycan Evində saxlanılıb, onların bütün ehtiyacları qarşılanıb və uyğun şərait yaranan kimi Bakıya təxliyə olunublar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinin 24 nömrəli 16 mart 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Dünya Azərbaycanlılarının V Qurultayının 2022-ci ilin aprelin 21-25-də Şuşa şəhərinə keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq 2022-ci ilin aprelin 22-23-də Azərbaycanın Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı keçirilib. Tədbirdə 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edib. Qurultayı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev açıq elan edib. Cənab

Prezident qurultaydakı tarixi çıxışında DİDK və diaspor təşkilatları qarşısında yeni hədəflər müəyyənləşdirib.

Komitə sədri Fuad Muradov Dünya Azərbaycanlılarının V Qurultayında iştirak etmiş müxtəlif ölkələrdə yaşayan bir qrup azərbaycanlı elm xadimi və iş adamları ilə görüş keçirib. Qurultay öncəsi və sonrası fəal diaspor nümayəndələrinin Azərbaycanın aparıcı media qurumlarında müsahibələri, tədbirin əhəmiyyəti ilə bağlı sosial şəbəkələrdə paylaşımlarının təşkili təmin edilib.

ADA Universitetində Diasporla İş üzrə Dövlət Komitəsinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf" mövzusunda dəyirmi masa-dinləmələr keçirilib. Tədbirdə dövlət qurumlarının nümayəndələri, ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Fransa, İsrail, İtaliya, Türkiyə, Gürcüstan və Yunanıstanın müxtəlif təhlil mərkəzlərini, universitetlərini və mediasını təmsil edən 22 xarici ekspert iştirak edib. ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə baş tutan müzakirələrdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Birinci vitse-prezidentin köməkçisi Emin Hüseynov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov, Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov, Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova post-münaqişə dövründə Azərbaycan dövlətinin gördüyü işlər və gələcək perkspektivlər barədə çıxış ediblər. Dinləmələr zamanı Cənubi Qafqaz regionunun inkişafı, Qarabağda həyata keçirilən bərpa-quruculuq işləri və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında xarici ekspertlərin əhəmiyyətli rol oynadığı vurğulanıb.

Prezident İlham Əliyevin 4 iyul 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan diasporu ilə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində səmərəli

fəaliyyətinə görə Komitə sədri Fuad Muradov 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə, 8 əməkdaş “Tərəqqi” medalı ilə təltif edilib.

Bundan başqa, 23 iyun – Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə Prezident İlham Əliyevin imzaladığı 22 iyun 2022-ci il tarixli Sərəncamla Diasporla İş üzrə Dövlət Komitəsinin 3 əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

İyulun 5-də Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illik yubileyi tamam olub. Bu münasibətlə Qarabağdakı “N” saylı hərbi hissədə “Gücümüz birliyimizdədir” adlı möhtəşəm bayram tədbiri və konsert keçirilib. Yubiley sevincini Qəhrəman və Qalib Ordumuzun əsgər və zabitləri ilə paylaşmaq məqsədilə gerçəkləşdirilən tədbirdə DİDK əməkdaşları, xarici ölkələrdə fəaliyyət göstərən diaspor nümayəndələrindən ibarət sənətçi qrupları və tanınmış incəsənət xadimləri iştirak ediblər. Konsert proqramı əsgər və zabitlərimiz tərəfindən böyük maraq və məmnunluqla qarşılanıb.

Diasporla İş üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu ilə birlikdə 2022-ci ilin 2-8 avqust tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Diaspor Gənclərinin III Yay Düşərgəsini təşkil edib. Düşərgənin tərəfdaşları Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi olub. Layihədə 50 ölkəni təmsil edən 115 nəfər iştirak edib. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri, o cümlədən Qarabağ xanlığının banisi Pənahəli xanın varisi və Vətən Müharibəsi Qəhrəmanının övladı da olub. Layihənin xalqımızın Qarabağda parlaq qələbəsindən və Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayından sonraya təsadüf etməsi xüsusi önəm daşıyıb. 2022-ci il aprelin 22-23-də Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xaricdə yaşayan azərbaycanlıları hər zaman tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə, ana dilini unutmamağa, Azərbaycan tarixini və mədəniyyətini öyrənməyə, Azərbaycan həqiqətlərini dost xalqların diasporları ilə birlikdə təbliğ etməyə çağırıb. Bu mənada Diaspor Gənclərinin Yay düşərgələri Azərbaycan Prezidentinin tövsiyələrinin gerçəkləşdirilməsi kimi də qiymətləndirilə bilər.

9 dekabr 2022-ci ildə Türkiyənin İstanbul şəhərində Dünya Azərbaycanlı Alimlərin Forumuna hazırlıq görüşü (Dünya Azərbaycanlı Elm Xadimlərinin Görüşü) keçirilib. 14 ölkədən (Türkiyə, ABŞ, Fransa, Kanada, Almaniya, Avstriya, Qazaxıstan, Qırğızıstan, Rusiya, Gürcüstan, Cənubi Koreya, Estoniya, İsveç, Misir)

20 alimin iştirak etdiyi tədbirə dörd ölkədən (Çin, Yaponiya, Oman və Səudiyyə Ərəbistanı) azərbaycanlı elm adamı onlayn formatda qoşulub. Tədbirdə konsepsiyaya uyğun olaraq görüşün məqsədləri nəzərdən keçirilib, iştirakçıların rəy və təklifləri dinlənilib, əsas müzakirə mövzularının və formatının müəyyənləşdirilməsi üzrə İşçi qrupları formalaşdırılıb. Dünya Azərbaycanlı Alimlərin Forumunun keçiriləcəyi ölkənin və məqsədəuyğun vaxtın seçilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Dekabrın 20-21-də Türk Dövlətləri Təşkilatının tərəfdaşlığı ilə Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı-Şuşa Forumu keçirilib. Forumun ilk günü Bakıda, ikinci günü Şuşada baş tutub. Tədbirdə dünyadakı türk diasporlarının inteqrasiyasına yönəlmiş mühüm layihələr, TDT-yə üzv ölkələr arasında mədəni-humanitar əməkdaşlığın dərinləşməsi, diaspor qurumları arasında işbirliyinin vacibliyi, vətəndən kənada yaşayan türk icmalarının ana dilində təhsil almaq imkanlarına malik olması və digər vacib mövzular ətrafında da fikir mübadiləsi aparılıb. Toplantı "Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu"nun iştirakçı qurumlarının birgə bəyanatının qəbul olunması ilə yekunlaşıb.

24 dekabr 2022-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsi 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "Bir olaq, həmrəy olaq!" adlı bayram videokonfransı təşkil edib. 63 ölkədən 500-ə yaxın soydaşımızın qatıldığı tədbirdə Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə, Azərbaycan diasporunun fəaliyyətinə verilən mühüm töhfələrə, ölkəmizin beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafındakı səmərəli işinə görə bir qrup diaspor üzvü "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub.

20 Yanvar faciəsi, Xocalı soyqırımı, 31 mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması istiqamətində Azərbaycan diaspor təşkilatları tərəfindən 2022-ci il ərzində ümumilikdə dünyanın 44 ölkəsində 166 tədbir, aksiya, konfrans və dəyirmi masa təşkil olunub.

Azərbaycanın işğaldan azad olunmuş Xocavənd rayonunun Edilli kəndində aşkarlanmış kütləvi məzarlıqla əlaqədar Azərbaycan diaspor təşkilatları tərəfindən dünyanın 40 ölkəsində Ermənistan səfirlikləri və beynəlxalq təşkilatların nümayəndəlikləri qarşısında aksiyalar keçirilib, beynəlxalq təşkilatlara və nüfuzlu ictimai-siyasi xadimlərin elektron poçt ünvanlarına 100-dən artıq bəyanatlar göndərilib.

Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2022-ci il tarixli Sərəncamına uyğun olaraq Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 42 tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq diaspor fəaliyyətinin əlaqələndirilməsi istiqamətində fəaliyyət 2022-ci il ərzində də davam etdirilib. Bu istiqamətdə 2018-ci ilin aprel ayından başlanan işlər əsasında artıq 36 ölkəni əhatə edən 15 Koordinasiya Şurası fəaliyyət göstərir.

Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin koordinasiyasında Azərbaycan Evləri mühüm yer tutur. 2022-ci ildə Finlandiyanın Helsinki şəhərində Azərbaycan Evi açılıb, Kanadanın Toronto şəhərində isə Azərbaycan Evinin açılması üçün hazırlıq işləri artıq yekunlaşıb. Beləliklə, dünya ölkələri üzrə Azərbaycan Evlərinin sayı 13 ölkə üzrə 19-a çatıb. [Foto 4]

Foto: 4

Eyni zamanda həftəsonu Qarabağ və Bazar günü məktəblərinin sayının artırılması istiqamətində də işlər davam etdirilir. Bu məktəblərdə ümumilikdə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. Məktəblərdə həm ana dili, ədəbiyyatı, tarixi öyrədilir, həm də rəqs, musiqi dərslərinə, şahmat və digər oyunlara geniş yer verilir. Bəzi məktəblər müxtəlif yaş qrupundan olan soydaşlarımıza yaşadıqları ölkələrin də dilini öyrənməkdə kömək edir. Onlar təhsili başa vurduqdan sonra milli kimliyə, milli adət-ənənələrimizə tam hakim olur, müxtəlif dillərdə ünsiyyət qura bilirlər. Xaricdəki həftəsonu məktəbləri və "Qarabağ" məktəbləri iki üstün cəhəti ilə də diqqəti çəkir.

Bunlardan biri onların hər birinə ixtisaslı müəllimlərin cəlb edilməsi, digəri isə məktəb kollektivlərinin müxtəlif xarakterli tədbirlərin təşkilini uğurla həyata keçirməsidir.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tabeliyində **Azərbaycan Diasporuna Dəstək Fondunun** qeydiyyat sistemində ümumilikdə 348 qeydiyyat olmuşdur. Təşkilatlar tərəfindən təqdim olunmuş 65 layihə, fərdi şəxslər tərəfindən daxil olmuş 60 layihə Fond tərəfindən maliyyələşdirilmişdir. [Foto 5]

Foto: 5





Ukrayna-Rusiya hərbi münaqişəsi zamanı soydaşlarımızın təxliyəsi

Cari ilin fevralın 24-də Ukrayna ilə Rusiya arasında yaranmış hərbi gərginliklə əlaqədar Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan hökumətinin tapşırığına əsasən, digər dövlət qurumları ilə koordinasiyalı şəkildə işləyərək, ciddi təhlükə ilə üzləşən Azərbaycan vətəndaşları və soydaşlarımızın Ukraynadan təxliyəsinin həyata keçirilməsi üçün bütün imkanlarını səfərbər edib.

Təhlükəli bölgələrdən soydaşlarımızın çıxarılaraq sərhəd-keçid məntəqələrinə çatdırılmasını təmin etmək məqsədilə Komitə əməkdaşları aidiyyəti kurasiyalar üzrə fevralın 28-dən Moldova, Polşa, Rumıniya Respublikalarına ezam olunublar. Ukrayna Azərbaycanlıları Radasında (UAR) operativ qərargah yaradılıb. Qərargahın qaynar xəttinə müraciət edən Azərbaycan vətəndaşları və Ukrayna vətəndaşı olan soydaşlarımızın siyahıya alınması, məlumatlandırılması, təxliyə məntəqələrinə cəlb edilməsi və təhlükəli ərazidən çıxarılması, qida və digər ehtiyaclarının ödənilməsi, sərhəd-keçid məntəqələrinə qədər aparılması təmin edilib.

Soydaşlarımız öz avtomobilləri ilə fərdi qaydada, həmçinin Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə ayrılmış xüsusi avtobus və qatarlar vasitəsilə təhlükəli əraziləri tərk edib. Ukrayna Azərbaycanlıları Radasının yönləndirməsi ilə Kiyevdən 3000-dən çox soydaşımız təxliyə olunub (1200 nəfərə yaxın birbaşa təşkilatın köməyi ilə ayrılmış qatar və avtobusla Kiyevdən çıxıb).

Diasporun dəstəyi ilə Xarkovdan 2500-dən çox, Odessa və ətraf yerlərdən 2000-dən artıq, Poltava, Nikolayev və müxtəlif şəhərlər daxil olmaqla 4000-nə yaxın soydaşımızın təhlükəli ərazilərdən çıxarılması təmin olunub.

Əsasən qadın, uşaq, yaşlı və əlillərin üstünlük təşkil etdiyi təxliyyə prosesində Dövlət Komitəsi, UAR və diaspor fəallarının dəstəyi ilə 11 500-ə yaxın həmvətənimizin, onların ailə üzvlərinin Ukraynadan çıxarılması və ya təhlükəsiz bölgələrə köçürülməsi təşkil olunub.

Təxliyənin təşkili ilə əlaqədar Dövlət Komitəsi tərəfindən Kiyev Azərbaycan Evinə və Odessa Azərbaycan Evinə maliyyə vəsaiti köçürülüb.

Dövlət Komitəsinin aidiyyəti üzrə şöbənin əməkdaşları təhlükəli ərazilərdə çətin vəziyyətdə qalmış azərbaycanlılarla mütəmadi əlaqə quraraq onlara mənəvi dəstək göstərib, vəziyyətlərini nəzarətdə saxlayıblar.

Ukraynanın daha təhlükəsiz Lvov şəhərinə axışan yüzlərlə soydaşımızın gecələməsi və qida ilə təmin olunmasında burada fəaliyyət göstərən diaspor təşkilatları bütün resurslarını səfərbər ediblər. Lvov Azərbaycanlıları Konqresi tərəfindən Ukraynanın döyüş gedən şəhərlərindən Lvov şəhərinə gələn soydaşlarımız

üçün səyyar qida məntəqələri yaradılıb, soydaşlarımızın zəruri qida ehtiyacları ödənilib və avtobuslarla Ukrayna-Polşa sərhədinə yola salınıb.

Bundan başqa, Ukrayna Azərbaycanlıları Radasının (UAR) ofisi – Azərbaycan Evində UAR İdarə Heyətinin üzvü, Kiyev Azərbaycanlıları Konqresinin sədri Oleq Krapivinin dəstəyi ilə yardım aksiyaları təşkil edilib. Aksiya zamanı Kiyevdəki aztəminatlı ailələr üçün ərzaq məhsulları, tibbi yardım ləvazimatları, geyim əşyaları və s. zəruri məhsullar paylanılıb. Təxminən yarım ay ərzində hər gün 250-300 nəfər Azərbaycan Evinə gələrək ehtiyacı olan məhsulları əldə edir. Bundan başqa, təşkilat Kiyev ətrafındakı qəsəbə və kəndlərin sakinlərinin də gündəlik zəruri tələbat məhsulları ilə təminatına dəstək göstərir.

Postmüharibə dövründə qazi və şəhid ailələrinə yardım, Qarabağın dirçəldilməsinə dəstək

44 günlük Vətən müharibəsi dövründə olduğu kimi müharibədən sonra da I Ərazi şöbəsinin əhatə etdiyi ölkələrdə - əsasən də Rusiyada çalışan azərbaycanlı iş adamlarının dövlətimizə, qazilərimizə, şəhid ailələrinə dəstəyi davam edib.

- Udmurtiya-Azərbaycan Dostluq İctimai Mərkəzinin ətrafında birləşən həmvətənlərimizin könüllü topladığı vəsait hesabına Ağcabədi rayonunun Minəxorlu kəndində Vətən müharibəsi şəhidinin ailəsi üçün **fərdi yaşayış evinin** tikintisi başa çatıb və şəhid Atayev Tariyel Fəxrəddin oğlunun ailəsi üçün tikilən mənzilin açarları ailəyə təqdim edilib;
- Arxangelsk vilayətinin Azərbaycan Diasporu Regional İctimai Təşkilatının İdarə Heyəti "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən təqdim edilmiş maddi yardıma ehtiyacı olan və Azərbaycanda və Polşada təhsil alan **3 nəfər** şəhid övladında **100 ABŞ dolları** məbləğində aylıq tədaüd ayrır;
- Perm Diyarının Solikamsk şəhərindəki Azərbaycan diasporunun təşəbbüsü və maddi dəstəyi ilə Neftçala şəhərinin mərkəzində Vətən müharibəsi şəhidi Telman Yadigar oğlu Kəlbiyevin **xatirəsinə abidə ucaldılıb**;

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması

20 Yanvar faciəsi, Xocalı soyqırımı, 31 mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması

- Su, Ətraf mühit və Sağlamlıq üzrə Qlobal İnstitut (Global İnstitute for Water, Environment and Health, GIWEH), Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitut (International Institute for Rights and Development-Geneva, IRDG) və Davamlı İnkişaf Məqsədləri üzrə Gənclər Parlamenti (Youth Parliament for SDG) tərəfindən təqdim olunan hesabata əsasən, 2022-ci ilin fevral-mart aylarında BMT-nin 49-cu İnsan Haqları Şurasının ümumi müzakirələr sessiyasında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində suların çirkləndirilməsinə, minaların yaratdığı ekoloji və humanitar problemlərə, həmçinin məcburi köçkünlərin təhlükəsiz qayıdışına dair məsələlər gündəmə gətirilmiş, eyni zamanda məsələlər üzrə təqdim olunan bəyanatlar qeyd olunan beynəlxalq qurum tərəfindən qəbul olunub.
- 2022-ci ilin 4 aprel tarixində Beynəlxalq Hüquq və İnkişaf İnstitutu (İRDG) tərəfindən Cenevrə mətbuat klubunda (Swiss Press Club) Beynəlxalq Mina Xəbərdarlığı Gününə həsr olunmuş "Azərbaycanda minaların zərərləşdirilməsinə aparan yol: beynəlxalq çağırış" mövzusunda mətbuat konfransı təşkil olunub.
- Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitut (International Institute for Rights and Development-Geneva, IRDG) vasitəsi ilə BMT-nin 50-ci İnsan Haqları Şurasının ümumi müzakirələr sesiyyasında bəyanat qəbul olunub və bəyanatda Ermənistan dövləti tərəfindən məqsədyönlü şəkildə Azərbaycan ərazilərində xalqımızın mədəni-tarixi irsini məhv etmək məqsədilə törədilmiş vandalizm və barbarlıq aktları qeyd olunub.
- Su, Ətraf mühit və Sağlamlıq üzrə Qlobal İnstitut (Global İnstitute for Water, Environment and Health, GIWEH) tərəfindən BMT-nin Nyu-Yorkda keçirilmiş Davamlı inkişaf üzrə Yüksək səviyyəli Siyasi Forumuna Oxçuçayın çirklənməsi ilə bağlı bəyanat qəbul olunub. Bəyanatda Oxçuçayın ekoloji böhranını və kritik vəziyyəti vurğulamaqla yanaşı beynəlxalq təşkilatları qarşıdurma şəraitində yaşayan Ermənistan və Azərbaycan dövlətlərinə sülh naminə sərhədyanı suların qorunmasında maddi və texniki dəstəyin göstərilməsi üçün çağırış edilib.

— Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitut (International Institute for Rights and Development-Geneva, IRDG) tərəfindən BMT-nin Nyu-Yorkda keçirilmiş Davamlı inkişaf üzrə Yüksək səviyyəli Siyasi Forumuna Azərbaycan torpaqlarının mina və partlamamış hərbi sursatlara çirkləndirilməsi barədə bəyanat qəbul olunub.
— Fevralın 2-də Ukraynanın Xarkov şəhərində "Dostluq" Ukrayna-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin şəhid olmasının 30-cu ildönümü ilə əlaqədar ailə üzvləri, Xarkov Şəhər Şurasının və Azərbaycan diasporunun nümayəndələrinin də iştirak etdiyi anım tədbiri keçirilib.
— Oslo şəhərində norveçli yazıçı Terye Holmedalın (Terje Holmedahl) "Mən bunu bacaracağam. Azərbaycan haqqında hekayə" adlı kitabı nəşr olunub. Norveç dilində çap olunan kitabda erməni işğalı nəticəsində doğma Cəbrayıl rayonundan didərgin düşmüş və 30 ilə yaxın müddət ərzində öz vətənində məcburi köçkün statusu ilə yaşamış Lalə adlı qızın taleyindən bəhs edilib
— Berlin şəhərində almaniyalı türkoloq, tarixçi alim Mixael Raynhard Hessin "Qarabağ 13-cü əsrdən 1920-ci ilədək" başlıqlı kitabı 3-cü buraxılışda çap edilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Münhen Azərbaycan Evinin təşkilatçılığı ilə yeni buraxılış ingilis dilində "Gulandot" nəşriyyatında çap olunub. Geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş kitabda Azərbaycanın 44 gün davam edən Vətən müharibəsindəki parlaq qələbəsi nəticəsində yaranmış yeni reallıqlar nəzərə alınıb. Azərbaycan ərazilərinin işğaldan azad olunduğu tarixlər, Dağlıq Qarabağ münaqişəsinin başa çatması və bu toponimin artıq mövcud olmaması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair faktlar kitaba daxil edilib.
— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə Köln şəhərində Almaniyadakı Azərbaycanlı Həkimlərin I forumu keçirilib. Tədbirdə Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov, Azərbaycan səhiyyə nazirinin müavini Nadir Zeynalov, Azərbaycan Diasporuna Dəstək Fondunun (ADDF) icraçı direktoru Əkrəm Abdullayev, Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları, Almaniyanın 34 şəhərində fəaliyyət göstərən 200-dən çox elm xadimi və həkim iştirak ediblər.

— Rotterdam şəhərində Niderland Krallığında fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin (BAK) sədri Elsevər Məmmədovun təşkilatçılığı ilə "44 günlük müharibədən sonra" adlı layihə çərçivəsində görüş keçirilib.

— Cenevrə Mətbuat Klubunda "Azərbaycanda minaların məhvinə aparan yol: beynəlxalq çağırış" mövzusunda panel iclası keçirilib. Britaniya, Almaniya və Avropanın digər ölkələrinin mediasında Azərbaycandakı mina problemləri ilə bağlı İsveçrədə keçirilmiş tədbir geniş işıqlandırılıb. Məlumatları ətraflı şəkildə aşağıdakı linklərdən oxumaq mümkündür:

— https://britainpost.co.uk/2022/04/09/geneve-hosts-event-on-removing-landmines-in- azerbaijan

— https://europebriefnews.com/2022/04/09/azerbaijan/

— https://germanylatest.com/2022/04/09/the-institute-for-rights-development-hosts-an-event-to-eradicate-landmines-in-azerbaijan/

— Almaniyalı alim, Qiessen Universitetinin dosenti, Dr.Mixael Raynhard Hessin "Şuşanın irsi. Azərbaycanın mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" adlı kitabın 2022-ci ilin mart ayında Berlində alman dilində nəşr edildiyi, Şuşa və Qarabağın Azərbaycanın mədəniyyət və ədəbiyyat tarixində malik olduğu zəngin irsin Avropa ilə yanaşı, ABŞ və digər ölkələrdə də elmi və siyasi-ictimai dairələrə çatdırılması məqsədilə kitabın yayıldığı coğrafi məkanın genişləndirilməsi zərurətinin yarandığı, "Şuşanın irsi" kitabının ingilis dilində nəşr edildiyi təqdirdə, çoxsaylı diaspora təşkilatlarımız tərəfindən təqdimatı, resensiyaların yazılması və eləcə də digər dillərə də tərcümə edilərək yayılması imkanının genişlənəcəyinə istinad edilərək sözügedən vəsaitin ingilis dilində hazırlanıb, tərcümə edilib 500 ədəd tirajla çap edilməsi məqsədilə Münhen Azərbaycanlıları Mədəniyyət Mərkəzinin Berlin Gulandot nəşriyyatı ilə müqavilə imzalanaraq 2023-cü ildə nəşr və çap ediləcəyinə istinadən Komitə tərəfindən dəstək göstərilib.

— Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və "Sərhədsiz Ədalət və Hüquq" (Justice et Droits Sans Frontieres) Assosiasiyasının təşkilatçılığı ilə UNESCO-nun Paris yerləşən mənzil-qərargahı önündə Qərbi Azərbaycan mədəni irsinin dağıdılmasını əks etdirən sərgi xarakterli aksiya təşkil olunub.

— Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü, Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitutun təşkilatçılığı ilə BMT-nin Cenevrə şəhərində

yerləşən mənzil- qərargahı önündə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina probleminə və Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərə həsr olunmuş məsələləri əks etdrən 3 günlük sərgi xarakterli aksiya təşkil olunub.

— Norveçin “Klassekampen” qəzetində "Azərbaycan haqqında yanlış fikir" sərlövhəli məqalə dərc olunub. Bu ölkədə fəaliyyət göstərən “CAN” diaspor təşkilatının sədri Şervin Nəcəfpurun qələmə aldığı məqalə bir neçə gün öncə həmin qəzetdə çap olunmuş "Gizli müharibə: Azərbaycan Dağlıq Qarabağda yeni hücumlara başlayır” sərlövhəli müsahibəyə cavab olaraq yazılıb. Müəllif hazırda dünyada baş verənlərin fonunda norveçli jurnalistin erməni separatçılarına hamilik edən dövlətin mənbəyinə istinad edərək, Azərbaycanla bağlı uydurma məlumat yaymasını “ironik hal” və “uğursuz cəhd” adlandırıb. (https://klassekampen.no/utgave/2022-04-12/debatt-misvisende-om-aserbajdsjan)

— Macarıstanın paytaxtı Budapeştdə fəaliyyət göstərən Azərbaycan Evində Azərbaycan Diasporuna Dəstək Fondu (ADDF) və Macarıstan Azərbaycan Evinin təşkilatçılığı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Erməni vandalizmi: işğaldan öncə və sonra" adlı fotosərgi keçirilib. Layihə “İnsan hüquqları XXI əsr – Azərbaycan” Fonduna məxsusdur.

— Türkiyədə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avrasiya Yazarlar Birliyinin təşkilatçılığı ilə azərbaycanlı jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtının “Erməni uydurmalarından yaranan bəşəri cinayətlər: dünəni və bu günü” (“Ermeni Uydurmalarından Doğan Beşerî Cinayetler: Dün ve Bugünü”) adlı elmi əsəri çap edilib.

20 Yanvar faciəsinin 32-ci ildönümü

20 Yanvar faciəsi, Xocalı soyqırımı, 31 mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması istiqamətində Azərbaycan diaspor təşkilatları tərəfindən 2022-ci il ərzində ümumilikdə dünyanın 44 ölkəsində 166 tədbir, aksiya, konfrans və dəyirmi masa təşkil olunub.

- RF Tatarıstan Respublikasının Kazan şəhərində Azərbaycan diasporunun təşkilatçılığı ilə şəhər məscidlərinin birində baş tutan mərasimdə 20 Yanvar şəhidləri anılıb. Tədbirdə imam-xətib Əbdürrəuf Zabirov, Tatarıstanın xalq artisti, professor Minqol Qaliyev də iştirak edib.
- RF Sankt-Peterburq şəhərindəki Lensovet adına Mədəniyyət Sarayında, Sankt-Peterburq Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin və Azərbaycanın bu şəhərdəki Baş konsulluğunun təşkilatçılığı ilə baş tutan anım mərasimində diasporumuzun və yerli ictimaiyyətin 100-dən çox nümayəndəsi iştitrak edib.
- RF Perm şəhərində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar konfrans keçirilib.
- RF Yekaterinburq şəhərində Sverdlovsk "Ural-Azərbaycan" İctimai Milli-Mədəni Təşkilatının təşkilatçılığı və Azərbaycanın Yekaterinburq şəhərindəki Baş konsulluğunun iştirakı ilə baş tutub. Tədbirdə Sverdlovski vilayətinin deputatı Vaqner Mixayloviç, Sverdlovsk vilayətinin insan hüquqları üzrə müvəkkili Tatyana Merzlyakova, Azərbaycan diasporunun, yerli dövlət qurumlarının və digər xalqların diaspor nümayəndələri iştirak ediblər.
- RF Pyatiqorsk şəhərində "Araz" Pyatiqorsk Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə anım tədbiri keçirilib.
- RF-da fəaliyyət göstərən soydaşlarımızın təşəbbüsü ilə Qroznı, Mahaçqala və Kislovodsk şəhərlərində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş anım tədbirləri keçirilib. Çeçenistan Respublikasının həmvətənlərlə əlaqələr üzrə "Yardım" ("Ortsa") milli agentliyinin Qroznıdakı ofisində baş tutan tədbirdə agentliyin direktor müavini İslam Saydayev, "Soz" millətlərarası analitik-diskussiya klubunun rəhbəri Saypuddin Quçiqov, Azərbaycan diasporunun təmsilçisi Yekaterina Muradova və başqaları iştirak edib.

— Ukraynanın Kiyev şəhərində Ukrayna Azərbaycanlıları Radasının (UAR) Kiyevdəki mərkəzi ofisində, Dnepropetrovsk şəhərində Dnepr Azərbaycanlıları Liqasının Milli Mədəniyyət Mərkəzində, Xarkov şəhərində fəaliyyət göstərən "Dostluq" Azərbaycan mədəni-təhsil mərkəzində anım tədbiri baş tutub. Yanvarın 23-də isə mərkəzin yetirmələri Azərbaycanın Xarkov şəhərindəki fəxri konsulluğunun təşkilatçılığı ilə "Buzzok" informasiya-sərgi mərkəzində açılan "Qara Yanvar" adlı fotosərgini ziyarət ediblər.

— Ukraynanın https://kyivdiplomatic.com/ua xəbərlər saytında "Qara Yanvar 1990-cı ilin kədərli hadisəsini xatırladır" sərlövhəli məqalə yerləşdirilib. Kiyev Əqli Mülkiyyət və Hüquq İnstitutunun professoru, hüquq elmləri doktoru, Ukrayna Azərbaycanlıları Alimlər Şurasının sədri Arif Quliyevin qələmə aldığı məqalədə 20 Yanvar hadisələrinin səbəbləri və mahiyyəti, erməni müşavirlərlə əhatə olunan Mixail Qorbaçovun xalqımıza qarşı qərəzli, yolverilməz və ermənipərəst siyasət yürütdüyü barədə ətraflı məlumat verilib, ümummilli lider Heydər Əliyevin 20 Yanvar barədə fikirlərinə yer verilib. https://kyivdiplomatic.com/ua/news/2032

— Moldovanın paytaxtı Kişinyov şəhərində Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Azərbaycanın bu ölkədəki səfirliyində baş tutan tədbirdə Konqresinin sədri Elçin Bayramov, diaspor fəalları Maarif Rəhimov, Yasin Seyidov və Xaqani Kərimov çıxış edib.

— "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə İsrailin Yerusəlim şəhərində 20 Yanvar – Ümummilli Hüzn Gününün 32-ci ildönümünə həsr olunmuş "Qanlı Yanvar" mövzusunda tədbir keçirilib.

— ABŞ-ın paytaxtı Vaşinqton şəhərində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar "Baku Group"un təşkilatçılığı ilə Kino Sənəti Teatrında "Silahdaşlar" sənədli filmi nümayiş olunub.

— Estoniyada fəaliyyət göstərən Azərbaycan Evinin təşkilatçılığı ilə Estoniyanın Tallin şəhərində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbirdə Azərbaycan və Türkiyənin bu ölkədəki səfirliklərinin əməkdaşları, Estoniya parlamentinin üzvləri, Estoniya Mədəniyyət Mərkəzinin tabeliyindəki İnteqrasiya Fondunun əməkdaşları, Azərbaycan diasporunun və müxtəlif icmaların nümayəndələri iştirak ediblər.

— İsveçrədə fəaliyyət göstərən “Qarabağ” həftəsonu Azərbaycan məktəbinin növbəti dərsinin mövzusu 20 Yanvar – Ümumxalq Hüzn Gününün 32-ci ildönümünə həsr olunub.
— Monteneqronun “TV7” televiziya kanalının səhər verilişində Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar geniş məlumat verib.
— Niderland Krallığında fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqesi (BAK) 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar bəyanatla çıxış edib, beynəlxalq ictimaiyyəti 20 Yanvar faciəsinə hüquqi qiymət verməyə çağırıb.
— “Barselonadakı Azərbaycanlılar Cəmiyyəti”nin və Barselona Azərbaycan Evinin təşkilatçılığı ilə İspaniyanın Barselona şəhərində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
— Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Zərifə Əlizadənin təşəbbüsü ilə Serbiyanın https://www.danas.rs xəbər saytında 20 Yanvar – Ümumxalq Hüzn Günündən bəhs edən məqalə yerləşdirilib.
— Stokholmun mərkəzində yerləşən “Zorakılığa qarşı” abidəsinin önündə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan anım tədbiri keçirilib.
— İsveç Azərbaycanlıları Koordinasiya Şurasının (İAKŞ) və "Odlar Yurdu" İsveç-Azərbaycan Mədəniyyət Birliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar onlayn formatda anım tədbiri keçirilib.
— Fransanın Strasburq şəhərində Azərbaycanın Avropa Şurası yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbir Azərbaycan Televiziyasının istehsalı olan “Tarixin izi ilə – 20 Yanvar” sənədli filmin nümayişi ilə davam edib.
— Fransanın Nant şəhərində fəaliyyət göstərən “Qarabağ” həftəsonu Azərbaycan məktəbində növbəti dərsin mövzusu 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr edilib.
— Yunanıstanın https://www.karfitsa.gr xəbər portalında 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar “20 Yanvar – Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir” sərlövhəli məqalə yerləşdirilib. Məqaləni ətraflı

şəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://www.karfitsa.gr/diethni/i-20i-ianouariou-einai-mia-iroiki-selida-stin-istoria-tou-azerbaitzan/

— Oslo şəhərində fəaliyyət göstərən Nizami Gəncəvi adına həftəsonu Azərbaycan məktəbinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş "Ağla, qərənfil, ağla" mövzusunda virtual anım tədbiri keçirilib.

— Monteneqronun və Bosniyanın bir sıra xəbər portallarında Azərbaycan-Monteneqro Mədəni-İqtisadi Əlaqələr Mərkəzinin sədri Seyran Mirzəzadənin təşəbbüsü ilə 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş məqalələr yayımlanıb. Azərbaycan-Monteneqro Mədəni-İqtisadi Əlaqələr Mərkəzinin xüsusi məsləhətçisi Böjidar Proroçiçin qələmə aldığı məqalələri aşağıdakı linklərdən oxumaq mümkündür:

— http://crnogorskiportal.me/sadrzaj/7027

— ttp://bosnjaci.net/prilog.php?pid=74911

— https://magazin.sandzak.com/2022/01/19/32-godisnjica-crnog-januara-u-azerbejdzanu/

— https://dijasporabih.com/32-godisnjica-crnog-januara-u-azerbejdzanu/

— Misir-Azərbaycan Dostluq Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili kursunun müdavimi Əsma Əhməd Bəhiri "Nile1" portalında 20 Yanvar faciəsi haqqında məqalə ilə çıxış edib.

— Türkiyənin Ankara, İzmir, İğdır, Giresun, Manisa, Bilecik şəhərlərində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar anım mərasimləri təşkil olunub, Eskişehir Azərbaycanlılar Dərnəyinin təşkil etdiyi "Çərşənbə Söhbətləri" nin bu həftəki mövzusu 20 Yanvar faciəsinə həsr olunub.

— Yaponiya-Azərbaycan Dostluq Mərkəzi 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar bəyanatla çıxış edib.

— Avstraliya Azərbaycanlıları Assosiasiyasının təşəbbüsü ilə Avstraliyada 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar virtual anım tədbiri keçirilib.

— Tbilisidə "Alyans Gənclər Mərkəzi"nin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin qurbanları yad edilib.

— Qırğızıstanın paytaxtı Bişkek şəhərində. “Azəri” ictimai birliyinin və ölkəmizin Qırğızıstandakı səfirliyinin birgə təşkilatçılığı ilə 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar anım tədbiri keçirilib.Tədbir zamanı “Qara Yanvar” sənədli film nümayiş etdirilib və 20 Yanvar hadisələrini əks etdirən fotosərgi nümayiş olunub.
— 20 yanvar 2022-ci il tarixi ərəfəsində Azərbaycana və xalqımıza rəğbət bəsləyən xarici gənclər 20 Yanvar – Ümumxalq Hüzn Günündə müxtəlif addımlarla ölkəmizlə həmrəy olduqlarını nümayiş etdiriblər.

Xocalı soyqırımının 30-cu ildönümü

— Ukrayna Xarici İşlər Nazirliyinə Xocalı soyqırımının tanınması ilə bağlı prosedura başlamaq barədə müraciət olunub. Müraciəti Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Lyudmila Marçenko imzalayıb. Müraciətdə bildirilir ki, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, “Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu”nun sədri Hikmət Cavadovun imzası ilə Ali Radaya daxil olan məktubda Xocalı soyqırımının tanınması məsələsi qaldırılıb. Eyni zamanda Kiyev və Odessanın mərkəzi küçələrində “Xocalıya ədalət!” şüarının, Xocalı soyqırımının rəmzi olan “Ana harayı” abidəsinin təsvirinin əks olunduğu bilbordlar yerləşdirilib, Xocalı soyqırımından bəhs edən məlumatlandırıcı lövhələr quraşdırılıb.
— Rusiya Federasiyasının Primorsk, Leninoqorsk, Yekaterinburq, Perm, Pyatiqorsk, Mahaçqala, Mineralnıye Vodı, Nalçik, Nazran, Volqoqrad, Novorossiysk və digər böyükşəhərlərində Azərbaycan diaspor təşkilatları tərəfindən Xocalı soyqırımının 30-cu ildönümü iləəlaqədar anım tədbirləri təşkil olunub. Silsilə tədbirlərdə diaspor üzvləri, rəsmi şəxslər, yerliictimaiyyətin nümayəndələri, soydaşlarımız iştirak ediblər.
— Bakıda Opera və Balet Teatrında Ukrayna Azərbaycanlıları Radasının, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun (UABD) təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Mədəniyyət Nazirliyinin iştirakı ilə Ukraynanın “Qara kvadrat” improvizasiya teatrının ifasında Xocalı soyqırımına həsr olunmuş “Böyüməyən uşaqlar” tamaşası nümayiş etdirilib.

— Almaniyanın Köln şəhərindəki “Alman-Azərbaycan Mədəniyyət Evi”, Vyanada “Azərbaycan Akademik Birliyi” və aidiyyəti üzrə səfirlik tərəfindən, Zalsburqda “Avstriya Azərbaycanlıları Cəmiyyəti” tərəfindən Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib. Tədbirlər çərçivəsində “Erməni təcavüzünün tanıdılması” İctimai Birliyinin sədri Səriyyə Cəfərovanın müəllifi olduğu, Xocalıda şəhid olan 63 uşaqdan bəhs edən “Onlar heç vaxt böyüməyəcəklər” adlı kitabın təqdimat mərasimi təşkil olunub.
— Türkiyənin İstanbul şəhərindəki İstanbul Universiteti Ədəbiyyat fakültəsi Kurul salonunda Xocalı Soyqırımı zamanı qətlə yetirilən 70 ahıldan bəhs edən “Geriyə baxma” adlı kitabın təqdimat mərasimi baş tutub.
— İsraildə fəaliyyət göstərən və bu ölkə ilə İslam ölkələri arasında sülhün təşviq olunması üzrə fəaliyyət göstərən qurum olan İqtisadi Sülh Mərkəzi (İSM) (Economic Peace Center) tərəfindən Yerusəlimdə yerləşən Menahem Begin İrsi Mərkəzində “Qarabağ və Xocalı soyqırımı” mövzusunda konfrans təşkil olunub.
— Polşanın Qdansk və Poznan şəhərlərində şəhərilərində Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar dinc aksiya keçirilib.
— Niderlandın Rotterdam şəhərindəki “Life & Changing” İncəsənət və Mədəniyyət Mərkəzində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Benilüks Azərbaycanlıları Konqresinin təşkilatçılığı Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Xocalıya ədalət!” adlı anım tədbiri keçirilib.
— Almaniyanın Berlin şəhərindəki “Xarı Bülbül” mədəniyyət evinin nəzdində təşkil olunmuş Ana dili kurslarının yuxarı yaş qrupu müdavimlərinə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "Xocalı soyqırımını gənc nəslin nümayəndələrinə tanıdaq" mövzusunda maarifləndirici seminar keçirilib.
— Moldovada yaşayan soydaşlarımız Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar BMT və ATƏT-in Moldovadakı nümayəndəlikləri önündə dinc piket keçiriblər.
— Niderlandın Haaqa şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, “Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar Birliyinin və Benilüks Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Niderland parlamenti və Ermənistanın Haaqadakı səfirliyi qarşısında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar silsilə aksiyalar keçirilib.

— Estoniya xalqının təmsilçilər məclisi olan Riyqikoqunun Azərbaycanla parlamentlərarası əlaqələr üzrə deputat qrupu Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanatla çıxış edib. Sven Sesterin başçılıq etdiyi deputat qrupuna Xocalı soyqırımının 30-cu ildönümünə münasibət bildirməsi təşəbbüsü ilə Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyev müraciət edib. Bəyanat Riyqikoqunun rəsmi saytında yerləşdirilib: https://www.riigikogu.ee/ru/novosti-fraktsij/novosti-obedineniya/zayavlenie-deputatskoj-gruppy-rijgikogu-po-parlamentskim-svyazyam-s-azerbajdzhanom-v-svyazi-s-godovshhinoj-hodzhalinskoj-rezni/
— Monteneqronun paytaxtı Podqoritsa şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyasına start verilib.
— Fransanın Nitsa (Nice) şəhərində Heydər Əliyev Fondunun və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Fransada Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım konserti keçirilib. Tədbirdə Fransanın Şarant bölgəsinin deputatı, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jerom Lamber, Turkiyənin Marsel şəhərində baş konsulu Arda Ulutaş, ictimai-siyasi xadimlər, Azərbaycan diasporunun və türk assosiasiyalarının nümayəndələri iştirak ediblər.
— Xocalı soyqırımının 30-cü ildönümü ilə əlaqədar İtaliyanın Roma və Milan şəhərlərindəki metro stansiyalarında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-İtaliya Birliyinin təşəbbüsü ilə bu faciəni əks etdirən videoçarxın yayımlanmasına start verilib.
— Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycanın Avstriyadakı səfirliyinin iştirakı və Azərbaycan Akademik Birliyinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə Azərbaycan Akademik Birliyinin sədri Kamal Əkbərov, Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, Milli Məclisin deputatı Azay Quliyev, Azərbaycan Akademik Birliyinin fəxri sədri Tofiq Mürşüdlü, Srebrennitsa-Potoçari Memorial Mərkəzinin direktor müavini Amra Begiç Fazliç, Avstriyadakı Bosniya və Herseqovina icmasının üzvü Armin Pyevlyakoviç, “Erməni təcavüzünün tanıdılması” İctimai Birliyinin sədri, yazıçı-publisist Səriyyə Müslümqızı çıxış ediblər.

— İsveçdə yaşayan soydaşlarımız İsveç Azərbaycanlıları Konqresinin sədri Emil Mirzoyevin imzası ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar ölkə hökumətinə və Xarici işlər Nazirliyinə müraciət ediblər.

— Varşava Milli Filarmoniyasında Polşa Azərbaycanlıları Şurasının və ölkəmizin Polşadakı səfirliyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

— Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Monteneqrodakı Mehmet Fatih Mədrəsəsində Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşkilatçılığı ilə anım tədbiri keçirilib. Mehmet Fatih Mədrəsəsinin Tuzi şəhərindəki əsas binası "Xocalı soyqırımı – 30" sözü ilə işıqlandırılıb. Tədbirin sonunda Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin adından Ermənistanın Azərbaycana qarşı təcavüzündən və Xocalı soyqırımından bəhs edən kitablar və təbliğat materialları mədrəsəninin kitabxanasına hədiyyə edilib.

— Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Çexiyanın "Vanda Metropolitano" stadionunda Çempionlar Liqasının "Atletiko Madrid" – "Mançester Yunayted" futbol klublarının qarşılaşması zamanı "Xocalıya ədalət!" şüarının əks olunduğu poster nümayiş etdirilib.

— Fransanın paytaxtı Paris şəhərində Heydər Əliyev Fondunun və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycanın Fransadakı Səfirliyinin və UNESCO yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirin bədii hissəsində tanınmış azərbaycanlı pianoçu, bəstəkar, Azərbaycanın əməkdar artisti İsfar Sarabskinin ifasında caz musiqisindən ibarət konsert proqramı təqdim edilib.

— Tallin şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Buta Art Studio" Azərbaycan Yaradıcılıq Məqkəzinin təşkilatçılığı ilə azərbaycanlı rəssam Rövşən Quliyevin (Nur) fərdi rəsm sərgisi keçirilib.

— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və İtaliya Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndirici Fərid Abbasovun təşkilatçılığı ilə İtaliyanın https://agenziastampa.net xəbər portalında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məqalə yayımlanıb. (https://agenziastampa.net/2022/02/25/il-massacro-di-khojaly/)

— Danimarkada yaşayan soydaşlarımız “Vətən” Danimarka-Azərbaycan Cəmiyyətinin sədri Səfər Sadiqinin imzası ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar ölkənin rəsmi qurumlarına müraciət ediblər.
— Helsinki şəhərinin mərkəzi hissəsində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Finlandiya Azərbaycanlıları Koordinasiya Şurasının və Azər-Türk Gənclər Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib.
— Finlandiya parlamentinin yaxınlığındakı Helsinki Musiqi Evinin (Musiikkitalo), “Kampi” ticarət mərkəzinin qarşısında və digər yerlərdəki elektron lövhələrdə Xocalı soyqırımı həqiqətlərini əks etdirən məlumat yerləşdirilib.
— Stokholm şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və “Ana Vətən” Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyevanın təşəbbüsü ilə məşhur isveçli fotoqraf Mikael Silkebergin Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş fotosərgisi açılıb.
— Niderlandın Haaqa şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib.
— Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Stokholmda Azərbaycan icması ilə görüş keçirilib. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitısinin sədri Fuad Muradov, ölkəmizin İsveçdəki fövqəladə və səlahiyyətli səfiri Zaur Əhmədov, Stokholm və digər şəhərlərdə yaşayan azərbaycanlılar və türk diasporunun nümayəndələri iştirak ediblər.
— Norveçin paytaxtı Oslo şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, “CAN” diaspor təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar anım tədbiri və sərgi keçirilib. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycanın İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Zaur Əhmədov, Türkiyə, Pakistan, Bosniya və Hersoqovina, Qazaxıstan və Şimali Makedoniyanın bu ölkədəki səfirləri, yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.
— Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına həftəsonu Azərbaycan məktəbində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveçdəki əlaqələndiricisi, Nizami Gəncəvi adına həftəsonu Azərbaycan dili məktəbinin rəhbəri Ramil Əliyevin təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar anım tədbiri keçirilib.

— İtaliyanın paytaxtı Roma şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-İtaliya Birliyinin təşəbbüsü ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar "Xocalıya ədalət!" adlı aksiya keçirilib.

— Fevralın 28-də Lüksemburqda Diasporla İş üzrə Dövlət Komitəsinin informasiya dəstəyi və "Qarabağ" Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

— Praqa şəhərindəki müqəddəs Salvador kilsəsində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Natəvan" cəmiyyətinin üzvləri Leyla Begim və Fərid Əliyevin təşkilatçılığı ilə Xocalı və Liditse soyqırımları qurbanlarına həsr olunmuş anım konserti keçirilib.

— Yunanıstanın Saloniki şəhərinin Aristotel meydanında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Qala" Yunanıstan-Azərbacan Dostluq Cəmiyyətinin və Salonikidəki Azərbaycan Evinin rəhbəri Rəşid Məmmədovon təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib.

— Serbiyada Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Zərifə Əlizadənin təşəbbüsü ilə https://www.danas.rs xəbər saytında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlqədar məqalə yayımlanıb.(https://www.danas.rs/svet/azerbejdzan-obelezava-30-godina-od-genocida-u-hodzaliju/)

— Litvanın Klaypeda şəhər mədəniyyət mərkəzində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Azəris" diaspor təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar anım tədbiri keçirilib.

— İsveçrənin Sürix şəhərindəki "Volkshaus" konsert və sərgi zalında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, İsveçrə Azərbaycanlıları Mədəniyyət, Dostluq və Həmrəylik Cəmiyyətinin və Sürix Türk Musiqi Cəmiyyətinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar "Epitafiya 613 – Xocalı, bir daha əsla!" adlı anım tədbiri keçirilib. Tədbirdə Azərbaycanın İsveçrədəki səfirliyinin, Türkiyənin Sürixdəki konsulluğunun əməkdaşları, Azərbaycan və Türkiyə diasporunun nümayəndələri iştirak ediblər.

— Yunanıstanın https://www.karfitsa.gr xəbər saytında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "Qala" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin, Saloniki Azərbaycan Evinin rəhbəri Rəşid Məmmədovun məqaləsi yerləşdirilib. (https://www.karfitsa.gr/diethni/qala-30-chronia-apo-ti-genoktonia-tou-chotzali/)

— Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və Münhen Azərbaycanlıları Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Xocalı faciəsini əks etdirən poçt markaları olan 300 flayer Almaniya Federativ Respublikasının bundestaqı, Bavariya landtaqı (parlament), Almaniya Mərkəzi Protestant kilsəsi, Alman Mərkəzi Arxeparxiya, Almaniyada Yəhudilərin Mərkəzi Şurası", Almaniyada Müsəlmanların Mərkəzi Şurası və sair kimi dövlət və ictimai qurumlara ünvanlanıb.
— Norveçin Norheymsund kilsəsində Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar anım konserti keçirilib. Konsertdə bu ölkədə yaşayan soydaşlarımız Jalə Əliyeva (violonçel), Sevinc Əsgərova-Ovrexus (fortepiano, orqan) və Maya Bədəlbəyli (fortepiano) çıxış ediblər.
— Fevralın 28-də Niderlandın https://www.haber.nl xəbər saytında Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar Niderland Krallığında fəaliyyət göstərən "Azerbaijani Ladies Club"un rəhbəri Kəmalə Ceylinovanın qələmə aldığı "Xocalı soyqırımının qanlı səhifəsi" sərlövhəli məqalə yerləşdirilib. (https://www.haber.nl/savas-insanligin-en-kotu-hastaligidir-ve-soykirim-en-tedavi-edilemez-yaradir/)
— Latviyanın paytaxtı Riqa şəhərinin mərkəzi küçələrində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Azəri" gənclər təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar elektron lövhələr yerləşdirilib.
— Çexiyanın paytaxtı Praqa şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan icmasının üzvü Fərid Əmirəliyevin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib.
— Niderlandın Amsterdam şəhərinin Dam meydanında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyətinin sədri Firəngiz Bağırovanın eyniadlı hekayəsinin motivləri əsasında səhnələşdirilmiş "Bir gecənin sirri" adlı tamaşa nümayiş edilib.
— İspaniyanın Barselona şəhərindəki Kataloniya Musiqi Sarayında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, ölkəmizin İspaniyadakı səfirliyinin iştirakı, "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti"nin təşkilatçılığı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib. Tədbirdə Azərbaycanın İspaniyadakı fövqəladə və səlahiyyətli səfiri Ramiz

Həsənov, “Barselonadakı Azərbaycanlılar Cəmiyyəti” və İspaniya Azərbaycan Evinin rəhbəri Kərim Kərimov çıxış ediblər.

— Almaniyanın Karlsrue şəhərindəki “Baden Hall” konsert salonunda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və “Odlar Yurdu” kamera orkestrinin təsisçisi və direktoru Fəridə Rüstəmovanın təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım konserti keçirilib.

— Çexiyanın Praqa şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Şərqi Avropa Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Eldar Vəliyevin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib.

— Almaniyanın paytaxtı Berlin şəhərindəki Brandenburq qapıları önündə Xocalı soyqrırımının 30-cu ildönümü ilə əlaqədar fləşmob keçirilib, meydanda şamların düzülüşü ilə “Xocalı – 30” sözü və “613” rəqəmi yaradılıb.

— İsveçin Höteborq şəhərindəki mərkəzi kitabxanada İsveç-Azərbaycan Qarabağ Azadlıq Mərkəzinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

— Fransa-Azərbaycan Dialoq Assosiasiyası, “Ulduz” Mədəniyyət Dərnəyi, “ALİM” Elmi Birliyi, Fransa-Azərbaycan Gənclər Assosiasiyası, Fransada Azərbaycan Mədəniyyət Assosiasiyası, Fransada Azərbaycanlı Tələbələr Assosiasiyası və Fransa-Azərbaycan İcmasıXocalı soyqırımını 30-cu ildönümü ilə əlaqədar Fransa parlamentinin üzvlərinə müraciət edib.

— Serbiyanın paytaxtı Belqrad şəhərindəki Milli Muzeydə Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı və ölkəmizin Serbiyadakı səfirliyinin dəstəyi ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım konserti keçirilib.

— Tallin şəhərindəki Estoniya Musiqi və Teatr Akademiyasında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və “Aydan” Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyevin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirib.

— Fransanın Nant şəhərində fəaliyyət göstərən “Qarabağ” həftəsonu Azərbaycan məktəbindəki növbəti dərsin mövzusu Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunub.

— Avstriyanın Zalsburq şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avstriya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Erməni təcavüzünün tanıdılması” İctimai

Birliyinin sədri, jurnalist Səriyyə Cəfərovanın “Onlar heç vaxt böyüməyəcək” adlı kitabı təqdim olunub.

— İsveçrənin Sürix şəhərində fəaliyyət göstərən "Buta" rəqs dərnəyində Xocalı soyqırımının 30-cu ildönümünə ithaf olunmuş rəqs təqdim edilib.
— Litvanın Vülnüs və Kaunas şəhərlərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib.
— İsveçrənin Bazel şəhərindəki “Schmiedenhof Zunftsaal” zalında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Azərbaycanın Dostları" Birliyinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar “Biz unutmadıq” adlı anım tədbiri keçirilib.
— Almaniyanın Köln şəhərindəki Azərbaycan Evində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Alman-Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
— “Niderlandda Azərbaycan Evi” təşkilatı Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Frisland vilayətinin parlamentində fəaliyyət göstərən 7 siyasi partiyanın təmsilçisinə müraciət edib.
— İsveçrənin Cenevrə şəhərində Azərbaycanın Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyinə həsr olunmuş “Ədalət, sülh və inkişaf axtarışında” adlı anım tədbiri keçirilib.
— İtaliyanın Milan şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Neapol-Bakı Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar azərbaycanlı rəssam Elay Məmmədovun “Xocalıdan portretlər” adlı fərdi rəsm sərgisi təqdim olunub.
— Niderlandda fəaliyyət göstərən Niderland Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin təşəbbüsü və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.
— Latviyanın https://lz.lv xəbər saytında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məqalə yerləşdirilib. (https://lz.lv/p/segodnia-azerbaidzhantsy-latvii-pominaiut-zhertv-khodzhadinskoi-rezni-87170)
— Paris şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Fransada fəaliyyət göstərən “Etibar Asadli PRO” şirkətinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Sülh üçün oxu” adlı layihə həyata keçirilib. (https://youtu.be/ZfHdrTIEit8)

— Fransada yaşayan soydaşlarımızın yerli ekspertlərlə birgə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş vebinar keçirilib. Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının və "ALİM" elmi cəmiyyətinin rəhbəri Günel Səfərovanın moderatorluğu ilə keçirilən vebinarda "Fransa müsəlmanları" jurnalının baş redaktoru Jan Mişel Brun, sosial elmlər üzrə beynəlxalq tədqiqatlar qrupunun (GERİSS) direktoru Naim Asas və Xocalı soyqırımının canlı şahidi Şahsuvar Mirzəyev çıxış ediblər.
— Budapeşt şəhərində Azərbaycanın Macarıstandakı səfirliyində azərbaycanlı yazıçı və şairə Leyla Bəyimin Xocalı faciəsindən bəhs edən "Qara qar çiçəkləri" kitabının macar dilində təqdimat mərasimi keçirilib.
— Almaniyanın Bad Meinberg və Horn şəhərlərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "Sülhə doğru" adlı konsert keçirilib. Almaniyada yaşayan tanınmış musiqiçi və bəstəkar Xədicə Zeynalovanın rəhbərlik etdiyi "Bridge of Sound" orkestrinin 12-13 mart 2022-ci il tarixlərində baş tutan konsertində yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
— İsveçrənin Bern şəhərində fəaliyyət göstərən "Qarabağ" həftəsonu Azərbaycan məktəbində Xocalı soyqırımının 30-cu ildönümü mövzusunda dərs keçirilib.
— Almaniyanın "freitag.de" və "trtdeutsch.com" portallarında diaspor fəalları Fəxrəddin Hacıbəylinin və Samir Həsənovun qələmə aldıqları "Xocalı soyqırımının 30 illiyi" və "Xocalı qətliamının 30-cu ildönümü: sıxışdırılmış, gizlədilmiş, unudulmuş!" sərlövhəli məqalələr dərc olunub.
— Niderland Krallığındakı "Stichting Together Strong" Assosiasiyasının təsisçisi İlkanə Qoca "Xocalıya ədalət!" beynəlxalq informasiya kampaniyası çərçivəsində yeni layihəsi olan niderland dilində https://justiceforkhojaly.nl saytının fəaliyyətinə start verib.
— Almaniyanın Şimali Reyn-Vestfaliya əyalətinin kansler administrasiyası Köln şəhərində fəaliyyət göstərən Alman-Azərbaycan Mədəniyyət Evinin Xocalı soyqırımı ilə bağlı müraciətini cavablandırıb. Məktubda dövlət kanslerinin adından müraciətə və "Onlar heç vaxt böyüməyəcəklər" kitabına görə soydaşlarımıza minnətdarlıq bildirilib. Qeyd edilib ki, əyalət rəhbərliyi hər cür müharibə və işgəncə faktlarına qarşı çıxış edir. Ümid edilib ki, Xocalı soyqırımı həqiqətləri alman federal idarəçiləri və münaqişə tərəflərinin birgə səyləri ilə üzə çıxacaq. Bu məktub alman rəsmilərinin Xocalı soyqırımı ilə bağlı diaspor təşkilatlarının keçirdiyi mühüm tədbirlərə yüksək səviyyədə reaksiyadır.
— ABŞ-ın Florida ştatının Hallandeyl Biç şəhərinin meri Coy Kuper Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyannamə imzalayıb.

— ABŞ-ın Meyn ştatındakı Portland şəhərində Azərbaycanlı tələbə Rüstəm Əhmədovun təşəbbüsü və Meyn Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun təşkilatçılığı ilə Cənubi Meyn Universitetində (University of Southern Maine) Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "İnsanlığa qarşı cinayət" mövzusunda konfrans keçirilib.
— İsrailin Yerusəlim şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
— Çilinin https://www.infogate.cl xəbər saytında Adolfo İbanez adına Universitetin professoru, əslən Kəlbəcərdən olan Şəhriyar Nəsirovun "İndiyədək ədalət gözləyən Xocalı soyqırımından 30 il ötür" sərlövhəli məqaləsi yayımlanıb. (https://www.infogate.cl/2022/02/21/30-anos-del-genocidio-de-khojaly-que-aun-espera-su-justicia/)
— ABŞ-ın Şimali Karolina ştatının Fayetvill, Darem və Apeks şəhər merləri 26 fevral tarixini "Xocalının Anım Günü" kimi tanıyıb. Mitç Kolvin, Eleyn M. O'Nil və Jak Qilbertin imzaladıqları bəyannamələrdə bildirilib ki, Apeks, Darem və Fayetvill şəhərlərində və dünyada yaşayan Azərbaycan icması hər il 26 fevral tarixində Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin hüzn və kədər hissi ilə yad edir.
— Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Londonda yaşayan bəstəkar, "EMC Production"nın rəhbəri Emin Məcnunbəylinin təşəbbüsü ilə Xocalı qurbanlarının əziz xatirəsinə ithaf olunan "Remember" video klipi ərsəyə gəlib və "Youtube" kanalında yerləşdirilib. (https://youtu.be/f6ob_f3x0DI)
— İsrailin Tel-Əviv şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Bakı Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin, "İsraildə Azərbaycan Evi"nin və "İRS" beynəlxalq jurnalının təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "Xocalıya ədalət!" adlı anım tədbiri keçirilib. Tədbir çərçivəsində Xocalı soyqırımı dəhşətlərini əks etdirən fotosərgi təşkil edilmiş və "İRS" jurnalının Azərbaycanın Vətən müharibəsində möhtəşəm qələbəsinə həsr olunmuş buraxılışı ivrit dilində təqdim olunub.
— London şəhərində yaşayan soydaşlarımız Xocalı soyqırımı qurbanlarına ithaf etdikləri "Chiquilin de Bachin" əsərinin videoklipini təqdim ediblər. Klipdə əsəri Səadət Fərziyeva (piano), Rasim Fərziyev (kamança) və Tereza Mostallino (kamança) ifa ediblər. Tanqo janrında bəstələnmiş mahnının müəllifləri argentinalı bəstəkar Astor Pyatsolla (Astor Piazzolla) və şair

Horasio Ferrerdir (Horacio Ferrer). Klipi aşağıdakı linkdən izləmək mümkündür: https://youtu.be/V2qoggUlrkk

— Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Miçiqan Dövlət Universitetinin tələbəsi, gənc ictimai fəal Matt Garnettin təşəbbüsü ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş beynəlxalq videokonfrans keçirilib. Tədbirdə peşəkar jurnalist Neil Vatson (Birləşmiş Krallıq), Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının prezidenti Günel Səfərova (Fransa), tanınmış tarixçi və siyasi analitik Patrik Uolş (İrlandiya) çıxış ediblər. Konfrans zamanı Xocalı soyqırımı həqiqətlərini əks etdirən müxtəlif videoçarxlar nümayiş olunub.

— Kvebek Azərbaycanlıları Assosiasiyasının sədri Məsud Əliyev Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Kanadanın parlament üzvlərinə müraciət edib.

— Mexiko şəhərindəki "Centro Escolar Patria" liseyində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Meksikada yaşayan diaspor fəalı Sevda Verdiyevanın təşəbbüsü ilə Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar konfrans keçirilib.

— London şəhərində Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar yürüş keçirilib. "Natavan Qrup"un təşkilatçılığı ilə baş tutan aksiyada iştirak edən soydaşlarımız "Green Park Underground Station" ərazisindən Pikadilli-Kensinqton yolu boyunca Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinə doğru irəliləyiblər. Aksiya zamanı Xocalı soyqırımı həqiqətlərini əks etdirən fotomateriallar, "Biz xatırlayırıq!", "Xocalı soyqırımı. 26 fevral 1992", "Xocalıya ədalət!" şüarlarının əks olunduğu posterlər nümayiş olunub.

— London şəhərində Debunk Teatrının Xocalı soyqırımının 30-cu ildönümünə həsr etdiyi tamaşa nümayiş etdirilib. Britaniya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı və London Azərbaycan Evinin dəstəyi, Diasporla İş üzrə Dövlət Komitəsinin maliyyə dəstəyi ilə Bedford küçəsində yerləşən Müqəddəs Pavel kilsəsində iki gün baş tutan tamaşanın təqdimat mərasimində Azərbaycanın Birləşmiş Krallıqdakı səfirliyinin əməkdaşları, yerli ictimaiyyətin nümayəndələri və soydaşlarımız iştirak ediblər. Tamaşanın ssenari müəllifi Nik Od (Nick Awde), rejissoru Viki Mirandır (Vicky Moran). Əsər 1-5 mart 2022-ci il tarixində Union Teatrında da nümayiş etdirilib.

— ABŞ-ın "Hollysprings Suburban" jurnalında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Şimali Karolina ştatında fəaliyyət göstərən Azərbaycan Dostluq Təşkilatının təşəbbüsü ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə

əlaqədar “Xocalıya Ədalət!” tələbinin yer aldığı məlumat dərc edilib. (http://hollysprings.suburbanlivingmag.com/flipbook/mobile/index.html#p=50)

— Birləşmiş Krallığın London, Mançester, Birmingem və Qlazqo şəhərlərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Böyük Britaniyada fəaliyyət göstərən “Natavan Qrup”un təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib. Xocalı soyqırımına dair məlumatların, şüarların və təsvirlərin əks olunduğu LED ekranlı kiçik yük maşınları London, Mançester, Birminqem və Qlazqo şəhərlərinin mərkəzi küçələrində bir gün ərzində hərəkət edib.
— Şotlandiyanın Aberdin şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar yürüş keçirilib.
— ABŞ-ın 10 ştatının iri şəhərlərində Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Yuta-Azərbaycan Dostluq Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə aksiyalar Vaşinqton, Nyu-York, Mayami, Boston, Filadelfiya, Atlanta, Çikaqo, San Fransisko, Hyuston və Denver şəhərlərində baş tutub. Aksiyalar zamanı Xocalı soyqırımı həqiqətlərinin əks olunduğu LED ekranlı avtomobillərin mərkəzi küçələrdə hərəkəti təmin olunub.
— ABŞ-ın Minnesota ştatının Minneapolis şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Minnesota-Azərbaycan Assosiasiyasının rəhbəri Günel Rallisin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Xocalıya ədalət!” məlumatlandırma aksiyası keçirilib. Aksiya bir həftə davam edib.
— ABŞ-ın Şimali Karolina ştatının paytaxtı Roli (Raleigh) şəhərində Azərbaycan Dostluq Təşkilatının rəhbəri Adika İqbal və Vakkas İqbalın təşkilatçılığı Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Xocalıya ədalət” adlı məlumatlandırma kampaniyası

Şimali İrlandiyanın Belfast şəhərində yaşayan Azərbaycan icmasının 27 sentyabr – Anım Günü ilə əlaqədar məlumatlandırma akiyası keçirilib

27.09.2022

Kanadalı qonaqlar Gəncəyə və Şuşaya səfər ediblər

Kanada nümayəndə heyətində Kanadanın Milli Etnik Mətbuat və Media Şurasının İdarə heyətini üzvü, Kanada Birləşmiş İcmalarının Mətbuat Məşvərət Şurasının rəhbəri Toni Ruprext, jurnalist İnga Söney-Kelner, Türk Federasiyasının xarici əlaqələr üzrə konsul əlaqələndiricisi İsmail Vataner, "Vətən" Azərbaycan Mədəniyyət və İncəsənət Mərkəzinin rəhbəri Lalin Həsənova təmsil olunub.

06.06.2022

UNESCO-nun Paris şəhərində yerləşən mənzil-qərargahı önündə Qərbi Azərbaycanın mədəni irsinin dağıdılmasını əks etdirən sərgi xarakterli aksiya təşkil edilib

20.09.2022

Almaniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Ermənistanın Berlindəki səfirliyi qarşısında piket keçirib

20.09.2022

Niderlanddakı Azərbaycan icması Haaqa şəhərində icazəli piket keçirib

18.09.2022

Çex Respublikasında yaşayan Azərbaycan icması Praqa şəhərində icazəli aksiya keçirib

18.09.2022

ABŞ-ın Nyu-York şəhərində Ermənistanın hərbi təxribatları və təcavüzkar siyasəti ilə bağlı məlumatlandırma aksiyası keçirilib

27.09.2022

Çex Respublikasının paytaxtı Praqada 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib

27.09.2022

— Kosta-Rikanın “Horizontes” televiziyasında Xocalı faciəsinin 30-cu ildönümünə həsr edilmiş proqram yayımlanıb. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Kosta-Rikada yaşayan diaspor fəalı Solmaz Rəhimovanın təşəbbüsü ilə yayımlanan proqramda XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı barədə ətraflı məlumat verilib.
— ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Xocalı soyqırımının 30-cü ildönümü ilə əlaqədar Ümumamerika Xocalı Mitinqi keçirilib. Azərbaycan-Nyu York Assosiasiyasının təşəbbüsü ilə Kapitoli binasının yaxınlığında baş tutan izdihamlı mitinqdə ABŞ-ın müxtəlif ştatlarında yaşayan soydaşlarımız və Azərbaycana dost münasibət bəsləyən xalqların diaspor üzvləri iştirak ediblər.
— London şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar dramaturq Nik Odun “Khojaly” (“Xocalı”) pyesi kitab şəklində çap edilib. Kitab İngiltərənin məşhur “Waterstones” kitab mağazasında satışa çıxarılıb.
— (https://www.waterstones.com/book/khojaly/nick-awde/9781908755964)
— Səudiyyə Ərəbistanı, Bəhreyn krallıqlarında və Oman Sultanlığında yaşayan soydaşlarımızın 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar virtual anım tədbiri keçirilib.
— “Azəri” Yeni Zelandiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Qalib Mahmudovun təşəbbüsü ilə Yeni Zelandiyanın https://issuu.com saytında “Xocalı soyqırımından 30 il keçir” sərlövhəli məlumat yerləşdirilib. (https://issuu.com/times_e-editions/docs/times23feb22/4)
— Yeni Zelandiyada yaşayan azərbaycanlılar “Azəri” Yeni Zelandiya-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Oklend şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçiriblər.
— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avstraliya Azərbaycanlıları Assosiasiyasının təşkilatçılığı ilə Avstraliyanın Sidney şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.
— Qırğızıstanın Bişkek şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Mərkəzi Asiyada Tərəqqipərvər Azərbaycanlıların Birliyi” ictimai təşkilatının ölkəmizin Qırğızıstandakı Səfirliyi ilə birgə təşkil etdiyi anım tədbiri keçirilib.
— Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirdə Azərbaycan

Respublikasının Gürcüstandakı Səfirliyi və Gürcüstanda fəaliyyət göstərən Azərbaycanlı İş Adamları Birliyinin (AZEBI) birgə dəstəyi ilə Gürcüstanda yaşayan fiziki məhdudiyyətli uşaqlar üçün humanitar yardım göstərilib.

— Gürcüstanın Tbilisi şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Alyans" Gənclər Mərkəzinin və Gürcüstan Azərbaycanlıları İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbir keçirilib.
— Qardabani Gənclər Mərkəzinini təşkilatçılığı və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Xocalı soyqırımı yad edilib.
— Özbəkistanın paytaxtı Daşkənd şəhərində Daşkənddəki Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin (RAMMM) təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.
— Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycanın Qırğızıstandakı Səfirliyinin və "Azəri" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı anım tədbiri keçirilib.
— Qazaxıstanın Türküstan vilayətində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.
— Türkiyənin İstanbul, Ankara, İzmir, Giresun, Iğdır, Sakarya, Antalya, Tokat, Kütahya, Kocaeli şəhərlərində Xocalı qətliamının 30-cu ildönümü ilə bağlı silsilə tədbirlər,konfranslar, panellər, tamaşalar, aksiyalar və flaşmoblar təşkil olunub.
— Asiya və Yaxın Şərq üzrə tədqiqatçı, "Qarabağ: Qafqazda sülhə aparan yol" və "Dəmir yumruq - 2020-ci ilin Qarabağ müharibəsi" adlı kitabların müəllifi Əhməd Əbdo Tərabik İƏT-ə üzv ölkələri Xocalı soyqırımının tanınması ilə bağlı hərəkətə keçməyə çağırıb.
— Xocalı Soyqırımının 30-cu ildönümü ilə əlaqədar Koreya Parlamentinin və Koreya Prezidenti Administrasiyasının saytlarında Cənubi Koreyanın Seul şəhərində fəaliyyət göstərən "BUTA" Azərbaycan Koreya Dostluq Assosiasiyası tərəfindən petisiyalar yerləşdirilib.
— Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyası çərçivəsində hazırlanan videorolikdə Azərbaycana dost münasibət bəsləyən koreyalı xanım Naqyeonq Komun da videoçağırışı yer alıb.
— ABŞ-ın Florida Beynəlxalq Universitetində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar təqdimat mərasimi keçirilib. Tədbirdə universitetin professor-müəllim, tələbə heyəti, Azərbaycanın ABŞ-dakı səfirliyinin və Türkiyənin Mayamidəki Baş konsulluğunun diplomatları iştirak ediblər. ABŞ-da Azərbaycan

Tələbə Təşkilatının həmtəsisçisi, Florida Beynəlxalq Universitetinin Siyasi elmlər və beynəlxalq münasibətlər fakültəsinin tələbəsi Aydın Eminov bəşəriyyət tarixinin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı haqqında ətraflı təqdimatla çıxış edib.

ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Xocalı soyqırımının 30-cü ildönümü ilə əlaqədar Ümumamerika Xocalı Mitinqi keçirilib
26.02.2022

ABŞ-ın 10 ştatının iri şəhərlərində Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib
26.02.2022

Azərbaycan Diaspor Gəncləri (ADG) şəbəkəsinin üzvləri Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar müxtəlif sosial şəbəkələrdə məlumatlandırıcı aksiya keçiriblər
26.02.2022



İstanbul şəhərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "Adsız qadın" tamaşası təqdim olunub
26.02.2022

Kanadanın Monreal şəhərindəki Türk icma mərkəzində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib
26.02.2022

Amsterdam şəhərinin Dam meydanında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "Bir gecənin sirri" adlı tamaşa nümayiş edilib
26.02.2022

İspaniyanın Barselona şəhərindəki Kataloniya Musiqi Sarayında Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

26.02.2022

İstanbul şəhərindəki Bəyazit meydanında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar aksiya keçirilib

26.02.2022



Birləşmiş Krallığın London, Mançester, Birminqem və Qlazqo şəhərlərində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib

26.02.2022

Birləşmiş Krallığın London, Mançester, Birmingem və Qlazqo şəhərlərində Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar məlumatlandırma aksiyası keçirilib

26.02.2022

Almaniyanın paytaxtı Berlin şəhərindəki Brandenburq qapıları önündə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar fləşmob keçirilib

26.02.2022

31 Mart soyqırımının ildönümü

— Niderlandın Rotterdam şəhərində Benilüks Azərbaycanlıları Konqresi (BAK) rəhbərinin müavini Sima Cəfərovanın təşəbbüsü və təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar "Azərbaycan XX əsrdə: deportasiyalar, soyqırımlar, qırğınlar" mövzusunda konfrans keçirilib.
— Niderlandın Haaqa şəhərində Hollanda-Azərbaycan Türk Kültür Dərnəyinin sədri İlham Aşkının təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib.

12 sentyabr təxribatları

Dünyanın 42 ölkəsində yaşayan və fəaliyyət göstərən Azərbaycan icmasının üzvləri Ermənistanın 12 sentyabr 2022-ci il tarixli təxribatı ilə əlaqədar beynəlxalq təşkilatlara, aparıcı qurumlara, beynəlxalq ictimaiyyətə ümumilikdə 142 bəyanat ünvanlayıb.

— Rusiyanın Moskva, Primorsk, Samara, Leninqrad, Arxangelsk, İvanovo, Çelyabinsk, Tümen, Kirov, Ryazan vilayətlərində, Xabarovsk diyarında, Perm diyarının Solikamsk şəhərində, Stavropol diyarının Pyatiqorsk şəhərində, Sankt-Peterburq şəhərlərində yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə yerli və beynəlxalq ictimaiyyətə müraciət edib. Rusiya Prezidenti Vladimir Putinə, Dövlət Dumasının sədri Vyaçeslav Volodinə və xarici işlər naziri Sergey Lavrova ünvanlanan bəyanatlarda Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdikləri təcavüz barədə ətraflı məlumat verilib.
— Moldovada, Ukraynada, Belarusda yaşayan Azərbaycan icması tərəfindən ölkəmizin dövlət sərhəddində Ermənistanın törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə yaşadıqları ölkələrin rəsmilərinə və beynəlxalq təşkilatlara müraciət edilib.
— Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən fransız tarixçi, politoloq Maksim Qauen ermənipərəstliyi ilə tanınan ABŞ konqresmeni Frenk Pellonenin

Ermənistan silahlı qüvvələri bölmələrinin ötən gecə törətdiyi genişmiqyaslı təxribatla bağlı çağırışını əhəmiyyətsiz adlandırıb.

— Stokholmun Minttorget (Mynttorget) meydanında baş tutan aksiya zamanı soydaşlarımız Azərbaycanın dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata və ölkəmizə qarşı aparılan təcavüzkar siyasətə etiraz ediblər.

— Britaniya Azərbaycanlıları İcması 12 sentyabr 2022-ci il tarixində Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycanın sərhədləri boyü törətdiyi genişmiqyaslı təxribatla əlaqədar Britaniyanın rəsmi şəxslərinə müraciət edib.

— Kanadanın Toronto şəhərində fəaliyyət göstərən "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi 12 sentyabr 2022-ci il tarixində Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində törətdiyi genişmiqyaslı təxribatla əlaqədar ölkə rəsmilərinə müraciət edib.

— Kanadanın Kvebek əyalətində fəaliyyət göstərən Azərbaycan icması 12 sentyabr 2022-ci il tarixində Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycanın dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə yerli və beynəlxalq ictimaiyyətə müraciət edib.

— Trinidad və Tobaqo Respublikasında yaşayan Azərbaycan əsilli yazıçı, diaspor fəalı Emiliya Əhmədova 12 sentyabr 2022-ci il tarixində gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri bölmələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə ölkə rəsmilərinə və beynəlxalq təşkilatlara müraciət edib.

— 13 sentyabr tarixində Türkiyənin Eşkişehir şəhərində fəaliyyət göstərən Eskişehir Azərbaycanlılar Dərnəyi təcavüzkar Ermənistanın 2022-ci il 12 sentyabr tarixində Azərbaycana qarşı genişmiqyaslı hərbi təxribatına sərt etirazını bildirib.

— 13 sentyabr 2022-ci il tarixində Birləşmiş Krallıqda fəaliyyət göstərən Britaniya Azərbaycanlıları Koordinasiya Şurası 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq Ermənistan silahlı qüvvələri bölmələrinin törətdiyi genişmiqyaslı təxribata kəskin etirazını bildirib.

— 13 sentyabr 2022-ci il tarixində Şotlandiyanın Aberdin şəhərində yaşayan və fəaliyyət göstərən soydaşlarımız Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribatla əlaqədar Britaniya rəsmilərinə müraciət ediblər.

— 13 sentyabr 2022-ci il tarixində İsraildə yaşayan Kanal24.az internet televiziyanın rəhbəri Səadət Şükürova İsraelov Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecə saatlarından başlayaraq törətdiyi genişmiqyaslı təxribata sərt etirazını bildirib.
— 13 sentyabr 2022-ci il tarixində "İsraildə Azərbaycan Evi" diaspor təşkilatının rəhbəri Nexamiya Şirin Mixaelinin imzası ilə yayılan bəyanatda bildirilib ki, Avropa Birliyinin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarının həlledici mərhələsində belə təxribatın baş verməsi yolverilməzdir.
— ABŞ-da fəaliyyət göstərən Amerika Azərbaycanlıları Koordinasiya Şurası (AAKŞ), Nyu-York şəhərində yaşayan Azərbaycan icması, Texas ştatında yaşayan Azərbaycan icması, Florida ştatında yaşayan Azərbaycan icması, Meksikada yaşayan Azərbaycan icması, Kanadanın Alberta əyalətində fəaliyyət göstərən Alberta Azərbaycan Mədəniyyət Mərkəzi(ALACS), Minnesota-Azərbaycan Assosiasiyası, Şimali Amerika Azərbaycanlı Gənclər Assosiasiyası (NAAYA), Yuta ştatında fəaliyyət göstərən Yuta-Azərbaycan Dostluq Təşkilatı, İllinoys ştatında yaşayan Azərbaycan icması, "U.S.Azerbaijanis Network" (USAN), Meyn ştatında yaşayan Azərbaycan icması, Nyu-York şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi (ACCNY) Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq genişmiqyaslı təxribat törətməsini kəskin şəkildə pisləyib, yerli və beynəlxalq ictimaiyyətə müraciət edib, bəyanat ünvanlayıblar.
— 14 sentyabr 2022-ci il tarixində "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası Azərbaycanın dövlət sərhədində Ermənistanın genişmiqyaslı təxribatı ilə əlaqədar İsrail rəsmilərinə müraciət edib.
— 15 sentyabr tarixində Birləşmiş Krallıqda fəaliyyət göstərən Britaniya Azərbaycanlıları Assosiasiyası və "Natavan Group UK" 12 sentyabr 2022-ci il tarixində Ermənistan silahlı qüvvələri bölmələrinin törətdiyi genişmiqyaslı təxribatla bağlı kəskin etirazlarını bildiriblər.
— 15 sentyabr tarixində Şimali İrlandiyada yaşayan Azərbaycan icması Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi son təxribata etiraz məqsədilə İrlandiyanın Xarici İşlər Nazirliyinə müraciət edib.
— 15 sentyabr tarixində İsrailin Afula şəhərinin meri Boris Yudisə ölkəmizin dövlət sərhədində Ermənistanın genişmiqyaslı təxribat törətməsinə dair "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının bəyanatı təqdim edilib.

— 15 sentyabr tarixində İndoneziyanın https://www.kompasiana.com xəbər saytında Azərbaycan icmasının fəal üzvü Ələsgər Hacıyevin təşəbbüsü ilə ölkəmizin dövlət sərhədində Ermənistanın genişmiqyaslı təxribatı ilə əlaqədar Azərbaycan diasporunun bəyanatı yayımlanıb. Bəyanatda Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecə saatlarından başlayaraq törətdikləri hərbi təxribat barədə indoneziyalı oxuculara ətraflı məlumat verilib.
— 16 sentyabr tarixində Avstraliyada yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə Avstraliya Senatına müraciət edib. Azərbaycan Mədəniyyət Assosiasiyasının (AMA) sədri Elxan Məmmədovun imzası ilə Senatın Xarici İşlər, Müdafiə və Ticarət Departamenti Komitəsinə ünvanlanan müraciətdə Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci ildə törətdikləri hərbi təxribat barədə ətraflı məlumat verilib.
— 16 sentyabr tarixində Avstraliyanın Kvinslend ştatında fəaliyyət göstərən Kvinslend Azərbaycanlıları Cəmiyyətinin (KAC) rəhbəri Elnur Fətullayevin imzası ilə Avstraliya İttifaqının Senat və parlament üzvlərinə Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci ildə törətdikləri hərbi təxribat barədə bəyanat ünvanlanıb. Nəzərə çatdırılıb ki, Kvinslenddə yaşayan Azərbaycan icması Ermənistanın təcavüzkar siyasəti nəticəsində yaranmış duruma görə dərin narahatlıq hissi keçirir.
— 16 sentyabr tarixində Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə Avstraliya Senatı və Parlamentinə bəyanat ünvanlayıb. Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdikləri hərbi təxribat barədə ətraflı məlumat verilib.
— 16 sentyabr tarixində Amerika Azərbaycanlılar Şəbəkəsi (U.S. Azeris Network – USAN) ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri zamanı ölkəmizin ünvanına səsləndirdiyi yolverilməz və əsassız bəyanatlara etiraz məqsədilə məktub kampaniyasına başlayıb.
— 16 sentyabr tarixində ABŞ-ın İllinoys ştatında yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatla əlaqədar beynəlxalq ictimaiyyətə müraciət edib.
— 17 sentyabrda Estoniya, Macarıstan, İspaniya, Zalsburq və Yunanıstanda fəaliyyət göstərən Azərbaycan evlərində ölkəmizin dövlət sərhədində

Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribat zamanı həlak olan Azərbaycan hərbçilərinin anım guşələri yaradılıb.

— 17 sentyabr tarixində Avstraliya Azərbaycanlıları Assosiasiyası ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə Avstraliyanın Xarici İşlər Nazirliyinə, Senatına və Parlamentinə bəyanat ünvanlayıb.

— 17 sentyabr tarixində Misir, Küveyt, Əlcazir, Səudiyyə Ərəbistanı, İraq və Sudanın kütləvi informasiya vasitələrində Azərbaycanın dövlət sərhədində 12-13 sentyabr 2022-ci il tarixlərində Ermənistanın törətdiyi təxribatlara diqqət cəlb edilib.

— 19 sentyabr tarixində Koreya Respublikasında yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhəddində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə respublika parlamentinə müraciət edib.

— 19 sentyabr tarixində Amerika Azərbaycanlıları Koordinasiya Şurası (AAKŞ) İdarə Heyətinin üzvləri ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri ilə bağlı ölkənin rəsmi orqanlarına müraciət edib.

— 19 sentyabrda Niderlandın Haaqa şəhərində ölkəmizin sərhədində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı nəticəsində şəhid olmuş Azərbaycan hərbçilərinin anım mərasimi keçirilib.

— 19 sentyabrda Çex Respublikasında yaşayan Azərbaycan icması Praqa şəhərində icazəli aksiya keçirib.

— 19 sentyabrda Avstriyanın paytaxtı Vyanada təcavüzkar Ermənistanın genişmiqyaslı təxribatı zamanı həlak olan Azərbaycan hərbçilərinin anım mərasimi keçirilib.Avstriya-Azərbaycan İş Adamları və Mədəniyyət Dərnəyinin (AZER-DER) ofisində baş tutan tədbirdə Azərbaycan və Türkiyə səfirliklərinin, diaspor təşkilatlarının və medianın təmsilçiləri iştirak ediblər.

— 19 sentyabr 2022-ci il tarixində İsrailin Akko, Aşkelon və Kiryat-Bialik şəhər meriyaları ölkəmizin sərhədində Ermənistanın törətdiyi son hərbi təxribat barədə məlumatlandırılıb.

— 20 sentyabr tarixində ABŞ-ın Kaliforniya ştatında yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə beynəlxalq ictimaiyyətə müraciət edib.

— 20 sentyabrda Osloda fəaliyyət göstərən Nizami Gəncəvi adına həftəsonu Azərbaycan dili məktəbinin növbəti dərsi ölkəmizin ərazi bütövlüyünün

qorunması və sərhədlərinin toxunulmazlığı uğrunda həlak olan şəhid hərbçilərimizə həsr olunub.

— 20 sentyabrda Niderlandın Haaqa şəhərində ölkəmizin sərhədində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı nəticəsində şəhid olmuş Azərbaycan hərbçilərinin anım mərasimi keçirilib.

— 20 sentyabrda Almaniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Ermənistanın Berlindəki səfirliyi qarşısında piket keçirib.

— 21 sentyabr tarixində Litvalı hərbi jurnalist Riçard Lapaitis Azərbaycanın dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı hərbi təxribatlara sərt münasibət bildirib.

— 22 sentyabrda İspaniyanın Barselona şəhərində yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə Kataloniya parlamentinə müraciət edib.

— 23 sentyabrda Fransada yayımlanan Cənub radiosunun "Berkoff bütün ştatlarda" proqramında Azərbaycan əsilli fransalı politoloq, hüquqşünas, Fransa Azərbaycanlıları Koordinasiya Şurasının üzvü Zaur Sadıqbəyli ölkəmizin mövqeyini yerli izləyicilərə çatdırıb.

— 23 sentyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsraildə Ermənistanın təxribatları ilə əlaqədar etiraz aksiyası keçirilib. Aksiya "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təşkilatçılığı, Kiryat-Bialik şəhəri bələdiyyəsinin dəstəyi və şəhərin birinci vitse-meri Naxum Raçevskinin birbaşa iştirakı ilə baş tutub.

— 24 sentyabrda İsveçdə fəaliyyət göstərən Azərbaycan icması ölkə parlamentinin qarşısında piket keçirib.

— Şimali Kaliforniyada Azərbaycan Mədəniyyət Mərkəzinin (ACSNC) rəhbəri Aynur Ağayevanın adından yayılan bəyanatda bildirilib ki, Azərbaycan əsilli amerikalılar bu hadisə ilə bağlı çox məyus olublar.

— 24 sentyabr tarixində Komitənin maliyyə dəstəyi ilə ABŞ-ın Nyu-York şəhərində yaşayan Azərbaycan icması BMT-nin mənzil-qərargahı önündə piket keçirib. Aksiya Azərbaycanın dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin 12-13 sentyabr tarixində törətdiyi genişmiqyaslı təxribata və rəsmi İrəvanın ölkəmizə qarşı apardığı təcavüzkar siyasətə etiraz məqsədilə gerçəkləşdirilib.

— 24 sentyabr tarixində Komitənin maliyyə dəstəyi ilə ABŞ-ın Nyu-York şəhərində Ermənistanın hərbi təxribatları və təcavüzkar siyasətini ifşa edən məlumatlar əks edilmiş LED ekranlı avtomobilin Nyu Yorkun mərkəzi küçələrində hərəkəti təşki edilib.
— 24 sentyabr tarixində Türkiyənin Antalya şəhərində yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata etiraz və Azərbaycan ordusuna dəstək məqsədilə məlumatlandırma aksiyası keçirib.
— 25 sentyabr tarixində Avstraliyanın Sidney şəhərində Azərbaycan icmasının Ermənistanın12 sentyabr 2022-ci il tarixində törətdikləri hərbi təxribat ilə əlaqədar dinc aksiyası keçirilib.
— 25 sentyabr 2022-ci il tarixində Britaniya Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi, “Buta” Azərbaycan-Şotlandiya Assosiasiyasının sədri Nərgiz Morrison İcmalar Palatasında Şotlandiya Milli Partiyasını (ŞMP) təmsil edən bəzi deputatların nümayiş etdirdikləri anti-Azərbaycan fikirlərə etirazını bildirib.
— 26 sentyabr tarixində Türkiyənin Eskişehir şəhərinin "Ulus Anıtı" meydanında Eskişehir Azərbaycanlılar Dərnəyinin və Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının təşkilatçılığı ilə Ermənistanın törətdiyi son təxribata etiraz məqsədilə aksiya keçirilib.
— 26 sentyabr tarixində Türkiyənin İstanbul şəhərinin Taksim meydanında İstanbul Türkiyə-Azərbaycan Həmrəylik və Kültür Dərnəyinin (İS-TAD) və Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının təşkilatçılığı ilə ölkəmizin dövlət sərhədində Ermənistanın törətdiyi son təxribata etiraz məqsədilə aksiya keçirilib.
— 30 sentyabr tarixində Myanmada yaşayan Azərbaycan icması ölkəmizin sərhədində Ermənistanın törətdiyi son təxribatlarla əlaqədar BMT-nin Neypyida şəhərindəki nümayəndəliyinə müraciət edib.
— 1 oktyabr tarixində fransız tarixçi, politoloq, Avrasiya Araşdırmaları Mərkəzinin tədqiqatçısı Maksim Quan ölkəmizin dövlət sərhəsində Ermənistanın törətdiyi son hərbi təxribatlara və yaranmış duruma münasibət bildirib.
— 3 oktyabrda İtaliyanın Merano şəhər meriyasında Azərbaycan icmasının rəhbəri ilə görüş keçirilib. Görüş zamanı “ECN Mədəniyyət Assosiasiyası”nın sədri

Mehriban Ağayeva şəhər meri Dario Dal Medikoya Azərbaycan həqiqətləri barədə ətraflı məlumat verib.

— 4 oktyabrda Finlandiyanın paytaxtı Helsinkidə təcavüzkar Ermənistanın ölkəmizin sərhədində törətdiyi son təxribatlarla əlaqədar məlumatlandırıcı aksiya keçirilib.

— 4 oktyabrda İsveçrənin Cenevrə şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina probleminə və Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərə həsr olunmuş sərgi-aksiya keçirilib

— 10 oktyabr Türkiyənin İstanbul və Ərzurum şəhərlərində "Karabakh is Azerbaijan!" Milli Platformasının nəzdində "Karabağ Koordine Etmə Dərnəyi"nin və Diaspor Könüllüləri İctimai Birliyinin Türkiyə nümayəndəliyinin təşkilatçılığı ilə ölkəmizin dövlət sərhədində Ermənistanın törətdiyi son təxribatlara etiraz məqsədilə dinc aksiyalar keçirilib.

— 10 oktyabrda Almaniyanın Berlin şəhərində Azərbaycan həqiqətləri ilə bağlı avtomobil yürüşü keçirilib. Paytaxtın mərkəzi küçələrində baş tutan və maarifləndirici xarakter daşıyan aksiya zamanı Azərbaycan bayraqlarına bürünən avtomobillərin üzərində "Qarabağ Azərbaycandır!", "Azərbaycan müharibə əleyhinədir!", "Azərbaycan sülh istəyir!", "Ermənistan, sülh müqaviləsini imzala!", "Azərbaycan torpaqlarında erməni əsgərlərinə YOX!", "Ermənistan, bizim torpaqlarımızın minalandırılmasını dayandır!", "Ermənistan, itkin düşmüş azərbaycanlılar barədə məlumat ver!", "Ermənistanın hərbi cinayətlərinə son qoyulsun!" və s. şüarların yazıldığı plakatlar nümayiş etdirilib.

— 11 oktyabrda Belçika Krallığında yaşayan Azərbaycan icması Xocavənd rayonunun Edilli kəndində aşkar olunmuş kütləvi məzarlıqlarla bağlı Avropa Parlamentinə müraciət edilib. Brüsseldə fəaliyyət göstərən Azərbaycan Evi adından avropalı parlamentarlara ünvanlanan müraciətdə Azərbaycan əsilli belçikalıların Edilli cinayətindən dəhşətə gəldikləri və hiddətləndikləri bildirilib.

— 17 oktyabrda almaniyalı alim, doktor Mixael Reynhard Hess Fransanın dövlət başçısı Emmanuel Makrona açıq məktub yazaraq, onun "France 2" telekanalına verdiyi 14 oktyabr 2022-ci il tarixli müsahibəsində Azərbaycanla bağlı fikirlərini kəskin tənqid edib.

— 17 oktyabrda Çexiyanın paytaxtı Praqada II Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin törətdiyi müharibə cinayətlərinə həsr olunmuş sərgi-aksiya keçirilib.

— 18 oktyabr tarixində Niderlanddan olan yazıçı-jurnalist Henri van Rens Şuşaya səfər edib. Qonaq Azərbaycanın qədim mədəniyyət mərkəzi, eyni zamanda buraya gedərkən yol boyu ermənilərin viran qoyduğu digər yaşayış məskənləri ilə tanış olub.
— 18 oktyabrda İsveçdə yaşayan Azərbaycan icması Avropa Şurası Parlament Assosiasiyasının (AŞPA) Ermənistan üzrə həmməruzəçisi, isveçli deputat Boriana Oberginə sərt etirazını bildirib.
— 18 oktyabrda Finlandiyada yaşayan Azərbaycan icması Avropa Şurası Parlament Assosiasiyasının (AŞPA) Ermənistan üzrə həmməruzəçisi, finlandiyalı deputat Kimmo Kilyunenə sərt etirazını bildirib.
— 19 oktyabrda "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin bombardman etdiyi Azərbaycan şəhərləri ilə bağlı Niderland parlamentinə müraciət edib.
— 19 oktyabrda Belçika Azərbaycanlıları Federasiyası, Benilüks Azərbaycanlıları Konqresi, "Azərbaycan Qarabağ Azadlıq Mərkəzi", İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin bombardman etdiyi Azərbaycan şəhərləri ilə bağlı Avropa Parlamenti üzvlərinə, BMT və digər beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıblar.
— 19 oktyabrda BMT-nin Vyanadakı nümayəndəliyi önündə Ermənistan silahlı qüvvələrinin 30 illik işğal və II Qarabağ müharibəsi dövründə törətdiyi müharibə cinayətlərinə həsr olunmuş sərgi-aksiya keçirilib.
— 24 oktyabrda Avropa İttifaqının Brüsseldəki mənzil-qərargahı önündə Ermənistanın müharibə cinayətlərinə birdəfəlik son qoyulması tələbi ilə dinc aksiya keçirilib.
— 28 oktyabrda İsveçin Höteborq şəhərində II Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin törətdiyi müharibə cinayətləri ilə bağlı məlumatlandırma aksiyası keçirilib.
— 15 noyabrda Fransada fəaliyyət göstərən Azərbaycanın Dostları Assosiasiyası (ADA) 6 senatorun Azərbaycana qarşı təqdim etdiyi qətnamə layihəsi ilə bağlı bu ölkənin dövlət başçısına və Fransa Senatına müraciət edib.
— 15 noyabrda Niderland Krallığında yaşayan Azərbaycan icması Fransa Senatının 6 üzvünün Azərbaycana qarşı təqdim etdiyi qətnamə layihəsini sərt şəkildə pisləyib.

— 15 noyabrda Parisdə Fransa Senatının qarşısında Azərbaycan əleyhinə qətnamənin müzakirəsinə etiraz olaraq aksiya keçirilib. Aksiyada Fransada yaşayan soydaşlarımız və diaspor təşkilatlarının nümayəndələri iştirak ediblər.
— 17 noyabrda Azərbaycanın Dostları Assosiasiyasının (ADA) prezidenti, Fransa Milli Assambleyasının keçmiş üzvü Jerom Lamber Fransa Senatının qəbul etdiyi qətnaməyə sərt etirazını bildirib.
— 18 noyabrda Niderlandda fəaliyyət göstərən Hollanda Azərbaycan-Türk Kültür Dərnəyi Fransa Senatının Azərbaycan qarşı bədnam qənaməsinə etiraz məqsədilə Fransanın bu ölkədəki səfriliyinə müraciət edib.
— 23 noyabrda İtaliyanın nüfuzlu Padova Universitetinin İnsan Hüquqları Mərkəzində "Müharibənin nəticələri və onların qarşılıqlı asılılıqları: insan təhlükəsizliyinin qlobal gündəmə çıxarılması" mövzusunda beynəlxalq konfrans keçirilib.
— 25 noyabrda Fransada fəaliyyət göstərən Azərbaycanın Dostları Assambleyasının (ADA) prezidenti Jerom Lamber Fransa Milli Assambleyasının 577 üzvünə müraciət edib.Müraciətdə 28 noyabr 2022-ci il tarixində Fransa Milli Assambleyasında Azərbaycana qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qətnamənin müzakirəyə çıxarılmasına etiraz edilib.
— 13 dekabrda Cenevrədə “Ermənistan və Azərbaycan arasında müharibə və Avrasiyada böyük geosiyasi oyunların qayıtması” mövzusunda keçirilən dəyirmi masaya qatılan Azərbaycan icmasının üzvləri ermənilərin və ermənipərəst siyasətçilərin yalanlarını ifşa ediblər.
— 16 dekabrda Almaniyada fəaliyyət göstərən Azərbaycan icması ölkəmizin ekofəallarının, könüllülərinin və media mənsublarının Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası ilə bağlı alman ictimaiyyətinə müraciət edib.
— 19 dekabrda Almaniyada fəaliyyət göstərən Azərbaycan icması Berlinin Brandenburq Qapısının önündəki məşhur Paris meydanında dinc etiraz aksiyası keçirib.
— 20 dekabrda Almaniya Azərbaycanlıları Alyansının rəhbəri, Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri Nuran Abdullayev bu ölkənin tanınmış ARD telekanalının “Tagesschau” xəbərlər redaksiyasına açıq məktubla müraciət edib.
— 23 dekabrda Almaniyalı alim, Azərbaycanın və regionun tarixi və ədəbiyyatı üzrə mütəxəssis Mixael Raynhard Hess “Spiegel” jurnalına etiraz məktubu ünvanlayıb.

— Gürcüstanda fəaliyyət göstərən Qafqaz Hüquq İnteqrasiya Mərkəzi və Qasımlı Gənclər Mərkəzi tərəfindən Gürcüstanın Prezidentinə, Gürcüstan Parlamentinin sədrinə, Gürcüstanın Baş nazirinə və xarici işlər nazirinə Azərbaycan və gürcü dillərində bəyanat ünvanlanıb. Gürcüstan azərbaycanlılarının yaranmış duruma görə dərin narahatlıq hissi keçirdiyi, beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistanın Azərbaycanın təşəbbüsü və Avropa Birliyinin vasitəçiliyi ilə aparılan sülh danışıqları prosesinə hər vəchlə mane olmağa çalışdığı nəzərə çatdırılıb. Eyni zamanda BMT, Beynəlxalq Qırmızı Xaç, NATO və Avropa Birliyinin İnformasiya Mərkəzi, Beynəlxalq Şəffaflıq Təşkilatı, Ədalətli Seçkilər Təşkilatı, ATƏT kimi beynəlxalq təşkilatlara gürcü və ingilis dillərində müraciət edilib.
— Gürcüstanda fəaliyyət göstərən Vətəndaş–Cəmiyyətin Təhsili və İnkişafı üçün Vətəndaş Birliyi tərəfindən sentyabrın 14-də Gürcüstanın Prezidentinə, Gürcüstan Parlamentinin sədrinə, Gürcüstanın Baş nazirinə və xarici işlər nazirinə Azərbaycan və gürcü dillərində bəyanat ünvanlanıb.
— Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi tərəfindən 13 sentyabrda Gürcüstanın Prezidentinə, Gürcüstan Parlamentinin sədrinə, Gürcüstanın Baş nazirinə və eyni zamanda Unicef Gürcüstan və Nato Mərkəzinə gürcü dilində bəyanat ünvanlanıb.
— Gürcüstanda fəaliyyət göstərən Alyans Gənclər Mərkəzi tərəfindən 13.09.2022-ci il tarixində Gürcüstanın Prezidentinə, Gürcüsta Parlamentinin sədrinə, Gürcüstanın Baş nazirinə və xarici işlər nazirinə gürcü dilində bəyanat ünvanlanıb.
— Gürcüstanda fəaliyyət göstərən “Qanun” Hüquq Yardım Mərkəzi tərəfindən sentyabrın 14-də BMT, Beynəlxalq Qırmızı Xaç, NATO, Avropa Birliyinin İnformasiya Mərkəzi və ATƏT kimi beynəlxalq təşkilatlara Azərbaycan və gürcü dillərində bəyanat ünvanlanıb.
— “Borçalı İrəli” İctimai Birliyi tərəfindən 14.09.2022-ci il tarixində BMT, Beynəlxalq Qırmızı Xaç, NATO, Avropa Birliyinin İnformasiya Mərkəzi və ATƏT-ə bəyanat ünvanlanıb.
— ÖzbəkistandafəaliyyətgöstərənHeydər Əliyev adına Mədəniyyət Mərkəzi tərəfindən sentyabrın 13-də Şimali Atlantika Təşkilatına, BMT və ATƏT-in Minsk Qrupuna ingilis dilində bəyanat ünvanlanıb. Mərkəzin direktoru Samir Abbasovun imzası ilə Birləşmiş Millətlər Təşkilatına (BMT) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) ünvanlanan

müraciətdə Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci ildə törətdikləri hərbi təxribat barədə ətraflı məlumat verilib.

— Özbəkistanda fəaliyyət göstərən Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzi tərəfindən 14.09.2022 BMT-nin baş katibi, BMT Təhlükəsizlik Şurası, UNESCO, Avropa Parlamenti, AvropadaTəhlükəsizlik və Əməkdaşlıq Şurasının Milli Azlıqlar üzrə Ali Komissarlığına ingilis dilində bəyanat ünvanlanıb.

— Qırğızıstanda fəaliyyət göstərən "Mərkəzi Asiyada Mütərəqqi Azərbaycanlıların Birliyi" tərəfindən sentyabrın 14-də TÜRKPA, BMT və Avropa Şurasına ingilis dilində bəyanat ünvanlanıb.

— Qazaxıstan fəaliyyət göstərən "Ata Yurd - Nomad" Azərbaycan Etno-Mədəni Birliyi, "Dostluq" Etno-Mədəni Birliyi, "Axıska" qəzetinin baş redaktoru Rövşən İsmayılov, "Turan" Azərbaycanlıların Konqresi İctimai Birliyi, "Xəzər" Azərbaycan İctimai Birliyi, "Birlik" Etno-Mədəni Birliyi, Türkistan Vilayəti "Qarabağ" Azərbaycan Etno-Mədəni Birliyi tərəfindən sentyabr ayı ərzində BMT-yə Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci ildə törətdikləri hərbi təxribata etiraz olaraq inglis dilində bəyanat ünvanlanıb.

Budapeştdə "Erməni vandalizmi: işğaldan öncə və sonra" adlı fotosərgi təşkil edilib
04.05.2022

Azərbaycan xalqının milli-mədəni irsinin təbliği

Azərbaycanın dövlət və milli bayramlarına, eyni zamanda mədəniyyətimizin, milli adət-ənənələrimizin, musiqimizin təbliğinə həsr olunmuş tədbir – bayram şənliyi, konsert proqramı, sərgi, idman yarışı, müxtəlif müsabiqə və s. layihələr gerçəkləşdirilib.

a) Azərbaycan Respublikasının dövlət bayramlarının qeyd edilməsi:

Novruz bayramı,

28 May – Müstəqillik Günü,

27 sentyabr – Anım Günü,

18 oktyabr –Müstəqilliyin Bərpası Günü,

8 Noyabr – Zəfər Günü,

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum və anım günləri,

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü

Novruz bayramı ilə bağlı keçirilən tədbirlər

- RF-nın Dağıstan Respublikasının Dərbənd şəhərində Novruz bayramı təntənə ilə qeyd edilib. Dərbənd şəhər Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialında baş tutan bayram şənliyində yerli ictimaiyyətin nümayəndələri və müəllim-tələbə heyəti iştirak ediblər. Bayram konserti ilə davam edən tədbirdə Azərbaycan Dövlət Dram Teatrının, "Kaspi" Dağıstan Dövlət Rəqs Ansamblının, Dağıstan estradasının artistləri və Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin tələbələri çıxış ediblər.
- RF-nın Ulyanovsk şəhərindəki "Qubernator" Mədəniyyət sarayında "Ulyanovsk Regional Azərbaycanlılar Milli-Mədəni Muxtariyyəti" (URAMMM) ictimai təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə baş tutan tədbirdə yerli dövlət orqanlarının və ictimaiyyətin nümayəndələri, soydaşlarımız iştirak ediblər.
- RF-nın İnquşetiya Respublikasının Malqobek şəhərində İnquşetiya regional Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə yerli dövlət orqanlarının rəsmi şəxsləri, müxtəlif icmaların nümayəndələri və

soydaşlarımız iştirak ediblər. Tədbir bayram tonqalının alovlandırılması, Novruz ənənələrinə xas əyləncəli oyunların nümayiş olunması ilə başa çatıb.

— RF-nın Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində Tatarıstan Xalqları Dostluq Evinin təşkilatçılığı ilə Kazan ippodromunda baş tutan "Novruz-2022" şənliyinə Azərbaycan icması da qatılıb. "Azərbaycan Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının və onun nəzdindəki gənclər qolunun üzvlərinin təşkilatçılığı ilə yaradılmış Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, xalqımızın Novruz adət və ənənələrini əks etdirən kitablar, milli geyimlər, suvenirlər, milli məxbəx nümunələri nümayiş etdirilib. Tədbir çərçivəsində Bahar qızı müsabiqəsi keçirilib, milli rəqslərimiz və Novruza xas əyləncəli oyunlar təqdim olunub.

— RF-nın Tatarıstan Respublikasının Leninoqorsk şəhərində isə "Birlik" Azərbaycanlıların Milli-Mədəni Muxtariyyəti ictimai təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Mədəniyyət Sarayında baş tutan tədbirdə Azərbaycan, tatar, özbək və tacik icmalarının nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində türk dünyası xalqlarının zəngin mədəni irsini, Novruz bayramına xas ənənələrini əks etdirən sərgi təşkil edilib.

— Moldovanın paytaxtı Kişinyov şəhərində Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycanın bu ölkədəki səfirliyinin əməkdaşları, soydaşlarımız və Azərbaycandan gələn qonaqlar iştirak ediblər. Bayram ənənələrinə xas milli rəqslərin və əyləncəli oyunların nümayiş etdirildiyi tədbir Novruz tonqalının alovlandırılması ilə yekunlaşıb.

— Litvanın Kaunas şəhərində yaşayan müxtəlif millətlərin gənclərinin Novruz bayramına həsr olunmuş şənliyi keçirilib. Baltikyanı Azərbaycanlıların Koordinasiya Şurasının Litva üzrə əlaqələndiricisi Nərmin Əliyevanın təşkilatçılığı ilə baş tutan tədbirdə Novruzu qeyd edən Azərbaycan, Qazaxıstan, Pakistan və İran icmalarının təmsilçiləri ilə yanaşı, litovlar da iştirak ediblər.

— İsveçin "Cawamedia" xəbər saytında Azərbaycanda Novruz bayramının təntənə ilə qeyd olunmasından bəhs edən "Novruz" sərlövhəli məqalə yerləşdirilib. (https://cawamedia.wordpress.com/2022/03/15/novruz/)

— Paris şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi, Azərbaycanın Fransadakı səfirliyinin iştirakı, Fransa-Azərbaycan Dialoq Assosiasiyasının və "ALİM" elmi assosiasiyasının təşkilatçılığı ilə qədim Novruz bayramı münasibətilə "Türk xalqlarının mərasim sistemində Novruzun yeri" adlı elmi konfrans keçirilib. Tədbir çərşivəsində Fransada fəaliyyət göstərən tanınmış rəssamlar Əsmər Nərimanbəyova, Sahib

Əsədli və Tulay Musanın Novruz mövzusuna həsr olunmuş əsərlərindən ibarət sərgi təşkil edilib.

— Berlin şəhərində yerləşən “Xarı Bülbül” Mədəniyyət Evində fəaliyyət göstərən "Azərbaycan dili" kurslarında Almaniya Azərbaycanları Alyansının və Azərbaycan Maarifçi Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə "Məktəbli oyunları" adlı kitabın təqdimat mərasimi keçirilib. Tədbir Azərbaycan dili kursunun tələbələri “Bənövşə” oyununu oynayıb, “Tıq-tıq xanım” nağılından səhnəcik nümayiş etdirib, şeir və mahnılar səsləndiriblər. Tədbir bütün iştirakçıların “Qarabağ” mahnısını birlikdə böyük coşğu ilə ifa etməsi ilə yekunlaşıb.

— Hannover şəhərində yaşayan Azərbaycan icması Alman-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş tədbir keçirib.

— Niderlandın Rotterdam şəhərində yaşayan Azərbaycan icması Novruz bayramına həsr olunmuş bayram tədbiri keçirib.

— Paris şəhərindəki Azərbaycan Evində Diasporla İş üzrə Dövlət Komitəsinin, ölkəmizin Fransadakı Səfirliyinin, Azərbaycanın Fransada Dostları Assosiasiyasının dəstəyi və Paris Azərbaycan Evinin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş bayram şənliyi keçirilib.

— Bazel şəhərində fəaliyyət göstərən "Azərbaycanın Dostları" Birliyinin təşkilatçılığı ilə İsveçrənin Liestal şəhərində Novruz bayramına həsr olunmuş şənlik keçirilib.

— İsveçrənin Sürix şəhərində "Azərbaycanın Dostları" Birliyinin nəzdində fəaliyyət göstərən "Buta" rəqs dərnəyində Novruz bayramı mövzusunda rəsm dərsi keçirilib. Dərs zamanı rəsm müəllimi Səbinə Əliyeva dərnəyin şagirdlərinə xalqımızın qədim və milli Novruz bayramının tarixi, mahiyyəti və adət-ənənələrindən danışıb.

— Danimarkanın paytaxtı Kopenhagendə Novruz bayramına həsr olunmuş "Novruz-2022" şənliyi keçirilib. Danimarka “Vətən” Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə Skandinaviya Türk Federasiyasının, Türkmən Kültür Mərkəzinin, müxtəlif icmaların və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

— Yunanıstanın https://www.karfitsa.gr xəbər saytında “QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun xalqımızın qədim Novruz bayramına həsr olunmuş məqaləsi dərc olunub. (https://www.karfitsa.gr/diethni/o-eortasmos-novrouz-sto-azerbaitzan/)

— İspaniyanın Barselona şəhərində fəaliyyət göstərən Azərbaycan Evində "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti"nin və Barselona Azərbaycan Evinin təşkilatçılığı ilə xalqımızın qədim Novruz bayramına həsr olunmuş şənlik keçirilib.
— Azərbaycanın Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə İsveçrənin Cenevrə şəhərində Novruz bayramı münasibətilə tədbir keçirilib.
— İsveçrənin Bern şəhərində fəaliyyət göstərən "Qarabağ" həftəsonu Azərbaycan məktəbindəki növbəti dərsin mövzusu Novruz bayramına həsr olunub. Onlayn formatda baş tutan dərs zamanı Novruz ənənələrinə və əyləncəli oyunlara böyük maraq göstərən şagirdlərin ifasında bayrama həsr olunmuş şeirlər səsləndirilib.
— Martın 28-də Almaniyanın Hannover şəhərində "Bakı" Alman-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş şənlik keçirilib.
— Türkiyənin İğdır şəhərində Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçirilib. İğdır Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin və İğdır Azərbaycan Evinin təşkilatçılığı ilə baş tutan tədbirdə yerli dövlət qurumlarının, ictimai-siyasi təşkilatların nümayəndələri, türk dünyasını təmsil edən qonaqlar iştirak ediblər. Bədii proqramla davam edən tədbirdə Azərbaycan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Şərqi Türkistanın rəqs qrupları, türk dünyasını təmsil edən aşıqlar çıxış ediblər.
— Şimali Kiprdəki Girnə Amerika Universitetində (GAU) Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin (AKDC) təşkilatçlığı ilə Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçirilib.
— Avstraliyanın Yeni Cənubi Uels (NSW) əyalətinin parlamentində "Kvinslend Azərbaycanlıları Cəmiyyəti"nin (KAC) təşkilatçılığı ilə Novruz bayramı münasibətilə təntənəli tədbir keçirilib.
— Türkiyənin İstanbul şəhərində İstanbul Türkiyə-Azərbaycan Dayanışma və Kültür Dərnəyinin (İSTAD) təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçirilib.
— Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən Azərbaycan diasporunun üzvləri ilə görüş keçirilib. "Dubay Ekspo 2020" dünya sərgisindəki Azərbaycan pavilyonunda baş tutan tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Şuşa ili" və ənənəvi Novruz

bayramı münasibətilə tədbir iştirakçılarını, eləcə də dünya azərbaycanlılarını təbrik edib.

— Misirin paytaxtı Qahirə şəhərində Misir-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş tədbir keçirilib.

28 May – Müstəqillik Günü ilə bağlı keçirilən tədbirlər

— Türkiyənin İstanbul şəhərindəki Üsküdar Universitetində "Karabakh is Azerbaijan!" Milli Platformasının Türkiyə Koordinatorluğunun nəzdində yaradılmış "Karabakh Azerbaycandır Koordine Etmə Dərnəyi" tərəfindən 28 May "Müstəqillik Günü"nə həsr edilmiş "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104-cü ildönümü" adlı konfrans keçirilib.

— Türkiyənin Giresun şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 104-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Giresun Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Giresun Universitetinin müəllim-tələbə heyəti, yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər. Tədbir Azərbaycana həsr olunmuş qısametrajlı filmin nümayişi və Giresun Universiteti Dövlət Konservatoriyası müəllimlərinin təqdim etdikləri konsert proqramı ilə başa çatıb.

— Türkiyənin İstanbul şəhərində 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İS-TAD) təşkilatçılığı ilə baş tutan tədbirdə ölkəmizin İstanbuldakı baş konsulluğunun, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

— RF-nın Sankt-Peterburq şəhərində "Sankt-Peterburq və Leninqrad vilayəti Azərbaycan Milli-Mədəni Muxtariyyəti"nin və Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğunun birgə təşkilatçılığı ilə baş tutan tədbir zamanı soydaşlarımız bayram münasibətilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin barelyefini ziyarət ediblər.

— RF-nın Çeçenistan Respublikasının Qroznı şəhərindəki Heydər Əliyev meydanında 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir zamanı Çeçenistan hökumətinin təmsilçiləri, yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri xalqımızın ümummilli lideri Heydər Əliyevin meydandakı abidəsini ziyarət ediblər.

— RF-nın Dağıstan Respublikasının Mahaçqala şəhərində 28 May Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin və Dağıstan Milli Siyasət Nazirliyinin birgə təşkilatçılığı ilə Respublika Dostluq Evinin qarşısında baş tutan tədbirdə Azərbaycan Dövlət Dram Teatrının artistləri, Dağıstanın "Kaspi" Dövlət Rəqs Ansamblının, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələrinin və başqa yaradıcı kollektivlərin ifasında konsert proqramı təqdim edilib.
— RF-nın Tatarıstan Respublikasının Kazan şəhərində "Tatarıstan Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti" Regional İctimai Təşkilatının gənclər qanadının təşkilatçılığı ilə "Bürc-Ulduzlar Topası" festivalının Art-iqamətgahında Müstəqillik Gününə həsr olunmuş tədbirdə 400 nəfər tamaşaçı iştirak edib. Tədbir çərçivəsində Azərbaycanın zəngin mədəniyyətini əks etdirən sərgi təşkil edilib.
— RF-nın Pyatiqorsk, Çelyabinsk, Perm və Solikamsk şəhərlərində 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbirlər və cüdo turniri keçirilib. Pyatiqorsk şəhərindəki Azərbaycan Evində baş tutan tədbir "Araz" Pyatiqorsk Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə gerçəkləşdirilib.
— RF-nin Yekaterinburq şəhərində ölkəmizin Yekaterinburqdakı Baş konsulluğunun təşkilatçılığı və Azərbaycan diasporunun iştirakı ilə 28 May – Müstəqillik Gününə və "Şuşa İli"nə həsr olunmuş təntənəli tədbir keçirilib.
— RF-nin Udmurtiya Respublikasının İjevsk şəhərində 28 May – Müstəqillik Gününə həsr olunmuş bayram tədbirləri "Dostluq" Azərbaycan İctimai Mərkəzinin təşkilatçılığı ilə Kosmonavtlar Parkı və "Rus Evi" mədəniyyət mərkəzində baş tutub. Bayram tədbiri parkdakı "Azərbaycan bağı"nda mazı (tuya) ağacının əkilmə mərasimi ilə başlayıb. Ağacı "Dostluq" Azərbaycan İctimai Mərkəzinin sədri Zülfiqar Mirzəyev nazir müavini Aleksandr Filatov və digər rəsmi şəxslərlə birlikdə əkiblər. Tədbir SSRİ xalq artisti Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş festival-müsabiqənin final konserti ilə davam edib.
— Belarusun paytaxtı Minskdə "Minsk Marriott Hotel"də baş tutan bayram tədbirində Belarusun dövlət qurumlarının, Azərbaycanın bu ölkədəki səfirliyinin, MDB İcraiyyə Komitəsinin, yerli ictimaiyyətin, "Belarusdakı Azərbaycan İcmaları Konqresi"nin nümayəndələri və Belarusda təhsil alan tələbələrimiz iştirak ediblər.
— İsveçin paytaxtı Stokholm şəhərində "SAF" İsveç-Azərbaycan Dərnəyinin təşkilatçılığı ilə 28 May – Müstəqillik Günü münasibətilə "Salam, Qarabağ!" adlı konsert keçirilib.

— Paris şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Diasporla İş üzrə Dövlət Komitəsinin və ölkəmizin Fransadakı səfirliyinin dəstəyi, Fransada Azərbaycanın Dostları Assossiasiyasının (ADA) təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 104-cü ildönümü münasibətilə konsert keçirilib.
— Oslo şəhərindəki "Ədəbiyyat Evi"ndə (Litteraturhuset) Azərbaycanla Norveç Krallığı arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə təntənəli tədbir keçirilib.
— Berlin şəhərində 28 May - Azərbaycanın Müstəqillik Gününə həsr edilmiş təntənəli tədbir keçirilib. "Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evinin sədri, Almaniya Azərbaycanlıları Alyansının sədr müavini Sevda Badaliouri (Qəribova) və "Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evinin sədr müavini Nikol Kadirlinin moderatorluğu ilə aparılan tədbirdə Azərbaycanın klassik şairi İmadəddin Nəsimi irsinin araşdırıcısı, elmi işçi Maykl Reynhard Hess, Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) numayəndəsi Nəzrin Əliyeva çıxış ediblər.
— Monteneqronun Petnjica şəhərində 28 May – Müstəqillik gününə həsr olunmuş "Azərbaycan Günü" adlı tədbir keçirilib.
— Roma şəhərində 28 May – Müstəqillik Günü və Azərbaycanla İtaliya arasında diplomatik münasibətlər qurulmasının 30 illiyi münasibətilə təntənəli tədbir keçirilib.
— Azərbaycanın Niderland Krallığındakı səfirliyində 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib.
— Yunanıstanın https://www.karfitsa.gr xəbər portalında "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 104-cü ildönümünə həsr olunmuş məqaləsi yerləşdirilib.
— Latviyanın paytaxtı Riqa şəhərində 28 May – Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş təntənəli tədbir və konsert keçirilib.
— Estoniyanın Tallinn şəhərindəki Venesiya festivalı çərçivəsində 28 May – Müstəqillik Gününə həsr edilmiş "Azərbaycan Günü" adlı tədbir keçirilib. Məşhur Lövenruh parkında gerçəkləşdirilən festival zamanı Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin, Estoniya Azərbaycan Evinin dəstəyi və tanınmış jurnalist Vadim Antsupovun təşəbbüsü ilə təşkil edilmiş Azərbaycan guşəsini şəhərin vitse-merləri Andrey Novikov və Vadim Belobrovtsev, Kristiyne rayon

administrasiyasının başçısı Yaanus Riybe, tanınmış jurnalist Yuri Vendel və yerli sakinlər ziyarət ediblər.

— Münhen şəhərində fəaliyyət göstərən Azərbaycan Evində 28 May – Müstəqillik Gününə və Münhen Azərbaycanlıları Mədəniyyət Mərkəzinin 5-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

— Yunanıstanın Saloniki şəhərində fəaliyyət göstərən Azərbaycan Evində "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. gerçəkləşdirilən tədbirdə soydaşlarımız, türk icmasının üzvləri, yerli ictimaiyyətin nümayəndələri, tələbələr və fəal gənclər iştirak ediblər.

— İsveçdə 28 May – Müstəqillik Günü münasibətilə "Bir daha yüksələn bayraq bir daha enməz!" adlı beynəlxalq videokonfrans keçirilib. İsveç Azərbaycanlıları Koordinasiya Şurasının təşkilatçılığı ilə baş tutan konfransda müxtəlif ölkələrdə yaşayan elm xadimləri və diaspor fəalları iştirak ediblər.

— Niderlandda fəaliyyət göstərən "Life24" TV-nin "Can Azərbaycan" proqramının növbzti buraxılışı Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104-cü ildönümünə həsr olunub.

— Rotterdam şəhərində Benilüks Azərbaycanlıları Konqresinin (BAK) qərargahında 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Niderland Krallığında fəaliyyət göstərən diaspor assosiasiyaları rəhbərlərinin və Azərbaycan icması üzvləri iştirak ediblər.

— Norveçin qədim şəhərlərindən biri olan Stavangerdə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 104-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

— İsveçrənin Bern şəhərində 28 May – Müstəqillik Gününə və Azərbaycan-İsveçrə diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş tədbir və konsert keçirilib.

— Niderlandın Şimali Brabant əyalətindəki Oysterveyk (Oisterwijk) şəhərində 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib. Avropa Azərbaycanlılar Konqresinin (AAK) təşkilatçılığı ilə baş tutan tədbirdə Oysterveyk şəhər meri Hans Yanssen, Niderlandın Milli Qəhrəmanı Məmməd Məmmədovun (Medo) qızı Nensi Dumen (Nancy Doomen) və ailə üzvləri, yerli ictimaiyyətin nümayəndələri, Azərbaycan icmasının rəhbərləri və fəal üzvləri iştirak ediblər.

— Avstraliyanın Kvinslend (Queensland) əyalətinin Brisben şəhərində 28 May – Müstəqillik Gününə həsr edilmiş tədbir keçirilib.

— Qazaxıstanın Türküstan vilayətindəki Şamran rayonunun Karasu kəndində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 104-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.
— Özbəkistan Nazirlər Kabineti nəzdindəki Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsində Azərbaycan diasporunun 28 May – Müstəqillik Gününə həsr olunmuş tədbiri keçirilib
— Qardabani Gənclər Mərkəzində Gürcüstan və Azərbaycanın Müstəqillik günləri ilə bağlı tədbir keçirilib. Tədbirdə dil kurslarının tələbələri ilə birlikdə kursların müəllimləri, Yeni Yol qəzetinin redaktoru Azər Musaoğlu, BEEZ Uşaq Teatrının qurucusu və bədii rəhbəri Binəli İslamoğlu da iştirak ediblər.
— Bolnisidə "Qafqaz Hüquq və İnteqrasiya Mərkəzin"də Gürcüstan və Azərbaycanın müstəqillik günlərinə həsr olunmuş "Müsdəqilliymiz əbədidir" adlı inşa müsabiqəsi keçirilib.
— Marneulidə Gürcüstan və Azərbaycanın müstəqillik günlərinə həsr olunmuş futbol turniri keçirilib. Turnir "Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi"nin təşkilatçılığı ilə həyata keçirilib.
— Helsinki şəhərindəki Musiikkitalo musiqi mərkəzində 28 May – Müstəqillik Günü və Azərbaycanla Finlandiya arasında diplomatik əlaqələr qurulmasının 30 illiyi münasibətilə təntənəli tədbir keçirilib.

27 Sentyabr - Anım Günü

— Sentyabrın 25-də Almaniyanın Köln şəhərində Qarabağ şəhidləri anılıb.
— Praqada Azərbaycanın Çexiyadakı səfirliyində Çexiyada yaşayan həmvətənlərimizin, azərbaycanlı tələbələrin və yerli ictimaiyyətin nümayəndələrinin iştirakı ilə 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib.
— Budapeşt Azərbaycan Evi, Helsinki Azərbaycan Evi, Belçika Azərbaycan Evi, Varşava Azərbaycan Evi, Barselona Azərbaycan Evi, Tallinn Azərbaycan Evi, həmçinin Niderlandın Hertogenbos, Haaqa və Rotterdam şəhərləri, Stokholm, Hannover, Saloniki, Madrid, Riqa, Münhen, Höteborq və digər şəhərlərdə 27 Sentyabr – Anım Günü ilə əlaqədar mərasim keçirilib.

— Rusiyanın şimal paytaxtında yaşayan Azərbaycan icması 27 Sentyabr – Anım Günü ilə əlaqədar ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğunda təşkil olunmuş anım guşəsini ziyarət edib. "Sankt-Peterburq və Leninqrad vilayəti Azərbaycan Milli-Mədəni Muxtariyyəti" şəhər ictimai təşkilatının sədri Vaqif Məmişov, qurumun nəzdindəki Azərbaycan Gənclər Birliyinin sədri Elman Manafov, icraçı direktoru Rəşadə Orucova və digər diaspor fəalları konsulluqda yaradılan anım güşəsi qarşısında Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib, şəhidlərin fotoları önünə gül dəstələri düzüblər.
— Rusiyanın Stavropol diyarının Pyatiqorsk şəhərində "Araz" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib.
— Rusiyanın Vladivostok şəhərində "Dostluq" ictimai təşkilatının 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib.
— Moldovanın paytaxtı Kişinyovda 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib. Azərbaycanın Moldovadakı səfirliyinin ərazisində baş tutan tədbirdə diplomatlarımız, ölkə parlamentinin üzvləri, Moldova Azərbaycanlıları Konqresinin və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
— Azərbaycanın Aktaudakı Baş Konsulluğunda 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib. Anım tədbirində Mangistau vilayətində Azərbaycan diasporunun rəhbəri Şəmsəddin Hüseynov, Ş.Yessenov Universitetinin Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, universitetdəki "Azərbaycan Mərkəzi"nin rəhbəri İlkin Orucov və universitetin I kurs tələbələri iştirak ediblər.
— Gürcüstanın Bolnisi rayonunda fəaliyyət göstərən "Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi"ndə 27 Sentyabr – Anım Günü ilə əlaqədar tədbir keçirilib.

18 oktyabr – Müstəqilliyin Bərpası Günü

— Minsk şəhərindəki Belarus Dövlət Tibb Universitetində 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə tədbir keçirilib. Belarusdakı Azərbaycan İcmaları Konqresinin gənclər qolunun təşkilatçılığı ilə baş tutan tədbirdə ali təhsil müəssisəsinin rəhbərliyi, Azərbaycan səfirliyinin əməkdaşları, yerli ictimaiyyətin, Azərbaycan diasporunun nümayəndələri və tələbələr iştirak ediblər.
— 18 oktyabrda Niderlandın Rotterdam şəhərində "Bayraq tariximizdən…" mövzusunda konfrans keçirilib.

— 19 oktyabrda Almaniyanın Münhen şəhərində fəaliyyət göstərən Azərbaycan Evində 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə tədbir keçirilib.
— 30 oktyabrda Avstriyanın Zalsburq şəhərində Azərbaycanın Müstəqilliyinin Bərpası Gününə və Avstriyanın Milli Gününə həsr olunmuş tədbir keçirilib. Zalsburq Azərbaycan Evində baş tutan tədbirdə soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.
— 19 oktyabr Türkiyənin Bursa şəhərindəki Mediko meydanında 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə bayraq aksiyası keçirilib. Azərbaycan Mədəniyyət və İncəsənət Birliyinin və Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin üzvləri bu əlamətdar hadisə ilə bağlı öncə Uludağ Universitetinin ərazisində bir araya gəliblər.

8 Noyabr - Zəfər Günü

Artıq ikinci ildir ki, 8 Noyabr – Zəfər Günü və Azərbaycanın Vətən müharibəsindəki tarixi Qələbəsinin ildönümü diaspor təşkilatları tərəfindən təntənəli şəkildə qeyd olunur. 2022-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Zəfər Günü ilə əlaqədar müxtəlif ölkələrdə yüzdən artıq tədbir keçirilib. Bu tədbirlər 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin təbliği, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılması məqsədinə xidmət edib.

— Diasporla İş üzrə Dövlət Komitəsində "Şuşa Zəfər Layihəsi"nin təqdimat mərasimi keçirilib. Dövlət və hökumət nümayəndələrinin, millət vəkilləri və ziyalıların qatıldığı tədbirin iştirakçılarına Azərbaycan Diasporuna Dəstək Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə dəstəyi ilə ərsəyə gələn, mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən "Şuşa Zəfər Layihəsi" barədə ətraflı məlumat verilib. Bildirilib ki, layihə "Şuşa ili" çərçivəsində və Zəfər Günü münasibətilə həyata keçirilib, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, Vasif Adıgözəlovun əsərləri və bir sıra milli musiqi kompozisiyaları San-Fransisko Dünya Musiqi Festivalının musiqi direktoru, ABŞ-ın tanınmış universitetlərində ustad dərsləri keçən, Azərbaycan musiqisini və kamançanı xaricdə təbliğ edən İmamyar Həsənovun məharətli ifası ilə təqdim olunub. İmamyar Həsənov çıxışında xaricdə yaşayan azərbaycanlı musiqiçi kimi Azərbaycan dövlətinin dəstəyini həmişə üzərində hiss etdiyini bildirib və buna

görə Prezident İlham Əliyevə təşəkkür edib. Dövlət Komitəsinin sədri Fuad Muradov "Şuşa ili" çərçivəsində və Zəfər Günü münasibətilə komitənin həyata keçirdiyi layihələrə hər zaman dəstək göstərən müvafiq dövlət qurumlarına və Heydər Əliyev Fonduna təşəkkür edib. Bildirib ki, dünya azərbaycanlıları hər zaman ölkəmizin və Ali Baş Komandanın yanındadırlar.

— Rusiyanın Perm şəhərində "Perm Azərbaycan Milli-Mədəni Muxtariyyəti" ictimai təşkilatı tərəfindən 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbiri keçirilib.

— Moldovanın paytaxtı Kişinyovda Zəfər Gününə həsr olunmuş təntənəli bayram tədbiri keçirilib. Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycanın, Moldovanın parlament üzvləri, ölkəmizin Moldovadakı səfirliyinin əməkdaşları, Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

— Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda Zəfər və Bayraq günləri münasibətilə "Şuşa, sən azadsan!" sənədli filmi nümayiş etdirilib, fotosərgi təşkil edilib.

— Rusiyanın Vladivostok şəhərində Primorsk diyarında fəaliyyət göstərən Azərbaycan diasporunun "Dostluq" ictimai təşkilatının təşəbbüsü ilə Azərbaycanın Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

— Rusiya Federasiyası Tatarıstan Respublikasının Leninoqorsk şəhərində Azərbaycanın Zəfər və Bayraq günləri münasibətilə xeyriyyə tədbiri keçirilib. "Birlik" Leninoqorsk rayonu və şəhəri üzrə Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinnin təşkilatçılığı ilə soydaşlarımız Leninoqorsk Uşaq Evini ziyarət ediblər.

— Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycanın Şuşa şəhərinin 270 illiyinə həsr olunmuş tədbir keçirilib. "Sreda" gənclər mərkəzində baş tutan tədbir "Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzi" muxtar qeyri-kommersiya təşkilatı və "Simurq" Azərbaycanlı Gənclər Assosiasiyası tərəfindən təşkil olunub.

— Rusiya Federasiyası Stavropol vilayətinin Pyatiqorsk şəhərində "Araz" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə Azərbaycanın Qarabağdakı Zəfərinin ikinci ildönümünə həsr olunmuş tədbir keçirilib.

— Rusiyanın Yaroslavl şəhərində Azərbaycanın Zəfər və Bayraq günlərinə həsr olunmuş tədbir keçirilib. Mədəniyyət Mərkəzində baş tutan tədbir "Yaroslavl Azərbaycanlıları Milli Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının təşəbbüsü ilə gerçəkləşdirilib

— Özbəkistanın paytaxtı Daşkənddə Respublika Azərbaycan Milli Mədəni Mərkəzinin və "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə ölkəmizin Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.
— Qazaxıstanın Aktau şəhərində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə Vətən müharibəsi qaziləri, Azərbaycan və Türkiyənin Baş Konsulluqlarının əməkdaşları, yerli dövlət orqanlarının, Azərbaycan icmasının nümayəndələri və azərbaycanlı tələbələr iştirak ediblər.
— 29 oktyabrda İsveçin paytaxtı Stokholmda Zəfər Günü münasibətilə fotoqraf Mikael Silkeberqin "Xarıbülbül əfsanəsi" adlı sənədli filminin təqdimatı keçirilib.
— 2 noyabrda Niderland Krallığının Rotterdam şəhərində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Benilüks Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə "Qarabağ" idman klubunun ofisində baş tutan tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində əldə etdiyi parlaq Zəfərə həsr olunmuş film nümayiş etdirilib.
— 5 noyabrda Estoniyanın paytaxtı Tallində 8 Noyabr – Zəfər Gününə həsr olunan konsert və sərgi keçirilib. Tallin şəhər Filarmoniyasında baş tutan tədbirdə Türkiyə, Qazaxıstan, Braziliya, Şimali Makedoniya və Moldovanın Estoniyadakı diplomatik korpusunun, Estoniya parlamentinin, yerli ictimaiyyətin, Azərbaycan icmasının və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.
— 7 noyabrda Estoniyanın paytaxtı Tallinndə 8 Noyabr – Zəfər Günü münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Estoniya-Azərbaycan Mədəniyyəti Mərkəzinin sədri Niyazi Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin, Azərbaycanın Estoniyadakı Səfirliyinin əməkdaşları, Estoniyanın rəsmi şəxsləri, yerli ictimaiyyətin, Azərbaycan və türk icmasının nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində eston və Azərbaycan musiqiçilərinin ifasında musiqili diskin təqdimatı olub.
— 8 noyabrda Polşanın paytaxtı Varşava şəhərində Azərbaycan Diasporuna Dəstək Fondu, Azərbaycanın Polşadakı səfirliyi və Polşa Milli Filarmoniyasının təşkilatçılığı ilə "Şuşa ili"nə və 8 Noyabr - Zəfər Gününə həsr olunmuş konsert təşkil edilib. Konsertdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycanın Polşadakı fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova, Türkiyənin bu ölkədəki səfirliyinin əməkdaşları, Polşanın

ictimai-siyasi xadimləri, Azərbaycan, türk və yəhudi icmalarının üzvləri, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

— 8 noyabrda Almaniyanin Maqdeburq şəhərində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Heydər Əliyev adına Dünya Boks Komitəsinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş boks turniri keçirilib.

— 8 noyabrda İsveçrədə fəaliyyət göstərən "Qarabağ" həftəsonu Azərbaycan məktəbinin növbəti dərsinin mövzusu 8 Noyabr – Zəfər Gününə həsr olunub.

— 8 noyabr tarixində Finlandiyanın paytaxtı Helsinkidə "8 Noyabr – Zəfər Günü"nə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycanın UNESCO üzrə Milli Komissiyasının dəstəyi ilə isveçli rejissor və fotoqraf Mikael Silkeberq tərəfindən lentə alınan "Xarı bülbül əfsanəsi" sənədli filminin və Finlandiyada yaşayan Azərbaycan rəssamı Çingiz Abasovun "Qarabağ 30 il və 44 gün" əsərinin təqdim olunması ilə davam edib.

— 9 noyabrda Strasburqda 8 Noyabr – Zəfər Günü münasibətilə Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov çıxış ediblər. Sonra 44 günlük Vətən müharibəsinə və Zəfər Gününə həsr olunan videoçarxlar nümayiş etdirilib.

— 9 noyabrda İspaniyanın Barselona şəhərində Barselona Azərbaycanlıları Cəmiyyətinin və Azərbaycan Evinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

— 9 noyabrda Niderlandın Haaqa şəhərində 8 Noyabr – Zəfər Günü, 9 Noyabr – Azərbaycanın Dövlət Bayrağı Günü və Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyətinin 20 illiyi münasibətilə təntənəli bayram tədbiri keçirilib.

— 9 noyabrda İsveçin Yöteborq şəhərində Azərbaycanın Qarabağda parlaq qələbəsinin ikinci ildönümü münasibətilə tədbir keçirilib.

— 10 noyabrda Macarıstanın paytaxtı Budapeştdə fəaliyyət göstərən Azərbaycan Evində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş konsert keçirilib.

— 10 noyabrda Macarıstanın paytaxtı Budapeştdə fəaliyyət göstərən Azərbaycan Evində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş konsert keçirilib.

— 10 noyabrda İsveçrənin Cenevrə şəhərində 8 Noyabr - Zəfər Günü və 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib.

— 10 noyabrda Almaniyanın Münhen şəhərində fəaliyyət göstərən Azərbaycan Evində 8 Noyabr - Zəfər Gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Münhen Azərbaycan Evinin rəhbəri Səttar Kərimov, diaspor fəalı Səbinə Məktubmirzə, Münhendə Qafqaz Dağ Yəhudiləri Birliyinin sədri Firuzə Yuşvayeva, Münhen xəstəxanasının Radiologiya və Neyroradiologiya klinikasının direktoru Anastasios Mpotsaris çıxış ediblər. Azərbaycan həqiqətlərinin Almaniyada təbliğ olunmasında və diaspor fəaliyyətində fəal iştiraklarına görə gənc soydaşlarımıza Diasporla İş üzrə Dövlət Komitəsinin təşəkkürnaməsi təqdim edilib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum və anım günləri

— RF-nın Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərində. Şimali Osetiya-Alaniya Respublikası Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təntənəli tədbir keçirilib. Tədbir zamanı iki ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, Heydər Əliyev irsinə, Azərbaycan diasporunun fəaliyyətinə töhfələr verən diaspor fəalları təşəkkürnamələrlə təltif ediliblər. Tədbir azərbaycanlı məktəblilərin Heydər Əliyevə həsr olunan şeirləri səsləndirməsi və Azərbaycan incəsənət ustalarının konserti ilə davam edib.

— RF-nin Sankt-Peterburqda fəaliyyət göstərən Azərbaycan icmasının və diplomatik korpusun nümayəndələri ümummilli liderin 1949-1950-ci illərdə təhsil aldığı SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Ali Məktəbinin Qoroxovaya küçəsi, ev 6 ünvanında yerləşən binasının önünə toplaşıblar.

— Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənddəki filialında baş tutan tədbirdə isə təhsil ocağının rəhbərliyi və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları öncə Heydər Əliyevin foyedəki büstünü ziyarət ediblər və abidənin önünə gül dəstələri düzüblər.

— RF-nin Ulyanovsk şəhərində Azərbaycan Milli-Mədəni Muxtariyyətinin (URAMMM) təşkilatçılığı ilə gerçəkləşən tədbir zamanı Ulyanovsk vilayətinin rəsmi şəxsləri, yerli ictimaiyyətin, Azərbaycan diasporunun və regionun digər

milli icmalarının nümayəndələri ümummilli liderin şəhərin mərkəzində yerləşən Heydər Əliyev adına meydandakı abidəsi ziyarət olunub.

— RF-nin Tatarıstan Respublikasında "Leninoqorsk şəhəri və Leninoqorsk vilayətinin "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti" ictimai təşkilatının sədri Ramiz Məmmədovun təşkilatçılığı ilə iftar məclisi baş tutub.
— Köln şəhərindəki Azərbaycan Evində Almaniya Azərbaycanlıları Alyansı və Alman-Azərbaycan Mədəniyyət Evinin təşkilatçılığı ilə görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.
— Monteneqronun Herseq Novi şəhərində Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşəbbüsü və təşkilatçılığı, "Azmont Investments" şirkətinin dəstəyi, Monteneqronun Şahmat Federasiyası və "Prosvjeta" ("Təhsil") şahmat klubunun həmtəşkilatçılığı iləgörkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Heydər Əliyev kuboku"adlı III ənənəvi şahmat turniri keçirilib. Turnirin qaliblərinə təltiflərlə yanaşı, Monteneqro dilində çapdan çıxmış "Azərbaycanın görkəmli şəxsiyyətləri" kitabı da təqdim olunub. Tədbir yerli kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.
— Haaqa şəhərində ölkəmizin Niderland Krallığındakı səfirliyində görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilib.
— Stokholm şəhərində ölkəmizin İsveç Krallığındakı səfirliyində görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilib.
— Monteneqro mediasında tanınmış publisist Bojidar Prororiçin qələmə aldığı və Azərbaycanın görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş məqalə dərc olunub. Məqaləni ətraflı şəkildə aşağıdakı linklərdən oxumaq mümkündür:
— https://madeinmontenegro.com/bozidar-prorocic-veliki-lideri-hejdar-alijev-uz-99-godisnjicu-rodenja/
— https://skalaradio.com/bozidar-prorocic-veliki-lideri-hejdar-alijev-uz-99-godisnjicu-rodenja/
— https://crnogorskiportal.me/sadrzaj/8125
— Almaniyanın Barleben şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə beynəlxalq idman yarışı keçirilib. Heydər

Əliyev adına Dünya Boks Komitəsinin təşkilatçılığı ilə baş tutan tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradov, Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

— Boks döyüşünün ilk qarşılaşmasında azərbaycanlı gənc idmançı Bəxtiyar İsgəndərzadə rəqibinə qalib gələrək, soydaşlarımızı sevindirib. Qalibə mükafatı DİDK sədri F.Muradov təqdim edib. Turnirin fəxri kürsüsünə Azərbaycanda IBF və IBO versiyaları üzrə Avropa və Dünya çempionu Azad Əzizovun rəhbərlik etdiyi "Odlar Yurdu" boks klubunun təmsilçiləri də yüksəliblər.

— Xatırladaq ki, Heydər Əliyev adına Dünya Boks Komitəsi Almaniyanın Maqdeburq şəhərində yaşayan soydaşımız Yaşar Niftəliyev Millinits tərəfindən yaradılıb. Komitənin əsas məqsədi dünyada yaşayan azərbaycanlı idmançıları birləşdirmək, idman yarışlarında Azərbaycan Respublikasının üçrəngli bayrağının qaldırılmasına, Dövlət Himninin səsləndirilməsinə nail olmaq, Heydər Əliyevin adını daşıyan dünya kəmərlərini dünyanın ən məşhur kəmərləri sırasına gətirməkdir.

— Qırğızıstanın paytaxtı Bişkek şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə futbol turniri keçirilib. "Mərkəzi Asiyada Tərəqqipərvər Azərbaycanlılar Birliyi" ictimai təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə baş tutan turnirdə yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər. Turnirdə 18-45 yaşarası kateqoriyanı əhatə edən Qırğızıstanın 5, Qazaxıstanın 3 komandası qarşılaşıb. Heydər Əliyev adına kubok uğrunda yarışda I yeri Qırğızıstan, II və III yerləri isə Qazaxıstan komandaları tutub.

— Daşkənd şəhərindəki "Hyatt Regency" hotelində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə çıxış edən Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verib, memarı və qurucusu olduğu müstəqil Azərbaycan dövlətinin qazandığı uğurlardan danışıb. Sonra "Azərbaycanı kəşf et" layihəsi çərçivəsində Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Özbəkistanın "Saqich Creative Media" şirkəti tərəfindən hazırlanan eyniadlı sənədli film təqdim edilib.

— Türkiyənin İğdır şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. İğdır Azərbaycan Evində gerçəkləşdirilən tədbirdə yerli ictimaiyyətin, Azərbaycan diasporunun tanınmış nümayəndələri, tələbə və ziyalılar iştirak ediblər. Tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş etdirilib.
— Türkiyənin Bursa şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. "Gələcəyin İnsanları – Gələcəyin Məkanı" Dərnəyinin (GİM AZDER) təşkilatçılığı ilə Heydər Əliyev adına parkda baş tutan tədbirdə siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, müxtəlif icmaların nümayəndələri, iş adamları və soydaşlarımız iştirak ediblər. Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Türkiyə və Azərbaycan bayraqları, Mustafa Kamal Atatürkün məşhur "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" şüarı ilə bəzədilmiş parkda yerləşən büstünü ziyarət ediblər. Büstün önünə Yıldırım rayon Bələdiyyəsi və Bakı şəhərinin Abşeron rayon Bələdiyyəsi adından əklil qoyulub.

12 dekabr - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü

— RF Ulyanovsk şəhərində Azərbaycan Milli-Mədəni Muxtariyyətinin (URAMMM) təşkilatçılığı ilə gerçəkləşən tədbir zamanı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində yerləşən Heydər Əliyev adına meydandakı abidəsi ziyarət olunub. Ulyanovsk vilayətinin rəsmi şəxsləri, yerli ictimaiyyətin, Azərbaycan diasporunun və regionun digər milli icmalarının nümayəndələri dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzüb, onun əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.
— RF Tatarıstan Respublikasında fəaliyyət göstərən Azərbaycan diasporu Leninoqorskdakı "İxlas" məscidində xeyriyyə məqsədilə iftar məclisi təşkil edib.
— "Leninoqorsk şəhəri və Leninoqorsk vilayətinin "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti" ictimai təşkilatının sədri Ramiz Məmmədovun təşkilatçılığı ilə baş tutan tədbirdə Azərbaycan icmasının, "Tatarıstan" ictimai birliyinin, yerli ictimaiyyətin 200 nəfərdən çox nümayəndəsi iştirak edib.

— Rusiyanın Sankt-Peterburq şəhərində yaşayan Azəbaycan icması görkəmli dövlət xadimi, xalqımızın böyük öndəri Heydər Əliyevin memorial barelyefini ziyarət edib, əziz xatirəsini böyük ehtiramla yad edib, barelyefin önünə güllər düzüblər. Tədbirdə Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov, "Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" şəhər ictimai təşkilatının icraçı direktoru Rəşadə Orucova və sədrin müavini Məşkur Qasımov çıxış ediblər.
— Rusiya Federasiyasının Ulyanovsk şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə əlaqədar cüdo üzrə III "Xalqlar Dostluğu Kuboku" turniri keçirilib.
— Rusiyanın Həştərxan şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə bağlı silsilə tədbirlər keçirilib.
— Rusiyanın Sankt-Peterburq şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib.
— Moldovada fəaliyyət göstərən Azərbaycan icması görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçiriib.
— 12 dekabrda Macarıstanın paytaxtı Budapeştdə yaşayan Azərbaycan icması ümummilli lider Heydər Əliyevin anım mərasimində iştirak edib.
— 12 dekabr tarixində İsrailin Afula şəhərinin mərkəzi kitabxanasında "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib.
— 2 dekabr tarixində Türkiyənin İğdır şəhərindəki Heydər Əliyev adına liseydə Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası və İğdır Azərbaycan Evi Dərnəyinin təşkilatçılığı ilə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.
— 12 dekabr tarixində Türkiyənin İğdır şəhərindəki Azərbaycan Evində İğdır Azərbaycan Dil, Tarix, Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin təşkilatçılığı ilə xalqımızın və türk dünyasının görkəmli dövlət xadimi Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.
— 12 dekabr tarixində Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi, xalqımızın ulu öndəri Heydər Əliyevin anım günü ilə əlaqədar bəyanatla çıxış edib.

— 13 dekabrda Niderlandda yaşayan və fəaliyyət göstərən Azərbaycan icması Azərbaycanın Niderland Krallığındakı səfirliyində xalqımızın ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirdə iştirak edib.
— 13 dekabrda İtaliyanın paytaxtı İtaliyada yaşayan və fəaliyyət göstərən Azərbaycan icması müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirdə iştirak edib.
— 13 dekabr tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar Misirin Qalubiyyə vilayətinin Qanatır əl-Xeyriyyə şəhərində yerləşən Misir-Azərbaycan Dostluq parkında tədbir keçirilib.
— Daşkənd şəhərində fəaliyyət göstərən Azərbaycan icması ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar görkəmli dövlət xadiminin büstünü ziyarət edib. Ziyarət zamanı ulu öndərin Heydər Əliyev Parkında yerləşən büstü özünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad edilib.
— Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru Orxan Pirverdiyev "Alyans" Gənclər Mərkəzinin üzvləri ilə birgə ulu öndərin Tbilisidə yerləşən abidəsini ziyarət edib.

Milli mədəniyyətin qorunması və Azərbaycanın tarixi və mədəni abidələri, milli-mədəni dəyərlərinin (folklor nümunələri, musiqisi, ədəbiyyat və incəsənət) təbliği

— Diasporla İş üzrə Dövlət Komitəsində Nizami Gəncəvinin RF-nın Sankt-Peterburqda rus dilində nəşr edilmiş seçilmiş əsərlərinin təqdimat mərasimi keçirilib. Dahi şairin 880 illik yubileyi münasibətilə "Həqiqət" adı altında çap olunan kitabın tərtibçiləri sənətşünaslıq üzrə fəlsəfə doktorları Aytən İbrahimova və Sevda Məmmədova, məsul redaktorları Şəfəq Hacıyeva, Natəvan Fərzəliyeva və Fidan Ağayeva, naşiri Feyzi Ağayevdir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabda Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan "Sirlər xəzinəsi" poeması və müxtəlif şeirləri, qəzəlləri verilib.
— RF-nın Kabardin-Balkar Respublikasının Nalçik şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası səhnələşdirilib. Tamaşaçılar arasında V.M.Kokov adına Kabardin-Balqar Dövlət Aqrar Universitetinin professoru, "Azəri" Milli-Mədəni Mərkəzinin sədri A.Dadaşov, mərkəzin sədr müavini A.Məmmədov, diaspor fəalları F.Nəbiyev, R.Quliyev və

başqaları olub. Tamaşanın quruluşçu rejissoru respublikanın xalq artisti Roman Dobaqovdur.

— RF-nın Podolsk şəhərində iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş yeganə azərbaycanlı sərkərdə, general-mayor Həzi Aslanovun anadan olmasının 112-ci ildönümünə həsr olunmuş "Əbədi olaraq xalqın qəlbində" adlı tədbir keçirilib. "Moskva şəhər Qərb İnzibati Dairəsi Azərbaycanlılarının Milli Mədəni Muxtariyyəti" ictimai təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə şəhərin 34 saylı tam orta məktəbinin tarixi muzeyində baş tutan tədbirdə müharibə veteranları, Azərbaycanın Rusiyadakı səfirliyinin, ictimai təşkilatların, şagird-müəllim heyətinin nümayəndələri, diaspor fəalları iştirak ediblər. Tədbir zamanı məktəbdəki "Onlar Moskvanı müdafiə ediblər" adlı tarixi muzeyində Həzi Aslanov adına guşənin açılışı olub. Azərbaycan diasporu adından Həzi Aslanovun üç böyük portreti və soydaşlarımızın faşizmə qarşı mübarizəsindən bəhs edən "Azərbaycan Böyük Vətən müharibəsi illərində" kitabı muzeyə hədiyyə edilib.

— Cari ilin 13 iyul tarixində "Miqrasiya Proseslərinin tədqiqi" İctimai Birliyinin sədri, Doçent- DR Fəridə Hicranın müəllifi olduğu "Xan qızı Natəvan" adlı pyesi əsasında "Qarabağ Xanlığı və Xurşud Banu Natəvan" adlı sənədli-bədii filminin Komitə dəstəyi ilə çəkilişlərinə başlanılıb. Çəkilişləri Bakı, Şuşa, Ağdam və Bayatda baş tutan film eyni zamanda tərcümə olunaraq digər ölkələrdə nümayiş olunub. Baş rolu Fəxriyyə Xələfovaya məxsus filmin Natəvanın ulu babası Qarabağ xanı Pənahəli xanın Şuşanın təməlini qoyması və həmin ərazilərin tarixən Azərbaycana məxsus olmasından, eyni zamanda xan qızı Natəvanın Şuşa həyatından bəhs edir.

— RF-nın Tatarıstan Respublikasındakı "Bürc-Ulduzlar Topası" festivalının Art-iqamətgahında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının premyerası keçirilib. Tamaşa Rusiyanın əməkdar incəsənət xadimi, Şukin adına Teatr İnstitutunun kafedra müdiri, rejissor Mixail Borisovun quruluşu əsasında səhnələşdirilib. Tamaşanı bərpa etmək təşəbbüsü ilə mərhum Mixail Borisovun yetirmələri olan Art- iqamətgahın baş rejissoru Dmitri Tumanov və bədii rəhbəri Dmitri Platonov çıxış ediblər. Azərbaycan diasporunun təşəbbüsü ilə tamaşa çərçivəsində milli mədəniyyətimizin və mətbəximizin nümunələrini nümayiş etdirən sərgi də təşkil edilib.

— Ukraynanın Truskavets şəhərinin meri Andrey Kulçinski Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradovu təşəkkürnamə ilə təltif edib. Mer A.Kulçinski və Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin

sədri Qurban Abbasovun imzaladıqları təşəkkürnamədə Truskavets şəhərində görkəmli Azərbaycan bəstəkarı və müğənnisi Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş IV Beynəlxalq vokalçılar müsabiqəsinin keçirilməsində göstərdiyi dəstəyə görə DİDK-ə minnətdarlıq ifadə edilib. Qeyd edək ki, beynəlxalq müsabiqə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin və Truskavets şəhər şurasının təşkilatçılığı ilə 2-5 dekabr 2021-ci il tarixlərində gerçəkləşdirilib.

— DİDK-nın təşəbbüsü ilə Ukraynanın "Qara kvadrat" improvizasiya teatrının aktyorları ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin görüşüb. Teatrın aktyorları tələbələrlə səhnə qabiliyyəti və səhnə danışığı üzrə interaktiv master-klass keçib.

— Minsk şəhərindəki Respublika milli mədəniyyətlər mərkəzində Belarusda yaşayan müsəlman qadınlar icmasının təşəbbüsü və "Azərbaycan İcmaları Konqresi"nin təşkilatçılığı ilə "Azərbaycana dalmaq" mövzusunda tədbir keçirilib. Tədbir sualların cavablandırılması və Azərbaycan rəqslərinə dair ustad dərsi ilə yekunlaşıb.

— Minsk şəhərindəki Belarus Ədəbiyyatı Tarixi Dövlət Muzeyində "Belarusun Azərbaycan İcmaları Konqresi" və Respublika Milli Mədəniyyətlər Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan mədəniyyətinə və adət-ənənələrinə həsr olunmuş tədbir keçirilib. Tədbir çərçivəsində ölkəmizin zəngin mədəniyyətini əks etdirən milli geyimlər, musiqi alətləri, kitablar, jurnallar və suvenirlər nümayiş etdirilib.

— Belarusun Qrodno şəhərində keçirilən XIII Respublika milli mədəniyyət festivalında Azərbaycan təmsil olunub. Millətlərarası münasibətlərin möhkəmlənməsi, müxtəlif xalqların mədəniyyət, incəsənət və milli mətbəx nümunələrinin təbliğ olunması məqsədilə gerçəkləşdirilən festival 30 ölkədən 800 iştirakçının yürüşü ilə başlayıb. Yürüşün ön sıralarında Azərbaycan nümayəndə heyətinin üzvləri Belarusdakı fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyev, "Belarusda Azərbaycan İcmaları Konqresi"nin rəhbəri Natiq Bağırov, konqresin müxtəlif bölgələr üzrə sədrləri, üzvləri və gənclər təşkilatının fəalları olub. Festivalın bədii hissəsi azərbaycanlıların çıxışı ilə açılıb. Azərbaycan əsilli Belarus müğənnisi Günəş Abbasovanın, Davud Zakirzadənin və Olesya Kosoykinanın rəhbərlik etdikləri "Odlar Yurdu" və "Sarı gəlin" rəqs qruplarının ifaları alqışlarla qarşılanıb. Festival çərçivəsində təşkil olunmuş Azərbaycan guşəsində ölkəmizin, xüsusilə də işğaldan azad edilmiş Qarabağ bölgəmizin füsunkarlığını əks etdirən rəsm əsərləri, kitablar, milli geyimlər,

xalçalar, musiqi alətləri, suvenirlər və milli mətbəx nümunələri nümayiş etdirilib. Guşənin yanında quraşdırılmış kiçik səhnədə isə "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" sözlərinin və qədim şəhərimizin görüntülərinin əks olunduğu dekorasiya qurulub.

Müslüm Maqomayev – 80

— Sentyabrın 21-də Rusiyanın Arxangelsk şəhərindəki 31 saylı Uşaq İncəsənət Məktəbində əfsanəvi bəstəkar-müğənni Müslüm Maqomayevin adını daşıyan Azərbaycan Mədəniyyət Mərkəzi açılıb. "Arxangelsk vilayətinin Azərbaycan diasporu" regional ictimai təşkilatının və Arxangelsk şəhər administrasiyasının birgə həyata keçirdiyi bu layihə Rusiya Prezidenti Vladimir Putinin 2022-ci ildə elan etdiyi "Rusiya xalqlarının mədəni irsi" ilinə həsr olunmuş tədbirlər çərçivəsində baş tutub.
— Oktyabrın 13-də Rusiyanın Moskva vilayətinin İstra şəhərində Azərbaycanın əfsanəvi sənətkarı, görkəmli bəstəkar və müğənni Müslüm Maqomayevin anadan olmasının 80 illiyi münasibətilə ədəbi-musiqili tədbir keçirilib. Dedovski Mədəniyyət Evində baş tutan konsert Moskva vilayəti Azərbaycanlılarının Regional Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə gerçəkləşdirilib.
— Oktyabrın 20-də Rusiyanın Həştərxan vilayətində Azərbaycanın əfsanəvi sənətkarı, görkəmli bəstəkar-müğənni Müslüm Maqomayevin anadan olmasının 80 illiyinə həsr olunmuş təntənəli yaradıcılıq gecəsi keçirilib. Xəzər Dəniz və Çay Nəqliyyatı İnstitutunda baş tutan tədbiri "Həştərxan şəhər" bələdiyyəsinin administrasiyasının dəstəyi ilə "Azərbaycan" milli-mədəni regional ictimai təşkilatı gerçəkləşdirib.
— Oktyabrın 21-də Rusiyanın Ulyanovsk şəhərində Azərbaycanın əfsanəvi sənətkarı, dünya şöhrətli bəstəkar-mügənni Müslüm Maqomayevin anadan olmasının 80 illiyi münasibətilə təntənəli yaradıcılıq gecəsi keçirilib. "Qubernatorski" Mədəniyyət Sarayında baş tutan tədbir "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" (URAMMM) ictimai təşkilatının təşəbbüsü və vilayətin İncəsənət və Mədəniyyət Siyasəti Nazirliyinin dəstəyi ilə gerçəkləşdirilib.
— Noyabrın 3-də Rusiyanın Moskva vilayətində Azərbaycanın görkəmli sənətkarı, əfsanəvi müğənni-bəstəkar Müslüm Maqomayevin anadan olmasının 80 illiyi münasibətilə "XX əsrin orfeyi" adlı musiqili gecə keçirilib. Tədbir "Moskva vilayəti azərbaycanlılarının milli-mədəni muxtariyyəti" regional və yerli təşkilatının təşəbbüsü və təşkilatçılığı, Moskva vilayəti hökumətinin və Lenin

şəhər dairəsi administrasiyasının dəstəyi ilə “Vidnoye” Mədəniyyət Evində baş tutub.

— Noyabrı 21-də Rusiyanın Moskva vilayətinin Korolyov şəhərində “XX əsrin Orfeyi” layihəsi çərçivəsində Azərbaycanın əfsanəvi sənətkarı, bəstəkar və müğənni Müslüm Maqomayevin anadan olmasının 80 illiyinə həsr olunmuş yekun konsert keçirilib. “Yubileynı” Mədəniyyət Sarayında baş tutan konsert Moskva vilayətinin İnformasiya və Sosial Kommunikasiyalar Nazirliyinin, Korolyov şəhər dairəsi administrasiyasının, “Moskva vilayəti üzrə Azərbaycanlıların Regional Milli-Mədəni Muxtariyyəti”nin dəstəyi ilə gerçəkləşdirilib.
— Noyabrın 23-də Rusiyanın Xabarovsk şəhərində “Azərbaycan Konqresi” Xabarovsk Diyar İctimai Təşkilatının təşəbbüsü ilə Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə və görkəmli Azərbaycan sənətkarı Müslüm Maqomayevin anadan olmasının 80 illiyinə həsr olunmuş tədbirlər və konsert keçirilib.

Həftəsonu məktəblərinin fəaliyyəti və ana dilinin qorunması

— Rusiya Federasiyasının Novosibirsk, Ufa, Ryazan, Yekaterinburq, Rostov, Pyatiqorsk, Krasnodar, Krasnoyarsk, Komi, Malqobek, Mahaçqala, Vladiqafqaz; Ukraynanın Kiyev, Odessa; Belarusun Minsk; şəhərlərində fəaliyyət göstərən diaspor təşkilatları, həftəsonu məktəbləri və Azərbaycan Evlərinə ana dilində dərsliklər, müxtəlif ədəbiyyatlar, əyani vəsaitlər, eləcə də milli geyim, suvenir, bayraq və digər ləvazimatların göndərilməsi təmin edilib.
— Almaniyanın Berlin şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin nəzdindəki kurslara kiçik yaşlı soydaşlarımız cəlb olunublar. Bu ilin yanvar ayından başlayan kurslarda balacalara Azərbaycan dili, ədəbiyyatı və tarixindən dərslər tədris edilir. Bununla yanaşı, tarixi Vətənlərini daha yaxından tanıtmaq məqsədilə kiçik soydaşlarımıza Azərbaycanın zəngin mədəniyyəti və incəsənəti barədə ətraflı məlumatlar təqdim olunur.
— Polşada yaşayan soydaşlarımızın azyaşlı övladları üçün Varşava Azərbaycan Evinin nəzdində kurslar təşkil olunub. Polşa Azərbaycanlıları Şurasının təşkilatçılığı ilə yanvarın 15-dən fəaliyyətə başlayan kurslarda Azərbaycan və ingilis dilləri tədris olunur. Dərslər hər həftənin şənbə günü ödənişsiz əsaslarla keçirilir. Uşaqlara dilləri Polşanın uşaq bağçalarından birinin ingilis dili müəllimi olan həmyerlimiz Esmira Şıxməmmədova öyrədir.

— Estoniya Azərbaycan Evinin nəzdində həftəsonu Azərbaycan məktəbi fəaliyyətə başlayıb. İlk dərs zamanı məktəbin müəllimi Nərgiz Əsgərova kiçik yaşlı müdavimlərinə Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti və adət-ənənələri barədə ümumi məlumat verib.
— Macarıstan və Estoniyada fəaliyyət göstərən Azərbaycan evlərindəki dərslərin mövzusu 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunub.
— 2014-cü ildən fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətinin nəzdindəki Azərbaycan dili kurslarında indiyədək dünyanın 40 ölkəsindən 1500-dən çox tələbə ödənişsiz olaraq təhsil alıb. Hazırda 35 ölkədən 400-dən çox gənc ödənişsiz əsasda təhsilini davam etdirir. Dilimizi öyrənən müdavimlər müntəzəm olaraq Azərbaycan klassik ədəbiyyatının görkəmli şairlərinin şeirlərini səsləndirib, ərəb mətbuatında Azərbaycan haqqında məqalələrlə çıxış ediblər.
— Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində Məktəbəqədər kursun körpələri üçün 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə tədbir təşkil olunub.
— Haaqada fəaliyyət göstərən Niderland-Azərbaycan Türk Kültür Dərnəyinin nəzdindəki Niderland dili kurslarının bir qrup müdaviminə sertifikatlar təqdim olunub.
— Şimali Kiprdə yaşayan soydaşlarımızın övladları üçün həftəsonu Azərbaycan milli məktəbi fəaliyyətə başlayıb. Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin (AKDC) yeni layihəsi əsasında təşkil olunan məktəbdə dərslər hər həftənin şənbə günləri keçiriləcək. Dərslərdə 8-14 yaş arası məktəblilər iştirak edəcəklər. Layihə çərçivəsində Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı, musiqisi və rəsm sənəti tədris ediləcək. Xüsusi tədris proqramlarını tanınmış Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi, Yaxın Şərq (Yakın Doğu) Universitetinin Səhnə Sənətləri fakültəsinin professoru, bəstəkar Cavanşir Quliyev, Lefke Avropa Universiteti Türk dili və ədəbiyyatı kafedrasının müdiri dosent Nazim Muradov, Şimali Kiprdə yaşayan azərbaycanlı rəssam Arzu Məmmədnəbi İncər xüsusi dərs proqramları həyata keçirəcəklər. Layihənin əlaqələndiricisi Şimali Kiprdə yaşayan pedaqoq Mətanət Aydındır. (bu məktəb artıq fəaliyyət göstərirsə, gələcək zamanda yazılmaması məqsədəuyğundur, göstərməyə başlayacaqsa, hesabata salınmamamlıdır)
— Oktyabrın 15-də Moldovanın Kişinyov şəhərində Moldova Azərbaycanlıları Konqresinin nəzdində Azərbaycan həftəsonu məktəbi yaradılıb. Bu ilin avqustundan fəaliyyət göstərən tədris ocağında yaş kateqoriyasına uyğun olaraq

iki qrup yaradılıb. Hər şənbə günü 2 saat ərsində 30-dan çox məktəbliyə Azərbaycan dilini, mədəniyyətini və musiqisini əhatə edən fənlər tədris olunur. "Azərbaycan dili" dərs vəsaiti və milli geyimlərlə təmin olunmasına Diasporla İş üzrə Dövlət Komitəsi dəstək göstərib.

— Noyabrın 22-də Rusiyanın Orenburq şəhərində Azərbaycan dilinin öyrənilməsi məqsədilə həftəsonu Azərbaycan məktəbi fəaliyyətə başlayıb. Orenburq Vilayətindəki Azərbaycan diasporunun rəhbəri İlkin Kərimovun və onun müavini Rövşən Səfərovun təşkilatçılığı ilə yaradılan məktəbdə artıq ilk dərs keçirilib. İlkin Kərimov bildirib ki, bu addım Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayında xaricdə doğma dilimizin tədrisi, həftəsonu Azərbaycan məktəblərinin yaradılması barədə səsləndirdiyi tövsiyələrə uyğun olaraq atılıb.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü

— Diasporla İş üzrə Dövlət Komitəsi 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "Bir olaq, həmrəy olaq!" adlı bayram videokonfransı təşkil edib. Komitə sədri Fuad Muradov 63 ölkədən 500-ə yaxın soydaşımızın qatıldığı videokonfransı açıq elan etdikdən sonra torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib. Daha sonra Azərbaycanın Dövlət Himni səsləndirilib. Azərbaycan diasporunun 2022-ci ildəki fəaliyyətini əks etdirən videohesabat təqdim olunub. Görüşdə diasporumuzun koordinasiyalı fəaliyyət imkanlarının genişləndiyi barədə danışılıb, yeni ildəki hədəflər dilə gətirilib. Konfrans iştirakçıları qeyd ediblər ki, bu qədər soydaşımızın iştirakı ilə görüşlərin təşkil olunmasının ənənəyə çevrilməsi onların əlaqələrinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır və daha sıx birləşmələrinə ciddi təkan verir. Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə, Azərbaycan diasporunun fəaliyyətinə verilən mühüm töhfələrə, ölkəmizin beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafındakı səmərəli işinə görə bir qrup diaspor üzvü "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub. Soydaşlarımızın hazırladıqları müxtəlif musiqi nömrələrinin, "Həmrəylik" videoçarxının təqdim olunduğu konfrans "Diaspor Marşı"nın sədaları altında yekunlaşıb.

— Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazanda “Çulpan” Mədəniyyət Mərkəzində “Tatarıstan Respublikasının Azərbaycan Milli-Mədəni Muxtariyyəti” regional ictimai təşkilatı tərəfindən 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş bayram konserti keçirilib. baş tutan tədbir təşkil olunub. Tədbirin təşkilində Azərbaycan gənclərinin 50-dən çox nümayəndəsi iştirak edib. Konsertin fəxri qonaqları arasında Türkiyənin Kazandakı Baş konsulluğunun vitse-konsulu Murat Taşdemir və Tatarıstan Respublikası Prezidentinin daxili siyasət məsələləri üzrə departamentinin milli siyasətin həyata keçirilməsi şöbəsinin baş məsləhətçisi Marina İvanova olub.
— Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərində 31 dekabr – Dünya Azərbacanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbir keçirilib. Mahaçqala və Dərbənd Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti tərəfindən Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialında təşkil olunan tədbirdə şəhər məclisinin deputatları, yerli administrasiyanın əməkdaşları, təhsil müəssisələrinin, ictimai təşkilatların rəhbərləri və nümayəndələri iştirak ediblər.
— Rusiyanın Sankt-Peterburq şəhərində 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş konfrans keçirilib. “Naxçıvan” Azərbaycanlıların Dostları Milli-Mədəni Birliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə yerli dövlət orqanlarının rəsmiləri, Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulluğunun, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif diaspor təşkilatlarının rəhbərləri, ictimai və mədəniyyət xadimləri iştirak ediblər.
— Rusiyanın Çelyabinsk şəhərində “Azərbaycan” Çelyabinsk vilayəti sosial-hüquqi ictimai təşkilarının təşəbbüsü ilə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tədbir keçirilib.
— Rusiyanın Mockva vilayətinin Dolqoprudnı şəhərinin Mədəniyyət və İctimai Əlaqələr Mərkəzində Azərbaycan Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirilib. Tədbirdə yerli dövlət orqanlarının, şəhər ictimaiyyətinin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.
— Qazaxıstanın Türküstan vilayətinin Şimkənd şəhərində “Azərbaycan” Etnomədəni Birliyinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.

— Marneulidə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşəbbüsü ilə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilib.
— Qazaxıstanın Aktau şəhərində yerləşən Ş.Yessenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetində 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tədbir keçirilib. Azərbaycan Mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirdə Aktau şəhərində təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.
— Qırğızıstanın paytaxtı Bişkekdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət və Tədris Mərkəzində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş bayram tədbiri keçirilib.
— Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində 31 Dekabr – Dünya Azərbaycalılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram şənliyi keçirilib.
— Qazaxıstanın paytaxtı Astanada "Xəzər" Etnomədəni Birliyinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tədbir keçirilib.
— Qazaxıstanın Şu şəhərində "Azərbaycan" Etnomədəni Mərkəzinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və yeni ilə həsr olunmuş bayram tədbiri keçirilib.
— Dünya Azərbaycanlılarının Həmrəylik Günü Yeni il münasibətilə "Bir olaq, həmrəy olaq!" adlı bayram tədbiri təşkil olunub.

Xarici ölkələrdə "Azərbaycan günləri"nin, Milli kino, mədəniyyət, musiqi və s. günlərin təşkili

— Rusiyanın Yekaterinburq şəhərində əməkdar idman ustası, dünya çempionu, Olimpiya oyunlarının gümüş medalçısı Heydər Məmmədəliyevin mükafatları uğrunda yunan-Roma güləşi üzrə 14-cü ənənəvi Beynəlxalq turnir keçirilib. Turniri təşkil edən "Azərbaycan-Ural" regional milli-mədəni ictimai təşkilatının təşəbbüsünü Sverdlovsk vilayətinin Bədən Tərbiyəsi və İdman Nazirliyi, Yekaterinburq Administrasiyasının bədən tərbiyəsi, idman və turizmin inkişafı üzrə idarəsi və Sverdlovsk vilayətinin Güləş Federasiyası dəstəkləyib.
— Yunanıstanın https://www.karfitsa.gr xəbər saytında "Qala" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun təşəbbüsü ilə

Azərbaycanın görkəmli sənətkarı, SSRİ Xalq artiti, Azərbaycan Dövlət Mahnı Teatrının yaradıcısı və bədii rəhbəri Rəşid Behbudova həsr olunmuş məqalə yerləşdirilib. https://www.karfitsa.gr/diethni/rasint-bechbountof-enas-apo-tous-spoudaioterous-tragoudistes-tou-azerbaitzan/

— Serbiyanın Belqrad şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin, Azərbaycanın bu ölkədəki səfirliyinin və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Nizamini oxuyaq" kitab-albomun təqdimat mərasimi keçirilib. Belqrad şəhər meriyasının əsas zalında baş tutan mərasimdə TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev, Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Mispah Demircan, Serbiyanın mədəniyyət və informasiya nazirinin müavini Stanko Blaqoyeviç və başqaları çıxış ediblər.

— Yunanıstanın https://www.karfitsa.gr xəbər portalında "Qala" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına həsr edilmiş məqaləsi yerləşdirilib. (https://www.karfitsa.gr/diethni/kratiko-akadimaiko-theatro-operas-kai-baletou-tou-bakou/)

— Niderlandda fəaliyyət göstərən "Azerbaijan Ladies Club"un təşkilatçılığı ilə 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunuş videokonfrans keçirilib. Konfrans Türkiyənin "Allegra Ensemble" qrupunun konsert proqramı ilə davam edib.

— Norveçin paytaxtı Oslonun "Soria Moria" mədəniyyət mərkəzindəki "Cosmopolite" konsert zalında Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə əlaqələndiricisi, Nizami Gəncəvi adına həftəsonu məktəbinin rəhbəri Ramil Əliyevin təşkilatçılığı ilə "Şuşa, sən gözəlsən!" adlı konsert-sərgi keçirilib.

— Fransada fəaliyyət göstərən "Kəpəz" Nəşriyyat Evi Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə fransız dilində Vazeh Əsgərovun "Azərbaycanlıların Fransaya mühacirəti" adlı kitabını çap edib. Müəllifin əsas məqsədi XIX əsrin sonlarından dövrümüzədək soydaşlarımızın Fransaya mühacirətinə dair tarixi faktları araşdırmaq olub. Kitaba Fransada məskunlaşmış məşhur azərbaycanlılar haqqında 10-dək biblioqrafik məlumat daxil edilib. Müəllif son 25 ildə təkcə Azərbaycandan deyil, 5 qonşu dövlətdən (Rusiya, Gürcüstan, Ermənistan, Türkiyə, İran) də Fransaya miqrasiya etmiş azərbaycanlı ailələrin bu ölkədə yerləşməsi haqqında geniş tədqiqat işi aparıb.

— Niderlandın Haaqa şəhərində fəaliyyət göstərən Azərbaycan icması Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyətinin təşkilatçılığı ilə "Şuşa ili"nə həsr olunmuş tədbir keçirib. Tədbirdə ölkəmizin Niderlanddakı səfirliyinin, Beynəlxalq Cinayət Məhkəməsinin əməkdaşları, UNESCO-nun, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri istirak ediblər.
— Avstriyanın Zalsburq şəhərindəki Azərbaycan Evində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.
— Yunanıstanın https://www.karfitsa.gr xəbər saytında "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun görkəmli Azərbaycan rəssamı Maral Rəhmanzadəyə həsr olunmuş məqaləsi yerləşdirilib. (https://www.karfitsa.gr/diethni/maral-rachmazante/)
— Niderlandın Haaqa şəhərindəki "Transval" kitabxanasında Niderland-Azərbaycan Türk Kültür Dərnəyinin təşkilatçılığı Almaniyada yaşayan azərbaycanlı yazıçı-publisist Orxan Arasın dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə həsr etdiyi kitabın holland və türk dillərində təqdimat mərasimi keçirilib.
— Niderlandın Amsterdam şəhərində həmyerlimiz Səltənət Rəvanqızının təşəbbüsü ilə "Azərbaycanın inciləri" layihəsi çərçivəsində Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə həsr olunmuş poçt markaları çap edilib. Markanın üzərində Şuşa qalası ilə "Xarı bülbül" çiçəyinin təsviri və "Qarabağ", "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. İlham Əliyev" sözləri əks olunub. Markalar Niderlandın rəsmi poçt rabitəsinin PostNL milli operatoru tərəfindən buraxılıb.
— Yunanıstanın https://www.karfitsa.gr xəbər portalında "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun Azərbaycanın görkəmli teatr və kino aktrisası, xalq artisti Nəsibə Zeynalovaya həsr olunmuş məqaləsi yayımlanıb. (https://www.karfitsa.gr/diethni/qala-nasiba-zeinalova/)
— Avstriyanın Breqenz və İsveçrənin Sürix şəhərlərində xalqımızın və türk dünyasının musiqi mədəniyyətinə böyük töhfələr vermiş musiqişünas, xanəndə, şair və bəstəkar Əbdülqadir Marağayinin xatirəsinə həsr olunmuş "İpək Yolu" adlı klassik türk musiqisi konsertləri keçirililib. Diasporla iş Üzrə Dövlət Komitəsinin, Türkiyə Cümhuriyyəti Mədəniyyət Nazirliyinin və TRT-nin birgə dəstəyi, İsveçrə Azərbaycanlıları Mədəniyyət, Dostluq və Həmrəylik Cəmiyyəti və Sürix Türk Musiqi Cəmiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşdirilən tədbirdə Azərbaycanın, Türkiyənin diplomatik korpuslarının əməkdaşları, türk iş

adamları, müxtəlif qeyri-hökumət təşkilatlarının, Azərbaycan və Türkiyə diasporlarının nümayəndələri iştirak ediblər.

— Polşanın Chojna şəhərində II Dünya müharibəsində həlak olmuş azərbaycanlı rəssam Məhəmməd (Maqomet) Maqomayevin məzarı ziyarət edilib.

— Niderland Krallığının Ulft şəhərində "Huntenkunst" adlı beynəlxalq incəsənət sərgisi keçirilib. 20-22 may tarixində baş tutan sərgidə 30 ölkədən 250 rəssamın müxtəlif janr və səpkidə yaratdığı müasir təsviri sənət əsərləri nümayiş etdirilib. Onların arasında Beniluks Azərbaycanlıları Konqresinin sədr müavini, tanınmış rəssam Rasim Hüseynovun əsərləri də olub.

— Vyanada şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Odlar Yurdunun sədaları" beynəlxalq musiqi müsabiqəsinin bağlanış mərasimi keçirilib. Tədbir zamanda Azərbaycan Akademik Birliyinin sədri Kamal Əkbərov, münsiflər heyətinin fəxri sədri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova çıxış ediblər.

— Azərbaycan-Almaniya dostluq münasibətlərinin 200 illiyinə həsr edilmiş "Henrix və Leyla" adlı musiqi albomu işıq üzü görüb. Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi, Almaniyada yaşayan soydaşımız Xədicə Zeynalovanın başçılıq etdiyi "Bridge of Sound" Kamera Orkestrinin təşkilatçılığı ilə baş tutan "Henrix və Leyla" musiqi layihəsi üzrə işlər Almaniya və ABŞ-da həyata keçirilib.

— Oslo şəhərində 28 May – Müstəqillik Günü çərçivəsində Azərbaycanın əməkdar incəsənət xadimi, şair, tərcüməçi və kinodramaturq Baba Vəziroğlu ilə görüşlər keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Oslo Azərbaycan Evi və Nizami Gəncəvi adına həftəsonu Azərbaycan dili məktəbinin təşkilatçılığı ilə paytaxtın "Deichman Bjørvika" mərkəzi kitabxanasında baş tutan görüşdə soydaşlarımızla yanaşı, yerli sakinlər və əcnəbi qonaqlar iştirak ediblər.

— İtaliyanın Milan əyalətindəki Korbetta şəhər meriyasında "Şuşa İli"nə həsr olunmuş tədbir keçirilib. Korbetta şəhər meri Marko Ballarinin dəvəti ilə Azərbaycan diasporunun fəal üzvü, bəstəkar-pianoçu Kəmalə Əlizadə və həyat yoldaşı Stefano Muscaritolo tədbirdə iştirak ediblər.

— Berlin şəhərindəki "Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evinin nəzdində rəqs dərnəyinin fəaliyyətinə start verilib.

— Yaponiyanın Yamato şəhərində Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert keçirilib. Kanaqava prefekturasına daxil olan şəhərin Sirius konsert zalında baş tutan musiqili gecə Yaponiyada yaşayan soydaşımız, fortepiano ifaçısı Gülnarə Azuma-Səfərovanın və yapon həmkarlarının birgə təşkilatçılığı ilə gerçəkləşdirilib.
— Yaponiyanın Yokohama şəhərində Bakı Musiqi Akademiyasının 100 illiyinə və Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələr qurulmasının 30 illiyinə həsr olunmuş qala-konsert keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və bu ölkədə yaşayan azərbaycanlı musiqiçi Gülnarə Azuma-Səfərovanın təşkilatçılığı ilə baş tutan konsertdə yapon musiqiçiləri Azərbaycanın dünya şöhrətli bəstəkarları Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov və Arif Məlikovun ölməz əsərlərini təqdim ediblər.
— Əlcəzairin "Əl-Hərir" qəzetində Misir-Azərbaycan Dostluq Cəmiyyətinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili kurslarının müdavimi, Qahirə Universitetinin tələbəsi Fatima Şakerin Azərbaycan şairi, qəzəlxan Əliağa Vahidin yaradıcılığı haqqında məqaləsi dərc olunub.
— Misirli tələbə Əsma Əhməd görkəmli Azərbaycan şairi Abbas Səhhətin "Vətən" şeirini azərbaycanca səsləndirib. Misirli tələbələrin Azərbaycan poeziyasına maraq göstərməsində Misir-Azərbaycan Dostluq Cəmiyyətinin nəzdindəki Azərbaycan dili kurslarının böyük rolu var. Qeyd edək ki, Qahirə Universitetinin doktoru, azərbaycanlı tədqiqatçı-alim Seymur Nəsirov Misirin qədim əlyazmalarla zəngin kitabxanalarından biri olan (burada 60 minə yaxın əlyazma saxlanılır) "Misir Kitablar Evi"ndə (Dər əl-Kutub əl-Misriyyə) Xəqani Şirvaninin əlyazmalarını tapıb. O, şairin divanının ("Divani-Xaqani") dörd nüsxəsi (üçü tam və dördüncüsü natamamdır) və "Töhfətül-İraqeyn" divanının əlyazma nüsxəsini aşkar edib.
— Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində müxtəlif fənlər üzrə ödənişsiz əsasda təhsil alan 73 tələbəyə diplom və sertifikat təqdim olunub. Mərasim haqqında xəbər Misir, Səudiyyə Ərəbistanı, İraq, Livan, Əlcəzair və digər ərəb ölkələrinin mətbuatında geniş işıqlandırılıb.
— Misir, Səudiyyə Ərəbistanı, İordaniya, Yəmən, Livan, Sudan və İraqın 50-dən çox qəzet və portallarında Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı alim Seymur Nəsirovun 28 May - Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş geniş məqaləsi dərc edilib.

— Nigeriyanın Laqos şəhərindəki “GAIA” Evində “EVE” adlı sənət sərgisinin açılış mərasimi keçirilib. Ölkəmizi sərgidə “Zövq” və “Bütov Ay” əsərləri ilə gənc rəssam Xurşidbanu Əkbərova təmsil edib. “Aworanka” platforması və “GAIA” Africa qadınlar klubunun birgə əməkdaşlığı nəticəsində təşkil olunan sərgidə İspaniya, Portuqaliya, Azərbaycan, Kamerun və Nigeriyanı təmsil edən 15 qadın rəssam iştirak edib. Azərbaycanlı rəssamın əsərləri ziyarətçilərdə böyük maraq doğurub. Nümayiş etdirilən 77 sənət əsərində qadınlıq, gözəllik, sevgi, mədəni irs, qaradərili qadınların paylaşılan təcrübəsi, analıq, karyera, istirahət, moda, pop-art və qadın obrazı mövzuları əhatə olunub.
— Daşkənd şəhərində özbək dilində Abdurasul Goziyev və Abdixaliq Arziqulovun “Səmərqənd və Bakı alimlərinin elmi əlaqələri tarixindən lövhələr (1960-2020)” adlı kitabı çap edilib. “Renessans Press” nəşriyyatında nəşr edilən kitab Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Səmərqənd Dövlət Universitetinin birgə layihəsi əsasında hazırlanıb.
— Özbəkistanın paytaxtı Daşkənddə keçirilən təntənəli Novruz şənliyinə qatılan diasporumuzun Azərbaycan guşəsi böyük marağa səbəb olub. Daşkənddəki “Humo Arena” idman kompleksinin ərazisində baş tutan sərgidə Özbəkistandakı milli mədəniyyət mərkəzləri, o cümlədən Daşkənddəki Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzi (RAMMM) və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi iştirak edib. Sərgi ilə tanış olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan guşəsində təqdim edilən kitablar və suvenirlərlə maraqlanıb, guşəni yüksək qiymətləndirdiyini söyləyib. Saz ustası İlham Abdullayev və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdində Kövkəb Əliyeva adına “Azərbaycan qızları” rəqs ansamblının üzvləri Özbəkistan Prezidentini qədim el havaları və milli rəqslərimizlə salamlayıblar. Qeyd edək ki, Firdovsi Hüseynov və İlham Abdullayev diaspor qarşısındakı xidmətlərinə görə ötən il Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin fərmanı ilə “Dostluq” ordeni ilə təltif olunublar.
— Gürcüstanın paytaxtı Tbilisi şəhərində fəaliyyət göstərən “Alyans" Gənclər Mərkəzində gənc və istedadlı dizayner Rezo Hüseynovun 8 mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş “Xəyallara Aparan Yol” adlı moda nümayişi olunub.

— Qırğızıstanın paytaxtı Bişkekdə “Azəri” İctimai Birliyinin və Azərbaycanın Qırğızıstandakı səfirliyinin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov, “Azəri” İctimai Birliyinin sədri Əzizağa Əliyev, Qırğız Respublikasının Qazaxıstan və Tacikistanda səfiri olmuş Janış Rustenbekov və başqaları çıxış ediblər.
— Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində məqtəbəqədər kursun körpələrinin iştirakı ilə Ana Dili günü qeyd olunub.
— Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin tələbələri Prezident Administrasiyasında Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüblər. Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru Orxan Pirverdiyev Mərkəz haqqında Prezidentə geniş məlumat verib.
— Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Buxara vilayətində fəaliyyət göstərən Azərbaycan diasporunun rəhbərliyi ilə görüş keçirilib. Görüşün sonunda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin adından Buxara vilayəti üzrə Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinə ölkəmizə dair zəngin kitab kolleksiyası hədiyyə edilib. Qonaqlar Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin kitabxanasını, muzeylərini ziyarət edib, layihələr və nailiyyətlərlə tanış olublar.

Lobbiçiliyin inkişafı istiqamətində atılan addımlar

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 3 fevral tarixli 2084 nömrəli tapşırığına əsasən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Hayastan All Armenian Fund" təşkilatının hazırladığı hesabatla əlaqədar mütəmadi şəkildə təşkil olunan "We are our borders-All for Artsakh" qlobal kampaniyasının Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlməklə bu ərazilərə qanunsuz maliyyə axınına rəvac verdiyini və Rusiya Sülhməramlı Kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı birləşmələrinin qalıqlarının ərazidə möhkəmlənməsinə xidmət etdiyini nəzərə alaraq bu istiqamətdə zəruri tədbirlərin görülməsi məqsədilə Komitə tərəfindən hazırlanmış müvafiq gələcək fəaliyyəti ilə bağlı təlimat xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarına göndərilib.

— 29 avqust 2022-ci il tarixdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Almaniya Federativ Respublikasına səfəri çərçivəsində Dortmund və Hannover şəhərlərində Azərbaycan icması ilə görüşlər keçirib.

— 14 sentyabr tarixində III Ərazi şöbəsinin müdiri Səlhət Abbasovanın Birləşmiş Krallığın paytaxtı London şəhərinə xidməti ezamiyyəsi çərçivəsində Dünya Yəhudi Konqresinin Yəhudi Diplomatik Korpusunun üzvü Dr. Efrat Sofer (Efrat Sopher) ilə görüşü baş tutub. Görüş zamanı Azərbaycan və yəhudi xalqlarının dost münasibəti, Azərbaycanın multikultural ənənələri, gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

— 25 sentyabr tarixində ABŞ-ın Yuta ştatında yaşayan Azərbaycan icmasının təmsilçiləri Solt-Leyk-Siti şəhər meriyasında keçirilən görüşdə iştirak ediblər. Görüş Yuta-Azərbaycan Dostluq Təşkilatının üzvləri İlqar Qasımov və Kamran Qarayevin təşəbbüsü ilə baş tutub.

— 25 sentyabrda Polşada yaşayan diaspor fəalları bu ölkədə səfərdə olan Azərbaycan Kyokuşin Karate Federasiyasının nümayəndə heyəti ilə görüşüb.

— 14 oktyabr tarixində Komitə əməkdaşlarının Avstraliya İttifaqına səfəri çərçivəsində Melburn şəhərində yerləşən La Trobe Universitetində görüş keçirilib. Görüşdə Universitetinin professoru Amalia Di İorio, La Trobe kollecinin akademik direktoru Dom Harden iştirak ediblər. Ölkələrimiz arasında tələbə mübadiləsi və gələcək əməkdaşlıq barəsində danışılıb.

— 14-17 oktyabr tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin Melburna səfəri çərçivəsində şəhərin mərkəzində yerləşən Federasiya meydanında Azərbaycanın

Dövlət Bayrağının Dövlət Himninin səslaları altında qaldırılması mərasimi keçirilib. 18 Oktyabr - Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə keçirilən tədbirdə DİDK əməkdaşları, Turkiyənin Melburn şəhərindəki Baş konsulu Arif Eser Torun, bu şəhərdə yaşayan həmvətənlərimiz, həmin şəhərin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər. Komitə sədri səfər çərçivəsindəTürkiyə Respublikasının Melburn şəhərindəki Baş konsulu ilə görüşüb. Görüş zamanı Azərbaycan həqiqətlərinin bu ölkədə daha geniş yayılması və gələcəkdə birgə fəaliyyət istiqamətləri haqqında müzakirələr aparılıb. Eyni zamanda Komitə sədri Melburn şəhərində Viktoriya Yəhudi İcması Şurasının nümayəndələri, Sidney şəhərində Yeni Cənubi Uels (New South Wales) parlamentinin millət vəkilləri Linda Volts və Pol Linçlə YCU parlamentinin binasında görüşüb. Komitə sədri Azərbaycan həqiqətləri – Qarabağ münaqişəsinin tarixi, 44 günlük Vətən müharibəsinin səbəb və nəticələri barədə ətaflı danışıb. Avstraliyadakı Azərbaycan icması ilə parlament üzvləri arasında sıx əməkdaşlıq əlaqələrinin qurulduğu bildirilib.

— 17 oktyabr tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Sidney şəhərində Avstraliya Yəhudi İcra Şurasının Prezidenti Cilian Siqal və baş icraçı direktoru Piter Vertheim ilə görüşüb. Görüşdə Avstraliya Yəhudi İcması Şurasının fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verilib. Avstraliyadakı yəhudi icması ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması ətrafında fikir mübadiləsi aparılıb.

— Komitə sədri Sidney şəhərində Avstraliyanın Yeni Cənubi Uels ştatının Waverly Council (Veyverli Şurasının) meri xanım Paula Marselos ilə görüşüb. Şəhər Şurasının hər il həyata keçirdiyi multikultural festivallarda Azərbaycan icmasının öz mədəniyyət və incəsənəti ilə iştirakı barədə ilkin razılıq əldə edilib. Daha sonra Sidney Texnologiya Universitetində professor və müəllim heyəti ilə görüşüb. Komitə sədri Azərbaycanın tanıtımı ilə bağlı təqdimatla çıxış edib, Qarabağ həqiqətləri, tolerantlıq və multikulturalizm mühiti barədə məlumat verdikdən sonra professor və müəllim heyətinin suallarını cavablandırıb, iki ölkə arasında əməkdaşlığın perpektivlərindən söz açıb. Eyni zamanda Universitetin lobbisində Azərbaycanın tanıtımı mövzusunda videoçarx nümayiş etdirilib və guşə yaradılıb.

— 17 oktyabr tarixində Avstraliya səfər çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsi sədri Türkiyə Respublikasının Sidney şəhərindəki baş konsulu və Türkiyə Respublikasının Avstraliya İttifaqındakı səfiri ilə görüşü baş tutub. Görüşdə Komitə sədri erməni icmasının törədə biləcəyi təxribatların qarşısının alınması məqsədi ilə birgə əməkdaşlıq fəaliyyəti barədə müzakirələr aparıb.

— 18 oktyabr tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Avstraliyaya İttifaqının Kanberra şəhərində Federal Parlamentinin deputatı Kris Bauen (Chris Bowen), Kanberra şəhərində Avstraliya Xarici İşlər və Ticarət Departamentinin idarə rəisi Kris Kenan, AXİTD-nin Şərqi Avropa şöbəsinin müdiri Met Skelli və Türkiyə Respublikasının Avstraliya İttifaqındakı səfiri Korhan Karakoç ilə görüşüb. Görüşdə Azərbaycan və Avstraliya arasında iqtisadi-ticari əlaqələrin inkişafı müzakirə edilib.

— 21 oktyabr tarixində Qahirədə fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində təhsil alan 73 tələbəyə diplom və sertifikatlar təqdim olunub. 2014-cü ildən fəaliyyət göstərən cəmiyyətdə indiyədək 40 ölkədən 1600-ə yaxın tələbə təhsil alıb. Hazırda 35 ölkədən 400-dən çox gəncə ödənişsiz əsasda Azərbaycan, ingilis dilləri, "Qurani-Kərim"in qiraəti, ərəb dilinin qrammatikası və ədəbiyyat, bəlağət və məntiq elmi, xəttatlıq, dekorasiya fənləri tədris edilir. Cəmiyyətin fəaliyyətinin əsas məqsədi xalqlar arasında dostluğun möhkəmləndirilməsi, elm, mədəniyyət və din sahələrində əlaqələrin inkişafı, habelə tələbələrə sosial xidmətlərin göstərilməsidir.

— 05-08 noyabrda Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Polşaya səfəri çərçivəsində bu ölkənin Dövlət katibi, hökumətin Xaricdəki Polyaklar üzrə səlahiyyətli nümayəndəsi Jan Michal Dziedziczak ilə, Xaricilər Ofisinin rəhbəri Jaroslaw Szajnerlə və Polşa Respublikası Seymində Xaricdəki Polyaklarla Əlaqə Komissiyasının sədri Robert Tiskeviç ilə görüşüb.

— 7 noyabrda Estoniyanın paytaxtı Tallinn şəhərində fəaliyyət göstərən Azərbaycan Evində Azərbaycan icması ilə görüş keçirilib.

— 9 noyabrda Parisdə fəaliyyət göstərən Fransada Azərbaycanın Dostları Assosiasiyasının "Qarabağ incilərinin Avropa səsası" layihəsi çərçivəsində Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının (AQSİA) rəhbərliyi ilə növbəti görüşü keçirilib. Görüşdə Fransada Azərbaycanın Dostları Assosiasiyasının (ADA) prezidenti, Fransa parlamentinin sabiq üzvü Jerom Lamber, Paris-Azərbaycan Evinin prezidenti Mirvari Fətəliyeva, AQSİA-nın idarə heyətinin sədri Səkinə Babayeva və üzvləri iştirak ediblər.

— 9-10 noyabrda Estoniyaya səfər çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Estoniyanın Dövlət idarəçiliyi naziri Riina Solman və Mədəniyyət Nazirliyinin Xarici əlaqələr departamentinin rəhbəri, icmalar üzrə məsul nümayəndəsi Anne Ly Reima ilə görüşü keçirilib. Komitə sədri Tallinn şəhərində Estoniya-Azərbaycan Dostluq Parkını ziyarət edib.

— 9 noyabr tarixində ABŞ-a səfər şərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Səlhət Abbasovanın Nyu-York şəhər meriyasının beynəlxalq əlaqələr üzrə komissarı Edvard Mermelşteyn və Nyu-York şəhərinin Bruklin inzibati rayonunun prezidenti Antonio Reynoso ilə görüşü keçirilib.
— 11 noyabrda Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Avstriyaya səfəri çərçivəsində Zalsburq şəhər meri Harald Preuner ilə görüşüb.Görüşdə Komitənin fəaliyyəti, dünya azərbaycanlılarının birliyi, yaşadıqları ölkələrin cəmiyyətlərinə, o cümlədən Avstriya cəmiyyətinə inteqrasiya məsələləri barədə məlumat verilib.
— 30 noyabrda Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Azərbaycanda səfərdə olan İsveç və Fransada yaşayan diaspor fəalları və Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin rəhbəri, Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin sədri Nuran Abdullayevlə görüşüb.
— 1 dekabr tarixində Amerika Yəhudi Komitəsinin (AJC) Rusiya və Avrasiya üzrə direktoru Samuel Kligerlə Diasporla İş üzrə Dövlət Komitəsinin sədrinin görüşü keçirilib. Görüşdə həmçinin "Qafqaz Yəhudiləri Mədəniyyət Mərkəzi"nin rəhbəri Yakov Abramov, Nyu-Yorkda yaşayan iş adamı Mikayıl Davidov və Milli Məclisin üzvü, Azərbaycan-İsrail parlamentlərarası dostluq qrupunun rəhbəri Anatoli Rafailov da iştirak edib.
— 5 dekabr tarixində Amerika-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Dövlət Komitəsində olub. Qonaqları salamlayan Komitə sədrinin müavini onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib.
— 7dekabr tarixində Avstraliyada fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyasının rəhbəri Mikayıl Oyta Yeni Cənubi Uels (NSW) əyalət parlamentinin üzvləri ilə görüş keçirib. Görüşdə Avstraliya İttifaqının əyalət parlamentində Leyborist partiyasını təmsil edən millət vəkili, kiçik biznes, əmlak və multikulturalizm üzrə kölgə naziri Stiven Kamper, millət vəkili Marjori Spuner O'Nil və Yeni Cənub Uels əyalətinin Bondi Ticarət Palatasının prezidenti Emmanuel Konstantinou iştirak ediblər. Görüş zamanı Azərbaycan icmasının fəaliyyəti, Azərbaycan dövlətinin Cənubi Qafqaz bölgəsində sülhsevər və normallaşma münasibətlərinin bərqərar olması naminə ciddi səylər göstərdiyi, dünyəvi, multikultural və tolerantlıq dəyərlərinə sadiq qaldığı barədə ətraflı məlumat verilib. Növbəti ildə keçiriləcək parlament seçkilərində soydaşlarımızın fəal iştirakı və gələcək əməkdaşlıq perspektivləri də müzakirə olunub.
— 9 dekabr 2022-ci il tarixində Misirdəki Azərbaycan diasporunun rəhbəri Seymur Nəsirov ölkə parlamentinin Dini İşlər və Vəqflər Komitəsi sədrinin müavini, İslam Universitetləri Assosiasiyasının Baş katibi Üsamə əl-Abdla görüşüb. İslam

Universitetləri Assambleyasında baş tutan görüş zamanı ölkələrimiz arasında əməkdaşlıq və dostluq əlaqələri müzakirə edilib.

— 12 dekabr tarixində Türkiyənin paytaxtı Ankarada "Qardaşlıqdan müttəfiqliyə gedən yolda Heydər Əliyevin "Bir millət, iki dövlət!" fəlsəfəsinin rolu" mövzusunda simpozium keçirilib.Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin kollektivi, Türkiyə Prezidentinin Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin və Azərbaycan Evinin rəhbəri, professor Aygün Attar, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Yeni Azərbaycan Partiyasından Milli Məclisin deputatı Hikmət Babaoğlu, Ədalət və İnkişaf Partiyasının (AK Parti) beynəlxalq əlaqələr departamentinin sədr müavini Mehmet Ceylan, Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç, hərbi qulluqçular, kursantlar, yerli ictimaiyyətin nümayəndələri və digər rəsmi şəxslər Heydər Əliyev Parkında Ümummilli Liderimizin əziz xatirəsinə böyük ehtiram göstəriblər.

— 16 dekabrda Fransada fəaliyyət göstərən Azərbaycan icması ölkəmizə təyin olunması münasibətilə yeni səfir Ann Boyonu (Anne Boillon) təbrik edib. Azərbaycanın Dostları Assosiasiyasının (ADA) prezidenti, Fransa parlamentinin fəxri üzvü Jerom Lamberin adından səfir Ann Boyona ünvanlanan məktubda bildirilib ki, diplomat qarşıdakı bir neçə ildə Fransanı Azərbaycan hakimiyyəti önündə təmsil edəcək.

— Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Gürcüstandakı nümayəndəliyinin rəhbəri Tuba Özütok Marneuli rayonunda fəaliyyət göstərən Azərbaycan Evini ziyarət edib. Azərbaycan Evinin direktoru Məhəbbət İmanov öncə 13 noyabr tarixində İstanbul şəhərində törədilmiş terror aktı nəticəsində həlak olanlarla bağlı nümayəndəliyin rəhbərinə başsağlığı verib, bütün soydaşlarımızın hər zaman qardaş Türkiyənin yanında olduğunu, terroru hiddətlə pislədiyini vurğulayıb. Tuba Özütok qonaqpərvərliyə və doğmalığa görə Azərbaycan Evinin direktoruna təşəkkür edib, gələcəkdə TİKA-nın Tbilisi nümayəndəliyi ilə Azərbaycan Evi arasında müəyyən layihələrin birgə həyata keçirilməsi haqqında söhbət açıb və birgə fikir mübadiləsi aparılıb.

— Qazaxıstanın Astana şəhərində fəaliyyət göstərən "Xəzər" Azərbaycan Etnomədəni Birliyinin üzvləri İstanbulda törədilmiş terror aktı ilə bağlı Türkiyə Cümhuriyyətinə və türk xalqına dərin hüznlə başsağlığı verib. Bu məqsədlə birliyin rəhbərliyi və bir qrup üzvü Türkiyənin Qazaxıstandakı Səfirliyini ziyarət edib.

— Erməni əsilli rusiyalı politoloq Andranik Miqranyanın “Lazarev Klubu”nun İrəvanda keçirilən 5-ci iclasında gürcü xalqını “məxluq” adlandırması və Gürcüstana təzyiqlər göstərilməsi ilə bağlı çağırışı qonşu ölkədə yaşayan Azərbaycan icmasında sərt hiddət doğurub. Azərbaycan əsilli gürcüstanlılar bu məsələ ilə bağlı ölkənin Xarici İşlər Nazirliyinə (XİN) açıq məktubla müraciət edərək, Andranik Miqranyanın Gürcüstan ictimaiyyətindən üzr istəməsini və onun ölkəyə girişinə qadağa qoyulmasını tələb ediblər.
— Diasporla İş üzrə Dövlət Komitəsinin sədri cənab Fuad Muradov Azərbaycanda səfərdə olan Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli ilə görüşüb. Görüşdə Prezident İlham Əliyevin qonşu dövlətə səfərinin əhəmiyyəti, bu səfərin ölkələrimiz arasındakı münasibətlərə verdiyi töhfələrdən danışılıb, Gürcüstanda yaşayan soydaşlarımızın həyat və fəaliyyətlərinin, xüsusilə təhsil problemlərinin hər zaman ən yüksək səviyyələrdə diqqət mərkəzinə gətirildiyi qeyd edilib.
— Cari ilin 21 sentyabr tarixində İsraildə yerləşən Yaxın Şərq Siyasəti Tədqiqatları Mərkəzinin prezidenti, Dona Qrasiya Diplomatiya Mərkəzinin fəxri üzvü David Bedein təşkilatçılığı əsasında Qafqaz Əsillilərin Təşkilatı ilə birlikdə Netanya şəhərində Bet İsrail Masorti sinaqoqunda Azərbaycan musiqisi və mətbəxinin təqdimatında Azərbaycan üslubunda Roşhaşanah (yəhudi yeni ili) ziyafəti keçirilib.Tədbirdə eyni zamanda, 29 iyun tarixində İsraildə Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin tarixi xilaskarlıq missiyasını təcəssüm etdirən Azərbaycan xalqının Milli Qurtuluş Gününün qeyd olunduğu tədbirin həmtəşkilatçısı olduğunu xatırladan David Bedein ölkəmizə pərəstiş etdiyini, Azərbaycanı İsrailin strateji müttəfiqi kimi daim dəstəklədiyini və bu xüsusda bütün səylərini ortaya qoyduğunu diqqətə çatdırıb. Məktubda İsrail Dövləti və müxtəlif ölkələrdəki yəhudi icmalarında Azərbaycanın multikulturalizm modeli, o cümlədən Prezident İlham Əliyevin Azərbaycanın yəhudi icmasını hər il yəhudi yeni ili münasibətilə təbrik etməsi, eləcə də Azərbaycanda sinaqoqların gecələr açıq qalması və bütövlükdə ölkəmizdə yəhudi icmasının firavan yaşayışı barədə hələ də dünya yəhudi icmasının kifayət qədər məlumatlı olmadığına diqqət çəkən David Bedein qeyd olunan ziyafətin sözügedən boşluğu doldurmaq baxımından əhəmiyyətini vurğulayıb. O, İsrail siyasətçilərinin, o cümlədən Knesset (parlament) üzvlərinin öz siyasi karyeralarını təşviq etmək məqsədilə bir qayda olaraq Roşhaşanah ziyafəti təşkil etdiklərini qeyd edərək sözügedən tədbirin keçirilməsinin Azərbaycanın təbliği və təşviqi cəhətdən önəmini bir daha diqqət önünə çəkib.

— Cari ilin 8-10 dekabr tarixlərində Türkiyənin İstanbul şəhərində "Dünya Azərbaycanlı Elm Xadimlərinin I Forumuna Hazırlıq Görüşü" baş tutub. Tədbirin əsas məqsədi elm sahəsində böyük uğurlar qazanmış və bu gün çalışdıqları qurumlarda, ali təhsil müəssisələrində, beynəlxalq institutlarda ölkəmizi layiqli şəkildə təmsil edən elm xadimlərini bir araya gətirmək, onlar arasında şəbəkənin formalaşmasını təmin etməklə müasir dünyada Azərbaycan diasporunun inkişafına töhfə verməkdir. Layihə çərçivəsində 14 ölkədən (Türkiyə, ABŞ, Fransa, Kanada, Almaniya, Avstriya, Qazaxıstan, Qırğızıstan, Rusiya, Gürcüstan, Cənubi Koreya, Estoniya, İsveç, Misir) 20 nəfər elm xadiminin iştirak etdiyi tədbirə dörd ölkədən (Çin, Yaponiya, Oman və Səudiyyə Ərəbistanı) azərbaycanlı elm adamı onlayn formatda qoşulub. Tədbirdə konsepsiyaya uyğun olaraq görüşün məqsədləri nəzərdən keçirilib, iştirakçıların rəy və təklifləri dinlənilib, əsas müzakirə mövzularının və formatının müəyyənləşdirilməsi üzrə İşçi qrupları formalaşdırılıb. Tədbiri açıq elan edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri görüşün əhəmiyyətinə diqqəti cəlb edib və Dünya Azərbaycanlılarının Şuşada keçirilən Zəfər Qurultayında Azərbaycan Prezidenti İlham Əliyevin xaricdə yaşayan azərbaycanlı alimlərin qüvvələrinin birləşdirilməsi ilə bağlı tövsiyəsini xatırladıb. Bildirib ki, məhz həmin tövsiyədən sonra xaricdə yaşayan azərbaycanlı alimlərin görüşlərinin keçirilməsi, onların potensialının Azərbaycanın xeyrinə istifadə olunması yolları ilə bağlı müzakirələr aparılıb. "Böyük hədəflər müəyyənləşdirilib. Bugünkü tədbirdə həmin hədəflərə bütün təfərrüatı ilə aydınlıq gətiriləcək. Dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərinin, xalqımızın haqq səsinin çatdırılması, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın öz haqları uğrunda mübarizəsinə digər ölkələrdə yaşayan həmvətənlərimiz, xüsusilə elm xadimləri öz töhfələrini verməlidirlər. Bu mənada sizin təşkilatlanmağınız və fəaliyyətinizi koordinasiya etməyiniz xüsusi əhəmiyyət kəsb edir", - deyə Komitə sədri nəzərə çatdırıb.

— Afrikada qazılan yeni su quyusuna Borçalı adı verilib. Bu aksiyanın təşəbbüskarı Gürcüstanda yaşayan Minurə Mustafayeva adlı soydaşımız olub. O, lazım olan vəsaiti toplayaraq, Afrikada susuzluqdan əziyyət çəkən insanlara göndərib. Soydaşımızın təşəbbüsü ilə Afrikada 3 su quyusu açılıb və bu ilin avqustunda 4-cü quyunun da açılması üçün vəsait göndərilib. Minurə Mustafayeva bu ilin 2-8 avqust tarixlərində Şuşada keçirilmiş Diaspor Gənclərinin III Yay Düşərgəsində iştirak edib.

Xaricdə yaşayan azərbaycanlıların inteqrasiyası və ictimai-siyasi fəallığının artırılması

— BMT-nin 49-cu İnsan Haqları Şurasının ümumi müzakirələri sessiyasında Azərbaycanda mövcud məcburi köçkün və qaçqın məsələlərini və onların işğaldan azad olunmuş ərazilərə təhlükəsiz qayıdışının təmin olunması, eyni zamanda həmin ərazilərdə mövcud su problemlərini və mina məsələlərini əks etdirən bəyanatın təqdim olunması təklif edilib. (bitməmiş fikir və bunu edən əcəbidir bu bölməyə aid deyil cari məlumat)

— Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının şöbə müdiri Nuran Abdullayevin təşəbbüsü və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Almaniyanın müxtəlif bölgələrindəki nüfuz sahibi olan azərbaycanlı elm adamlarını, həkimləri bir araya gətirmək məqsədilə təxminən 250 nəfər həkimin iştirakı ilə ilk dəfə olaraq Almaniyadakı Azərbaycanlı Həkimlərin I Forumu təşkil olunub. Sözügedən tədbirdə müvafiq dövlət qurumları - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi iştirak edib.

— Fransada yaşayan və təhsil texnologiyaları sahəsində təhsil alan doktorant-tədqiqatçı Ayaz Kərimov Ruandanın paytaxtı Kigali şəhərində keçiriləcək "Generation Connect Global Youth Summit 2022" adlı konfransa məruzəçi kimi iştirak edib.

— Rusiya Federasiyasının "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" (URAMMM) ictimai təşkilatının sədri İslam Hüseynov bu vilayətin qubernatoru Aleksey Russkixin ictimai əsaslarla müşaviri təyin edilib. İ.Hüseynov 2005-ci ildən Ulyanovsk vilayətində Azərbaycan diaspor təşkilatının rəhbəri, Ulyanovsk vilayətinin qubernatoru yanında Millətlər Şurasının üzvüdür.

— RF Promorye diyarında Primorye Azərbaycanlıları Konqresinin sədri Mərdan Novruzov qubernatorun müşaviri təyin edilib.

— Ukraynada müharibə zamanı Nikolayev şəhərinin müdafiəsində göstərdikləri xidmətə görə soydaşlarımız təltif edilib. Nikolayev meri Oleksandr Senkevic Ukrayna Azərbaycanlıları Radasının (UAR) vilayət üzrə təmsilçisi Zaur Ağabəyovu və onun şəhər Radasının deputatı olan oğlu Ramil Ağabəyovu fəxri fərmanla təltif edib. Ukraynada Poltava Azərbaycanlıları Radasının rəhbəri Füzuli Qənbərov isə Şəhər Administrasiyasının "Şəhərin müdafiəsinə görə" medalı ilə təltif olunub.

— Niderlandda yaşayan fəal diaspor üzvü Həcər Karaman 16 mart 2022-ci il tarixində bu ölkədə keçirilən bələdiyyə seçkilərində iştirak edib. Sosialistlər Partiyasının (PvdA) namizədi kimi seçkilərə qatılan Həcər xanım "Gələcəyə səs verin!" şüarını irəli sürüb. O, seçicilərinə keyfiyyətli həyat, yaxşı təhsil, işsizliyin azaldılması istiqamətində fəal çalışacağını vəd edib.

— Finlandiyanın Espoo şəhərindəki Etelä-Tapiola liseyində müxtəlif ölkələrin mədəniyyət günü keçirilib. Liseyin 17 yaşlı tələbəsi, Azər-Türk Gənclər Təşkilatının üzvü Mona Savojifarın təşkilatçılığı ilə yaradılan Azərbaycan guşəsində ölkəmizin qədim tarixini və zəngin mədəniyyətini əks etdirən kitablar, rəsm əsərləri, xalçalar, geyimlər və suvenirlər nümayiş etdirilib. Milli geyimli soydaşımız tədbir iştirakçılarına ölkəmizin tarixi barədə ətraflı məlumat verib, milli rəqs ifa edib, milli mətbəx nümunələrinin hazırlanması qaydalarını göstərib.

— Saloniki şəhərinin Abelokipus bələdiyyəsinin Karapantsio Mədəniyyət Mərkəzində "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti və keçmiş SSRİ ölkələrindən olan Yunan İcmalarının Ümumyunan Federasiyasının təşkiltçılığı ilə "Yunanıstan-Azərbaycan dostluq gecəsi" adlı tədbir keçirilib. Cəmiyyətin baş katibi Salatın Məmmədlinin moderatorluğu ilə keçirilən tədbirdə "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədov, Yunan İcmalarının Ümumyunan Federasiyasının Baş katibi İliana Kantaidou, Azərbaycanın Yunanıstan və Albaniyadakı fövqəladə və səlahiyyətli səfiri Anar Hüseynov, Saloniki regional dairə idarəsinin nümayəndəsi Xristos Mattis, "Mitera Tereza" Alban Qaçqınları Təşkilatının sədri Arjan Cara, "Silloğos Katikon Neas Politias" rəqs qrupunun sədri Papanikolau Stilianos və xoreoqraf Varvara Panagiotidou çıxış ediblər.

— Almaniyada yaşayan soydaşımız, urologiya, uro-onkoloji cərrahiyyə və laparoskopik urologiya üzrə mütəxəssis Dr. Rüfət Əsədbəyli "Lausitzer Seenland Klinikum" tibb klinikasında yeni vəzifəyə təyin olunub.

— Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Komitə sədri bu görüşün ötən ilin noyabr ayında ABŞ səfəri çərçivəsində Devid Harrislə baş tutmuş səmərəli görüşün davamı olduğunu xatırladaraq Azərbaycan diasporu ilə ABŞ-dakı yəhudi icmaları arasındakı əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib.

— ABŞ Konqresinin Nümayəndələr Palatasına namizədliyini irəli sürmüş soydaşımız Ramin Məmmədovu dəstəkləmək məqsədilə konsert keçirilib. (məkan və təşkilatçı əlavə edilsə, yaxşı olar)

— Azərbaycanlı kinorejissor Elmar Bayramovun rəhbərlik etdiyi "Old Stone Pictures" media-prodakşn ABŞ-da “İlin media mükafatı” kateqoriyasının qalibi olub. Bu barədə məlumat döyüş filmləri prodüseri Alan Qoldberqin rəhbərliyi ilə Nyu-Cersi ştatının Atlantik-Siti şəhərində təşkil olunan “Action Marital Arts Mega Weekend” gecəsində açıqlanıb.

— Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən “Azərbaycan Humanitar Əməkdaşlıq Mərkəzi” qeyri-kommersiya təşkilatı sosial xarakterli aksiya keçirib. Diaspor fəalları payızın gəlişi münasibətilə “Berejnıye ruki” pansionatındakı ahıl şəxsləri ziyarət ediblər.

— Rusiyanın Kursk vilayətində yaşayan azərbaycanlı idmançı Orxan Hacıyev peşəkarlar arasında boks üzrə Rusiya çempionu olub
— Ukrayna Azərbaycanlıları Radasının (UAR) Kiyevdəki ofisində Ukrayna Ali Radasının deputatı və "Slava Ukraine" Xeyriyyə Fondunun komitə rəhbəri Yuliya Qrişina ilə görüş olub.
— Moskvada keçirilən "Peşəkar boks gecələri" yarışında Kursk vilayətində yaşayan Azərbaycan əsilli boksçu, Rusiya çempionu Orxan Hacıyev Ermənistandan olan rəqibi Arkadi Arutunyan üzərində möhtəşəm qələbə qazanıb.
— Kişinyovdakı La İzvor parkında keçirilən yaşıllaşdırma kampaniyasına Moldova Azərbaycanlıları Konqresinin üzvləri də qatılıblar.
— Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində "Azərbaycanın faşizmüzərində qələbəyə töhfəsi" kitabının təqdimat mərasimi keçirilib.
— Cari ilin 2-4 iyun tarixlərində BMT-nin davamlı inkişaf məqsədləri üzrə gənclər strategiyasının həyata keçirilməsi məqsədilə Finlandiyada yaşayan və təhsil texnologiyaları sahəsində təhsil alan doktorant - tədqiqatçı Ayaz Kərimov Ruandanın paytaxtı Kigali şəhərində keçirilən "Generation Connect Global Youth Summit 2022" adlı konfransda Komitənin dəstəyi ilə məruzəçi kimi dəvət olunub və iştirak edib.
— Moskvada fəaliyyət göstərən Azərbaycan diasporu ilə yəhudi diasporu arasında əməkdaşlıq haqqında Memorandumun imzalanması mərasimi keçirilib. Dağ Yəhudilərinin Xeyriyyə Fondunda (STMEGI) baş tutan mərasimdən öncə "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatı ilə Rusiya Yəhudi Konqresinin rəhbərlikləri arasında görüş keçirilib.
— 5 sentyabrda Maltada yaşayan soydaşlarımız qadın futbolçulardan ibarət Azərbaycan milli komandasına azarkeş dəstəyi göstəriblər.
— 26 sentyabrda İsveç Krallığında keçirilən builki seçkilərdə iştirak edən Azərbaycan icmasının 6 nümayəndəsi ölkə parlamentinin (Riksdaq) və yerli bələdiyyə məsliclərinin mandatını qazanıb. Seçkilərin nəticələrinə görə, Aylin Fazelian ölkə parlamentinin, İradə Əliyeva Söderberg Jönşöping bölgəsi üzrə regional məclisin, Xalidə Mərafət Huddinge bələdiyyə məclisinin, Aida Kərimli Vestra-Götaland region məclisinin, Turan Əliyev Partille şəhər bələdiyyə məclisinin, Əminə Sadıqbəyli Solentuna bələdiyyə məclisinin üzvü seçiliblər.

— 5 oktyabrda Barselonada yaşayan həmyerlimiz Orxan İbadov Misirin İsgəndəriyyə şəhərində keçirilən “Egypt Open 2022” yaddaş çempionatının qızıl medalına layiq görülüb.
— 13 oktyabrda Bolqarıstanın Plovdiv şəhərində keçirilən güləş üzrə veteranların dünya çempionatında soydaşımız Mürşüd Məmmədov üçüncü yerə çıxıb.
— 18 oktyabrda Niderlandda yaşayan Azərbaycan icmasının fəalı Həcər Karaman PvdA Sosialist Partiyasının Amsterdam üzrə İdarə Heyətinin üzvü seçilib.
— 18 oktyabrda Azərbaycan əsilli Romina Purmoxtari İsveçin iqlim və ətraf mühit naziri təyin olunub. Baş nazir Ulf Kristersson hökumətinin 18 oktyabr 2022-ci il tarixində açıqlanan tərkibində yer alan 27 yaşlı soydaşımız İsveç tarixində ən gənc nazir hesab olunur.
— 31 oktyabrda Polşada fəaliyyət göstərən Varşava Azərbaycan Evində "Knowledge Exchange" adlı layihəsi çərçivəsində ilk görüş keçirilib.
— 17 noyabrda Almaniyada yaşayan azərbaycanlı həkim, Köln Universiteti Klinikasının şöbə müdiri, tibb elmləri doktoru Nuran Abdullayev “minimal-invaziv neyroradioloq mütəxəssis” diplomunu almaqla daha bir uğura nail olub.
— 22 noyabrda Polşanın paytaxtı Varşavada fəaliyyət göstərən Azərbaycan Evində maliyyə və mühasibatlıq sahələri üzrə seminar keçirilib.
— 30 noyabrda Sofiya Universitetində təhsil alan gənc həmyerlimiz Əmir Əlizadə Bolqarıstan radiosuna müsahibəsində Azərbaycanda bolqar dilinə olan xoş münasibətdən danışıb.
— 5 dekabrda Avstriya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Fərid Əzizov Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində keçirilən Kempo Karate üzrə 26-cı Dünya Çempionatında qələbə qazanıb.
— 12 dekabrda Macarıstanın paytaxtı Budapeştdə fəaliyyət göstərən Azərbaycan Evində “Microsoft günləri” mövzusunda təlim keçirilib.
— 23 dekabrda Cenevrə Dövlət Universitetində Azərbaycana həsr olunmuş “Bakı keçid mərhələsində. Davamlı ərazi layihəsinin inkişafı üçün perimetr təhlili və müdaxilə tədbirləri” mövzusunda elmi araşdırmanın təqdimat mərasimi keçirilib.
— 24 avqustda Belqrad şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin sədri, Şərqi Avropa Azərbaycanlılarının Koordinasiya Şurasının Serbiya üzrə əlaqələndiricisi Zərifə Əlizadə uzun sürən ağır xəstəlikdən sonra vəfat edib.

— Sentyabrda Qazaxıstanın Almatı şəhərində Şəhidlərimizin yad edilməsi məqsədilə “Ata Yurd-Nomad” ictimai birliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə Vətən müharibəsi qaziləri də iştirak ediblər. Öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.
— Qırğızıstana səfəri çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Vüsal Məmmədovun bu ölkədə yaşayan Azərbaycan icmasının fəalları ilə görüşləri keçirilib.
— Oktyabrın 17-də Gürcüstanın Marneuli rayonunda yerləşən Azərbaycan Evində 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə keçirilən tədbirdə Diasporla iş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak edib və Marneuli ictimaiyyətinin nümayəndələri və TİKA-nın Gürcüstandakı nümayəndəliyinin əməkdaşları ilə görüş keçirilib.


ALIEV VS QUINTANA
MORAN VS ELZEA
HUMBLE CIVIC CENTER | HUMBLE, TX

"FLORIDA KEYS" INTERNATIONAL MUSIC COMPETITION FOR YOUNG TALENTS (IMCYT)
IN HONOR OF THE GREAT AZERBAIJANI COMPOSER JEVDET HAJIYEV
WELCOME to 7th COMPETITION!
ADD A FLAG OF YOUR COUNTRY WITH US!
New -York City
Carnegie Hall
Winners Gala Concerts and Award Ceremonies
will be held on April 5, 2022 at Carnegie Hall in New -York, USA
AACA
www.floridakeyscompetition.com
WE ARE A NON-PROFIT ORGANIZATION (FLORIDA 501 (C) (3) EXEMPT)

UNIVERSIDAD ADOLFO IBÁÑEZ
"Elektrik Bazarının Dizaynı"
CENTRA
CENTER FOR ENERGY TRANSITION
UNIVERSIDAD ADOLFO IBÁÑEZ
Şəhriyar Nasirov, PhD

15:00
25 АПРЕЛЯ
30-летию установления дипломатических отношений между Израилем и Азербайджаном и 15-летию создания Международной ассоциации Израиль-Азербайджан «АзИз» посвящается
ПРЕМЬЕРНЫЙ ПОКАЗ документального фильма
Руфата АСАДОВА
снятого компанией PICMUS PRODUCTION совместно с Ассоциацией «АзИз»
Если забуду тебя, Иерусалим
Мероприятие будет проходить в конференц-зале (4-й этаж) Азербайджанского государственного комитета по работе с диаспорой по адресу: Баку, ул. Самеда Вургуна, 42.
Запись по телефону: +994 77 623 00 05 (Рафаэль)



— 30 yaşlı azərbaycanlı idman ustası, 13-4 peşəkar döyüş tarixçəsinə sahib Hüseyn Əliyev Texas ştatının Hyuston şəhərində "Humble Civic Center" arenasında keçirilən "Fury FC 57 - UFC Fight Pass" yarışmasında 65 kiloqram çəki dərəcəsində Andres Quintanaya (19-4) qarşı müvəqqəti çempionluq kəməri uğrunda döyüşün 5 raundunun nəticəsində hakimlərin yekdilli qərarı ilə (49-46, 49-46, 50-44) qalib elan edilib.

— Çilinin Adolfo İbanez Universitetinin Mühəndislik və elm fakültəsinin bərpa olunan enerji üzrə magistr proqramının dosenti və təsisçi-akademik direktoru (belə bir ifadənin mövcudluğunu, həm də defislə yazıldığını dəqiqləşdirməli) Şəhriyar Nəsirov ölkəmizdə keçirilən liberal elektrik enerjisi bazarları sahəsində onlayn seminara məruzəçi qismində qatılıb. Energetika Nazirliyinin təşkilatçılığı ilə 5 gün davam edən seminarda Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Enerji Məsələləri Tənzimləmə Agentliyi, "Azərişıq" ASC və "Azərenerji" ASC-nin nümayəndələri iştirak ediblər.

— Nyu-York şəhərindəki məşhur "Carnegie Hall" mədəniyyət mərkəzində Azərbaycanın görkəmli bəstəkarı Cövdət Hacıyevin şərəfinə keçirilən VII "Florida Keys" beynəlxalq musiqi müsabiqəsinin bağlanış mərasimi keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Florida ştatında fəaliyyət göstərən Amerika-Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbəri Töhfə Eminova və assosiasiyanın nəzdindəki təhsil və mədəniyyət məsələləri üzrə komitənin rəhbəri Pərvin Muradovanın birgə təşkilatçılığı ilə gerçəkləşdirilən tədbirdə müsabiqənin qala-konserti və qaliblərin mükafatlandırılması mərasimi baş tutub.



— Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Böyük zalında Azərbaycanla İsrail arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə və "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının yaranmasının 15 illiyinə həsr olunmuş konsert keçirilib. "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının və BMA-nın birgə təşkilatçılığı ilə baş tutan tədbirdə Milli Məclisin (MM) üzvləri, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, yerli ictimaiyyətin,

Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər. Konsertdə Kamellia İoffe (vokal), Fəqan Həsənli (fortepiano), Aytac Kara (violin), Rza Xosrovzadə (vokal), BMA nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının və 22 saylı musiqi məktəbinin şagirdləri Hüseyn Quliyev və Elmira Dadaşova çıxış ediblər.

— Dünya şöhrətli alim, Nobel mükafatı laureatı, ABŞ Milli Elmlər Akademiyasının üzvü Əziz Sancar ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində

keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı münasibətilə tədbir iştirakçılarını təbrik edib.

— Nobel mükafatı laureatı, İsrail əsilli amerikalı biokimyaçı və biofizik, fəxri professor, Cənubi Kaliforniya Universitetindəki Kimya üzrə Dana və David Dornseif kafedrasının rəhbəri Arye Varşel (Arieh Warshel) Azərbaycan diasporunun tarixində baş verən əlamətdar hadisə - Dünya Azərbaycanlılarının V Qurultayı münasibətilə tədbir iştirakçılarını təbrik edib.

— Diasporla İş üzrə Dövlət Komitəsində rejissor Rüfət Əsədovun "Əgər səni unutsam, Yerusəlim" filminin təqdimat mərasimi keçirilib. Filmin nümayişindən sonra ABŞ-da fəaliyyət göstərən Qafqaz Yəhudiləri Mədəniyyət Mərkəzinin rəhbəri Yakov Abramov, "Mənim Yolum" Uşaq İnkişaf Mərkəzinin rəhbəri Alyona Bədəlova, ABŞ-da yaşayan həmyerlimiz Mehriban Nəsib və başqaları təəssüratlarını bölüşüblər.

— Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalında Azərbaycan-Amerika Musiqi Fondunun rəhbəri, tanınmış orqan ifaçısı Cəmilə Cavadova-Spitsberqin konserti keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsi əməkdaşlarının, yerli musiqi ictimaiyyətinin, müxtəlif ölkələrdəki Azərbaycan diasporu nümayəndələrinin qatıldıqları konsertdə Almaniya, Avstriya, Azərbaycan və Amerika bəstəkarlarının əsərləri ifa olunub.

— ABŞ-ın Vaşinqton şəhərində "The Voice of Orchid" ("Səhləbin səsi) xeyriyyə konserti keçirilib. ABŞ-Azərbaycan Ticarət Palatasının (USACC) təşkilatçılığı ilə Kennedi Mərkəzində baş tutacaq xeyriyyə tədbirində klassik və müasir Azərbaycan musiqisinin məşhur nümunələri səsləndirilib. Əsərləri Fuad İbrahimovun dirijorluq etdiyi Bakı Kamera Orkestri, tanınmış və gənc sənətkarlar Nəzakət Teymurova, Tünzalə Ağayeva, Abbas Bağırov, Cəlal Kərimov, Orxan Cəlilov, Ənvər Sadıqov, Arslan Növrəsli, Mərziyyə Hüseynova və Nəzrin Aslanlı ifa ediblər.



— ABŞ-ın Minnesota ştatında fəaliyyət göstərən Azərbaycan diasporu Milli Qəhrəman Albert Aqarunovun doğum gününə həsr olunmuş "Mən Azərbaycanı hər yanda axtarıram" mövzusunda foto müsabiqə keçirilib. Azərbaycan-Minnesota Assosiasiyasının təşkilatçılığı ilə 28 May – Azərbaycanın Müstəqillik Günü çərçivəsində keçirilən müsabiqədə 8-20 yaş arası 15 nəfər iştirak edib. İT sahəsi üzrə mütəxəsis Kamil Dadaşov, təhsil üzrə fəlsəfə doktoru Nərmin Ağalarova və Azərbaycan-Minnesota Assosiasiyasının rəhbəri Günel Krişnanın daxil olduğu münsiflər heyəti 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günündə qaliblərin adlarını açıqlayıb. Qərara əsasən, I yerə 9 yaşlı Fərhad Əli Muxtarlının (Kanada, Kalqari), II yerə 11 yaşlı Əminə Qarayevanın (Kanada, Kalqari), III yerə isə 13 yaşlı Davud Məmmədovun (Eagan, Minnesota) təqdim etdikləri fotoşəkillər layiq görülüb. Birinci yerin qalibinə 500, ikinci yerin qalibinə 300, üçüncü yerin qalibinə 200 ABŞ dolları məbləğində pul mükafatları verilməsi nəzərdə tutulub.

— Diasporla İş üzrə Dövlət Komitəsinin sədri İsraildə bir sıra rəsmi şəxsləri ilə görüşlər keçirib. İsrail Knessetində baş tutan görüşlərdə İsrailin maliyyə naziri Aviqdor Liberman, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer, Yerusəlim məsələləri və irsi üzrə, eləcə də mənzil və tikinti üzrə nazir Elkin Zeev, Elina Bordaç Yalovanın rəhbərlik etdiyi İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri, "İsrail Bizim Evimiz" partiyasının baş direktoru İnna Zilberqerts, Akko şəhər merinin birinci müavini, Yəhudi Milli Fondunun törəmə təşkilatı olan "Neimanuta" şirkətinin rəhbəri Zeev Noymann iştirak ediblər. Görüşlərdə Azərbaycan diasporunun İsraildə fəaliyyəti, Azərbaycan-İsrail əməkdaşlığı, Qarabağın bərpa-quruculuq prosesinə investisiyaların cəlb olunması üçün səylər və imkanlar, gələcək layihələr müzakirə olunub.

— Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin İsrailin diaspor işləri üzrə naziri Naxman Şayla görüşü keçirilib. Görüşdə DİDK-in və Diaspor İşləri üzrə Nazirliyin fəaliyyət istqamətləri, müxtəlif proqram və layihələr barədə ətraflı məlumat verilib, əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılıb.

— Akko şəhərində fəaliyyət göstərən "İsraildə Azərbaycan Evi"ndə Azərbaycan icmasının üzvləri ilə görüş keçirilib. Tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə İsraildə məlumatlandırma kampaniyası apardıqlarına və müxtəlif aksiyalar təşkil etdiklərinə görə icma üzvlərinə minnətdarlığını bildirib. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diasporumuzun Vətən müharibəsi dönəmindəki fəaliyyətini yüksək qiymətləndirdiyini, Qələbə münasibətilə xalqımızı təbrik edərkən diasporun bütün dünya üzrə xidmətlərini xüsusilə vurğuladığını nəzərə çatdırıb.

— Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) nümayəndə heyəti Ankara şəhərində Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri, dövlət qurumlarının və siyasi partiyaların təmsilçiləri ilə görüşlər keçirib. AKP qrup sədrinin müavini, millət vəkili Yılmaz Tunc, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, MHP qrup sədrinin müavini Erkan Akçay, millət vəkili Sayın Yaşar Karadağ, İYİ Partiyanın sədr müavini Rıdvan Uz, Miqrasiya (Köç) İdarəsinin Vətəndaş cəmiyyəti və xarici icmalarla əlaqələr idarəsinin rəhbəri Gökhan Yıldızla görüşlər zamanı TADEF-in fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Miqrasiya İdarəsindəki görüş zamanı Türkiyədə yaşayan Azərbaycan

vətəndaşlarının aktual problemlərindən, xüsusilə şəxsiyyət vəsiqələri ilə bağlı məsələdən danışılıb. Bu problemlərin Miqrasiya İdarəsi və TADEF-in əməkdaşlığı ilə həll edilməsi razılaşdırılıb, sosial və mədəni tədbirlərin birgə təşkil olunması qərara alınıb.

— Avstraliya-Azərbaycan Assosasiyasının rəhbəri, Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçısı Mikayıl Oyta ölkənin Baş naziri Entoni Albanezeni yeni vəzifəyə seçilməsi münasibətilə təbrik edib.

— Qazaxıstanın Türkistan şəhərində 1 May – Qazaxıstan Xalqları Birliyi Günü münasibətilə keçirilən tədbirdə Azərbaycan da təmsil olunub. Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin nəzdindəki Mədəniyyət Sarayında təşkil olunan tədbirdə Türküstan vilayətində fəaliyyət göstərən "Qarabağ" Azərbaycan Etnomədəni Birliyi iştirak edib. Birliyin azərbaycanlı tələbələrlə birlikdə təşkil etdiyi Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, adət-ənənələrini əks etdirən milli suvenirlər, geyimlər, milli mətbəximizə aid nümunələr və rəqslərimiz nümayiş etdirilib.

— Gürcüstanın paytaxtı Tbilisidə fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzində rəqs və heykəltəraşlıq üzrə ustad dərsləri keçirilib. Bu layihə "Alyans Gənclər Mərkəzi" və "Qrinviç" Təhsil Mərkəzinin birgə əməkdaşlığı ilə baş tutmuşdur.

— Batumi şəhərində futvole üzrə Dünya Çempionatının seçmə mərhələsinə yekun vurulub. Çempionatın seçmə mərhələsi Beynəlxalq Futvole Federasiyasının (FWW) təşkilatçılığı ilə 2022-ci ilin 17-21 iyun tarixlərində baş tutub. Beynəlxalq turnirə Azərbaycan, Türkiyə, İsrail, Braziliya və İran milli komandaları qatılıblar. Azərbaycanın milli komandasının oyunçularının köynəklərində Marneulidə fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin və Tbilisi Alyans Mərkəzinin loqoları təsvir olunub. Gürcüstandakı Azərbaycan icmalarının nümayəndələri yarışlarda iştirak edən mili komandamıza azarkeş dəstəyi nümayiş etdiriblər.

V A Q İ F

Diaspor fəaliyyəti xarici KİV-də

— Safadi Beynəlxaq Diplomatiya, Araşdırma, İctimai Əlaqələr və İnsan Hüquqları Mərkəzinin siyasi analitiki, İsraildə yaşayan jurnalist Rachel Avraham tərəfindən Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq aləmdə ölkənin siyasi mövqeyinin dəstəklənməsi və xarici KİV-lərdə Ermənistanla davamlı informasiya savaşı çərçivəsində bu ölkənin Azərbaycana qarşı destruktiv fəaliyyətinin ifşa olunmasına töhfə verilməsi məqsədilə ümumilikdə 15 məqalə olmaqla "the J.CA" xəbər saytında 4, "Economic Peace Center" xəbər saytında 4, "Jewish Press" xəbər saytında 2, "Makor Rishon" xəbər saytında 2, "İsrael Hayom" xəbər saytında 1, "Foreignpolicyblogs" xəbər saytında 1, "İsraelnationalnews" xəbər saytında 1 məqalə (ingilis dilində 11, ivrit dilində 3 və ərəbcə 1 məqalə olmaqla 20 Yanvar, Xocalı Soyqırımı haqqında həqiqətləri əks etdirən məqalələr) dərc edilib.

— İsrailin Netanya şəhərində Bet İsrail Masorti sinaqoqunda Novruz bayramı ziyafəti təşkil edib, İkinci Qarabağ müharibəsi dövründə xüsusi canfəşanlıqla Azərbaycanın haqlı mövqeyini müdafiə edib, erməni təcavüzünü və terrorunu tənqid edib.

— Cari ilin 26 iyul tarixində Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin 20 illiyi və "Şuşa 270" Diaspor Gənclərinin III Yay Düşərgəsi haqqında məlumatı daha geniş auditoriyaya çatdırmaq məqsədilə sözügedən tədbirlərə həsr olunmuş məqalə ingilis dilində çap olunaraq "Azeri Observer" jurnalında dərc edilib.

— Cari ilin 5 sentyabr tarixində İsraildə yerləşən "İsrail Academia Monitor" akademik qurumunun baş direktoru Dana Barnett tərəfindən Yəmən Yəhudiliyi İrsi Mərkəzi və ASF Yəhudi Təcrübəsi İnstitutu ilə birlikdə İsrailin Rehovot şəhərində Yəmən Yəhudiliyi İrsi Mərkəzində "Azərbaycan-İsrail Mədəni Alyansı: Azərbaycan multikulturalizminin nümayişi" mövzusunda konfrans keçirilib. Konfransda Azərbaycanın multikulturalizm modelinin müzakirəsi və bu istiqamətdə məruzələrin dinlənilməsi, habelə aparıcı İsrail və beynəlxalq yəhudi mediasında tədbir mövzusu üzrə 4 məqalə yayımlanıb. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dövlətçilik ənənələri və siyasi mövqeyinin beynəlxalq aləmdə təşviqi baxımından konfrans keçirilərək Dana Barnettlə Komitə arasında müvafiq müqavilə imzalanıb. Komitə tərəfindən sözügedən tədbirin keçirilməsi üçün maliyyə dəstəyi göstərilib və Dana Barnett tədbirə dair təsviri hesabat göndərib. Hesabatda tədbirdə iştirakı nəzərdə tutulan bütün məruzəçilərin çıxış etdiyi, tədbirin videoyazıya alınaraq sosial mediada

paylaşıldığı, tədbirdən fotoşəkillərin çəkildiyi, furşet süfrəsinin təşkil edildiyi və tədbir mövzusu üzrə 4 məqalənin İsrail və beynəlxalq yəhudi mediasında dərc edildiyi qeyd olunub.

— Cari ilin 12 sentyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatla əlaqədar məqalələri 8 xəbər saytında dərc etdirib, eyni zamanda dünya azərbaycanlılarının bəyanatını www.brasiliainfoco.com saytında yayımlayıb, 2 sosial şəbəkədə paylaşım edib, Gürcüstan mətbuatında müsahibə vermiş, YouTube kanalı üzərindən müraciət etmiş, Zəfər Günü ilə bağlı 1 məqaləni 8 Kütləvi İnformasiya Vasitələrində Komitə sədrinin birinci müavininin müsahibəsini 12 Kütləvi İnformasiya Vasitələrində yayınlanıb.

— Cari ilin 1 oktyabr - 31dekabr tarixlərində İsrail mərkəzli Dona Qrasiya Diplomatiya Mərkəzinin fəxri prezidenti, İqtisadi Sülh Mərkəzinin prezidenti, İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, tanınmış siyasətçi və politoloq Ayoob Kara İsrailin ən geniş oxucu kütləsinə malik nüfuzlu qəzetlərindən olan "Israelhayom"da 08.09.2022-ci il tarixində dərc olunan "Niyə Azərbaycan İsrailin əsas müttəfiqidir" sərlövhəli məqaləsinə diqqət çəkərək bu qəbildən olan məqalələri mütəmadi olaraq yazmaqla ölkəmizə müntəzəm şəkildə dəstək verməyə hazır olduğunu ifadə edib və postunda, eləcə də 4 çağırış Knessetdə (Parlament) müxtəlif vəzifələrdə olarkən İsrail-Azərbaycan münasibətlərinin davamlı inkişafı üçün səylərini əsirgəmədiyini qeyd edən Kara yaxınlaşmaqda olan növbəti parlament seçkilərinə "Likud" partiyasının namizədi kimi qatılacağını bildirmiş və gələcəkdə də ölkəmizə dəstək vermək iradəsində olduğunu ərz etmişdir. Habelə İsrailin ən nüfuzlu qəzeti "Jerusalem Post"da yayımlanmış Azərbaycana dəstək xarakterli iki məqaləsinə də toxunan sabiq nazir təvazökarlıqdan bir qədər kənara çıxdığını etiraf etməklə müəllifi olduğu yazıların beynəlxalq ictimaiyyətdə və bütün yəhudi dünyasında müsbət anlamda geniş rezonans doğurduğunu qeyd edib. Həm İsrail, həm də ABŞ mediası ilə mükəmməl münasibətləri olduğunu vurğulayan Kara müəllifi olduğu məqalələrin Azərbaycanın strateji hədəflərinin bir çox beynəlxalq KİV-lərdə təbliğinə və təşviqinə yardımçı olacağına əminliyini bildirib. Yekun olaraq israilli politoloq Komitə ilə müntəzəm əməkdaşlıq etmək niyyətini ifadə edib 01 oktyabr – 31 dekabr 2022-ci il tarixləri aralığında 12 məqalənin (ingiliscə "Israel Hayom", "Jewish Press", "J.CA", "Arutz Sheva", "Foreign Policy Blogs", "Front Page Magazine" və digər KİV-lərdə) yayımının təmin edib.

— Ayoob Kara prezidenti olduğu İqtisadi Sülh Mərkəzində müntəzəm olaraq dərc olunan Azərbaycana dəstək xarakerli məqalələr, müxtəlif tədbirlərin fəxri qonağı

qismində ölkəmizə, o cümlədən işğaldan azad edilmiş ərazilərə etdiyi səfərlər vasitəsilə Azərbaycana dost münasibət bəslədiyini mütəmadi olaraq təsdiqləyib.

— Cari ilin iyul-oktyabr tarixlərində İsrail mərkəzli Dona Qrasiya Mendes Nasi adına Orta Şərq İnsan Hüquqları Mərkəzinin təsisçisi və baş direktoru,siyasi şərhçi Rachel Avraham cari zamanadək Komitə ilə həyata keçirdiyi əməkdaşlığı davam etdirmək niyyətini ifadə edib və bu məqsədlə 15 iyul – 15 oktyabr 2022-ci il tarixləri aralığında 33 məqalənin (ingiliscə 30 məqalə "Israel Hayom English", "Jewish Press", "J.CA", "Arutz Sheva", "Foreign Policy Blogs", "Front Page Magazine" və digər KİV-lərdə ivritcə 3 məqalə "Makor Rishon", "J.CA" və digər KİV-lərdə) yayımını təmin edib.

- Komitə ilə Azərbaycana dost münasibət bəslədiyini mütəmadi olaraq fəaliyyəti ilə təsdiqləyən Rachel Avraham arasında indiyədək mövcud əməkdaşlıq çərçivəsində adıçəkilən şəxs Azərbaycanın siyasi mövqeyi, siyasi mədəniyyəti və milli-mənəvi dəyərlərini, habelə ölkəmizlə İsrail arasında sıx əməkdaşlığı İsrail və beynəlxalq yəhudi mediasında özünün müəllifi olduğu müxtəlif yazılar və videomateriallarla təşviq edib, eyni zamanda 2-ci Qarabağ Müharibəsi dövründə xüsusi canfəşanlıqla Azərbaycanın haqlı mövqeyini müdafiə edərək erməni təcavüzünü və terrorunu tənqid edib, cari ilin fevral ayında Yerusəlim şəhərində (İsrail) Menahem Begin İrsi Mərkəzində "Qarabağ və Xocalı soyqırımı" mövzusunda konfransı, mart ayında Netanya şəhərində (İsrail) Bet İsrail Masorti sinaqoqunda Novruz bayramı ziyafətini, may ayında Netanya şəhərində (İsrail) Yəmən Yəhudilərinin Mədəniyyət Mərkəzində "Azərbaycanın yəhudi icmasından Yəmən yəhudilərinə: iki icmanın tarixi" mövzusu çərçivəsində Ulu Öndər Heydər Əliyevin zəngin dövlət idarəçilik irsinə, o cümlədən onun təməlini qoyduğu multikulturalizmin Azərbaycan modelinə həsr olunmuş, habelə Heydər Əliyev irsinin layiqli davamçısı İlham Əliyevin multikulturalizm siyasətini işıqlandırmış tədbiri, iyun ayında Netanya şəhərində (İsrail) Bet İsrail Masorti sinaqoqunda İsrailin tanınmış beyin mərkəzi "Yaxın Şərq Siyasəti Tədqiqatları Mərkəzi" ilə birlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tarixi xilaskarlıq missiyasını təcəssüm etdirən Azərbaycan Xalqının Milli Qurtuluş gününə həsr olunmuş tədbiri təşkil edib və sözügedən fəaliyyətinə görə ermənilər tərəfindən mütəmadi olaraq antisemit xarakterli təhqir və təhdidlərə məruz qalıb. Bu səbəbdən onun qeyd olunan fəaliyyətinin informasiya savaşında ermənilərin ölkəmizə qarşı destruktiv faəliyyətinin ifşa olunması istiqamətində Komitə tərəfindən yürüdülən siyasətə indiyədək önəmli töhfə olduğuna istinad edir və Rachel Avraham ilə Komitə arasında yeni müqavilə imzalanıb.

— Cari ilin noyabr-dekabr tarixlərində 2022-ci ilin 11-16 iyun tarixlərində "Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf" başlığı altında Komitə tərəfindən təşkil edilmiş elmi dəyirmi masada iştirak məqsədi ilə Azərbaycana baş tutmuş səfərindən məmnunluğunu ifadə etmiş Braziliya Beynəlxalq Diplomatik Jurnalistlər Assosiasiyasının əsasını qoyan və prezidenti olan, özündə iki www.omundodiplomatico.com və www.brasiliainfoco.com xəbər saytını birləşdirən "Brasilia in Foco" media şirkətinin rəhbəri, adıçəkilən saytların baş redaktoru, köşə yazarı Fabiana Ceyhan sözügedən səfərin nəticəsi olaraq Komitə ilə gələcəkdə də əməkdaşlıq etmək niyyətində olduğunu qeyd edib və hazırlanmış 4 proqramla əlaqədar 4 Kütləvi İnformasiya Vasitələrində, eləcə də www.omundodiplomatico.com və www.brasiliainfoco.com xəbər saytlarında məlumat əks olunub.

— Cari ilin dekabr tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti haqqında məlumatı daha geniş auditoriyaya çatdırmaq məqsədilə "Azərbaycan diasporunun 2022-ci ili: beynəlxalq tədbirlər, Ermənistan təxribatına qarşı mübarizə, Zəfər Günü tədbirləri" adlı məqalənin ingilis dilində çap olunan nüsxəsi "Azeri Observer" jurnalında dərc edilib.

- Qarşılıqlı şəkildə aparılan müzakirələr əsnasında müqabil tərəf adıçəkilən jurnalın "Qış 2022" nəşrində müvafiq məqalə cəmi 6 səhifədə çap edib.

— Cari ilin 27 iyul tarixində İsraildə yerləşən Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Rachel Avraham İsrail mərkəzli minatəmizləmə və partlamamış hərbi sursatların təftişi üzrə ixtisaslaşmış "Open Minded Solutions Ltd" şirkəti ilə birlikdə Yerusəlimdə Menahem Begin İrsi Mərkəzində "Azərbaycanın azad edilmiş ərazilərində minalar: Cənubi Qafqaz bölgəsində sülhə ən böyük maneə" mövzusunda dəyirmi masanın keçirilməsini təklif edib. Komitə ilə Rachel Avraham arasında mövcud əməkdaşlıq çərçivəsində onun fəaliyyətinin informasiya savaşında ermənilərin ölkəmizə qarşı destruktiv fəaliyyətinin ifşa olunması istiqamətində Komitə tərəfindən yürüdülən siyasətə önəmli töhfə olması nəzərə alınaraq, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycanın siyasi mövqeyinin beynəlxalq aləmdə təşviqi baxımından dəyirmi masanın keçirilməsi məqsədilə Rachel Avraham və Komitə arasında müvafiq müqavilə imzalanaraq tədbirin təşkili baş tutub.

- Sözügedən tədbirdə minaralar üzrə israilli ekspert və "Open Minded Solutions Ltd" şirkətinin təsisçisi və baş direktoru Royi Nahari, minalar üzrə azərbaycanlı ekspert və ANAMA yanında İctimai Şuranın sədr müavini Emil Həsənov, İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri Ayoob Kara, eyni zamanda Doktor Yiqal

ben Şalom, Doktor Mordexay Kedar kimi professor və ekspertlər çıxış və iştirak ediblər.

- Sonda Rachel Avraham tədbirin keçirilməsinə dair müvafiq təsviri hesabat ünvanlayıb. Hesabatda tədbirdə iştirakı nəzərdə tutulan bütün məruzəçilərin mövzu üzrə çıxış etdiyini, tədbirin videoyazıya alınaraq sosial mediada paylaşıldığını, tədbirin fotoşəkillərinin çəkildiyini, habelə Ayoob Karanın tədbir mövzusunda "İsrail robotları yerüstü minalar üçün həll yolu ola bilər" sərlövhəli məqaləsinin İsrailin ingilis dilində nəşr olunan və bütün dünyada geniş oxucu kütləsinə malik "İsraelhayom" qəzetində dərc edildiyi, həmçinin dəyirmi masanın videoyazısının "Youtube" kanalına yerləşdirildiyi qeyd olunub.

— Cari ilin 19 avqust tarixindən 2022-ci ilin 11-16 iyun tarixlərində "Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf" başlığı altında Komitə tərəfindən təşkil edilmiş elmi dəyirmi masada iştirak məqsədi ilə Azərbaycana baş tutmuş səfərindən məmnunluğunu ifadə etmiş Braziliya Beynəlxalq Diplomatik Jurnalistlər Assosiasiyasının əsasını qoyan və prezidenti olan, özündə iki www.omundodiplomatico.com və www.brasiliainfoco.com xəbər saytını birləşdirən "Brasilia in Foco" media şirkətinin rəhbəri, adıçəkilən saytların baş redaktoru, köşə yazarı Fabiana Ceyhan sözügedən səfərin nəticəsi olaraq Komitə ilə gələcəkdə də əməkdaşlıq etmək niyyətində olduğunu qeyd edib və yeni layihə təklifi irəli sürərək ayda 2 dəfə olmaqla aşağıdakı 10 mövzu üzrə:

  - Gözəl və zəngin Azərbaycan (foto və video görüntülər);
  - Dünyadakı Azərbaycanın tarixi abidələri;
  - Azərbaycan dili;
  - Azərbaycan mətbəxi;
  - Qarabağ və Şuşanın tarixi əhəmiyyəti;
  - Azərbaycanda multikulturalizm və onun təzahürləri;
  - İşğaldan azad edilmiş ərazilərdə mina problemi və onun həlli yolları;
  - Braziliyanın Azərbaycanda səfərdə olmuş səlahiyyətli və nüfuzlu şəxsləri ilə müsahibə;
  - Ermənistanın Azərbaycana qarşı yürütdüyü davamlı ekoloji terror siyasəti;
  - Oxçuçayın çirklənməsi.
  - başlığı ilə silsilə proqram hazırlayıb və "Inicio-TV Comunitaria DF - Chanel12" adlı 1 milyon izləyicisi olan televiziya kanalında, www.omundodiplomatico.com saytında və eyni adlı YouTube kanalında, 900 000 mindən çox baxış sayı olan www.brasiliainfoco.com adlı saytda,

həmçinin “Facebook” və 11 400 izləyicisi olan “İnstagram” səhifələrində yayımlayıb.

- Xüsusilə vurğulamaq lazımdır ki, adıçəkilən saytlar sosial şəbəkələrin auditoriyası diplomat, jurnalist, professor, müəllim, tələbə, tarixçi və araşdırmaçılardan ibarətdir.

— Azərbaycana dost münasibət bəslədiyini mütəmadi olaraq fəaliyyəti ilə təsdiqləyən Fabiana Ceyhan Azərbaycanın siyasi mövqeyi, siyasi mədəniyyəti və milli-mənəvi dəyərlərini, habelə ölkəmizlə Braziliya arasında sıx əməkdaşlığı Braziliya mediasında özünün müəllifi olduğu müxtəlif yazılar və videomateriallarla təşviq edib.

— Beynəlxalq əlaqələr və gənclərlə iş şöbəsinin məsləhətçisinin İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə səfəri baş tutub. Səfərin məqsədi cari ilin 4 aprel tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə BMT-də akkreditasiyadan keçmiş Beynəlxalq Hüquq və İnkişaf İnstitutu (İRDG) tərəfindən Cenevrə mətbuat klubunda (Swiss Press Club) Beynəlxalq Mina Xəbərdarlığı Gününə həsr olunmuş “Azərbaycanda minaların məhvinə aparan yol; beynəlxalq çağırış” mövzusunda mətbuat konfransında iştirak etmək olub. İRDG minaların və müharibənin partlayıcı qalıqlarının zərərsizləşdirilməsi, təhlükəli ərazilərin işarələnməsi və əhatəyə alınması səylərinin dəstəklənməsinin vacibliyini bildirib.(nəticə əlavə edilməli, məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitut (İnternational İnstitute for Rights and Development-Geneva, İRDG) və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən 2021-ci ilin dekabr ayında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində minaların yaratdığı ekoloji və humanitar problemləri əks etdirən birgə hesabat hazırlanaraq, BMT-nin Cenevrədə yerləşən Minalardan Təmizləmə Xidmətinin (UNMAS) Cenevrə Ofisinin rəhbəri Bruno Donata təqdim edilib. (nəticə əlavə edilməli, məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Ekologiya və Təbii Sərvətlər Nazirliyinin texniki dəstəyi ilə birgə tədqiqata əsaslanan bəyanat əsasında Oxçuçayın çirkləndirilməsi məsələsinin 2022-ci ilin sentyabr və oktyabr aylarında BMT-nin xüsusi məruzəçisi tərəfindən BMT-nin 51-ci İnsan Hüquqları Şurasının ümumi müzakirələr sessiyasında və Baş Assambleyasının 77-ci sessiyasında müzakirəyə çıxarılıb. (nəticə əlavə edilməli, məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Dövlət Komitəsi sədrinin 15-e nömrəli, 28.02.2022-ci il tarixli əmrinə əsasən, 2022-ci ilin 1-7 mart tarixlərində Ukraynada yaşanan müharibə ilə bağlı adıçəkilən ölkədə yaşayan soydaşlarımızın təxliyə edilməsində iştirak etmək məqsədilə

Beynəlxalq əlaqələr və gənclərlə iş sektoru şöbəsinin Gənclərlə iş sektorunun müdiri Ruminiyanın Buxarest şəhərinə ezam olunub. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Dövlət Komitəsinin sədrinin 8-e nömrəli, 14.02.2022-ci il tarixli əmrinə əsasən, 2022-ci ilin 24-27 fevral tarixlərində Komitənin Beynəlxalq Əlaqələr və Gənclərlə İş sektorunun aparıcı məsləhətçisi Mərmərə Universitetində Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı keçirilən "Xocalıya ədalət!" adlı konfransda Türkiyə Respublikasının İstanbul şəhərinə səfər edib, "Karabağ Azerbaycandır Koordine Etmə Dərnəyi"də üzvləri olan azərbaycanlı və türk gənclərlə dərnəyin gələcək fəaliyyəti haqqında müzakirələr aparıb. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Bu ilin fevralında DİDK-in dəstəyi ilə Azərbaycana gələn xarici jurnalistlər arasında Moldova (2 nəfər) və Ukraynadan (3 nəfər) olan media təmsilçiləri də olub. Onlar işğaldan azad olunmuş torpaqlara səfər edərək erməni vandalizmini gözləri ilə görüb, öz ölkələrinə qayıtdıqdan sonra bu barədə yazılar dərc ediblər. Ukraynada müharibənin başlaması ilə sözügedən məqalələrin dərci baş tutmasa da, moldvovalı jurnalistlərin Azərbaycan həqiqətlərinə dair məqalələri yerli mediada işıq üzü görüb. (https://www.jurnaltv.md/news/7aba46cbc8c8181b/kharabakhul-de-munte-dupa-doua-razboaie.html?fbclid=IwAR2VXkpnJvn7SU8e7Hh5DE9a56RZvXTcpM0y0vn-5fnXlUZRf3TX39SOTPI#.YkA9R6RrujI.facebook)

— ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan "The Jewish Press"də "Ermənistanla Azərbaycan arasında sülh perspektivləri yaxşılaşıb - Prezident Əliyev" sərlövhəli məqalə dərc olunub. Siyasi şərhçi Reyçel Avrahamın qələmə aldığı məqalədə Prezident İlham Əliyevin cari ilin aprelində Dünya Azərbaycanlılarının V Qurultayının keçirildiyi Şuşa şəhərində etdiyi çıxışına istinadən erməni təcavüzünün gətirdiyi bütün ağrılı-acılı məqamlara, işğala və vəhşiliklərə rəğmən, Azərbaycan tərəfinin sülhün bölgənin gələcəyi üçün zəruri olduğuna inandığı və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması məsələsinin indi gündəmdə olduğu bildirilib. (https://www.jewishpress.com/indepth/opinions/prospects-for-peace-between-armenia-and-azerbaijan-have-improved-president-aliyev/2022/05/04/)

— Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında Türkiyə-İsrail münasibətlərinin normallaşması prosesində Azərbaycanın rolundan bəhs edən "Azərbaycan Türkiyə-İsrail barışığına necə kömək etdi?" sərlövhəli məqalə dərc olunub. Siyasi şərhçi Reyçel Avrahamın

qələmə aldığı məqalədə bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğanın İsrailin Müstəqillik Günü ərəfəsində bu ölkənin prezidenti İsaak Herzoqa təbrik məktubu göndərməsinə diqqət çəkilib, bunun iki dövlət başçısı arasında son həftələrdə gerçəkləşmiş üçüncü təmas olduğu vurğulanıb, həmçinin Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun cari ilin may ayının 24-də İsrailə səfərinin gözlənildiyi barədə məlumat verilib. (https://foreignpolicyblogs.com/2022/05/09/how-azerbaijan-assisted-turkish-israeli-reconciliation/)

— Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında erməni işğalından azad olunduqdan sonrakı müddət ərzində Şuşada həyata keçirilən bərpa-quruculuq işlərindən bəhs edən "Müharibədən dağılmış Qarabağ bölgəsindəki Şuşa son bir ildə necə dəyişib?" sərlövhəli məqalə dərc olunub. Siyasi şərhçi Reyçel Avraham müəllifi olduğu məqalədə bu günlərdə Azərbaycanın mədəniyyət paytaxtında keçirilən Beynəlxalq Qida Festivalında iştirak etmək üçün Şuşaya etdiyi səfər zamanı şahidi olduqlarını keçən il İsrailin sabiq rabitə, kibertəhlükəsizlik və peyk naziri Ayub Kara ilə Azərbaycana səfəri çərçivəsində Şuşada gördükləri ilə müqayisə edib və son bir il ərzində burada əldə olunmuş tərəqqini görməkdən keçirdiyi heyrət hissini gizlətməyib. Müəllif ilk növbədə keçən il sözügedən ərazidə olarkən çoxlu çuxurları olan minalanmış torpaq yollarla getməli olduqları halda, bu il ən müasir standartlara cavab verən, 8 saatlıq məsafəni 5 saatlıq məsafəyə çevirən Zəfər yolu ilə getməkdən duyduğu məmnunluğu dilə gətirib. (https://foreignpolicyblogs.com/2022/05/16/how-has-shusha-in-the-war-torn-karabakh-region-transformed-over-the-past-year/)

— Türkiyənin https://www.star.com.tr xəbər portalında “Xocalını unutmadıq, unutmayacağıq!” sərlövhəli məqalə yayımlanıb. Ankara Hacı Bayram Vəli Universitetinin Jurnalistika fakültəsinin dekanı, professor Zakir Avşarın qələmə aldığı məqalədə azərbayvanlı jurnalist-yazar, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtının Türkiyədə nəşr olunan “Dinməyən acı: Xocalı” kitabından bəhs edilib. Türkiyəli professorun təhlili göstərir ki, kitab qardaş ölkənin elmi dairələrində böyük maraq doğurub. Kitab “Xocalıya ədalət!” beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avrasiya Yazarlar Birliyinin təşkilatçılığı ilə Türkiyənin “BENGÜ” Yayın Evi tərəfindən nəşr edilib. (https://www.star.com.tr/acik-gorus/hocaliyi-unutmadik-unutmayacagiz-haber-1710915/)

— Nigeriyada fəaliyyət göstərən “Azərbaycanın Dostları” Təşkilatının təsisçisi və rəhbəri Billurə Bayramova-Bernardın Şuşa səfəri və Dünya Azərbaycanlılarının V Qurultayı ilə bağlı təəssüratları Nigeriya mediasında işıqlandırılıb:
— https://cityvoice.ng/the-scars-of-shusha-the-heartbt-of-karabakh-in-azerbaijan/?fbclid=IwAR0hDAuQo9D_FSSwy3TAf4g9tDldKweyC7t_sSnod3WxBKnIr-NbcF7KJek
— https://www.vanguardngr.com/2022/06/i-couldnt-imagine-after-28-years-of-armenia-occupation-i-will-visit-my-lovely-homely-shusha/?fbclid=IwAR1OA57RrvUZgbQEeRM1dakwNzuw0u1hYkWe9t37qO2nP1DR5iqr8cxhzV0
— Nigeriyada fəaliyyət göstərən “Azərbaycanın Dostları” Təşkilatının təsisçisi və rəhbəri Billurə Bayramova-Bernard və “Aworanka” platformasının təsisçisi Ana Açа əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar. Mədəniyyətlərarası dialoqa təkan verə biləcək memorandum mütəxəssislərin mübadiləsini, incəsənət sərgilərinin təşkilini, mediada işıqlandırılmasını, mədəni irsin qorunmasını və təbliğini əhatə edir. Memorandum icma üzvlərinin və müxtəlif ölkələrdən olan sənətkarların incəsənət sahələrində, xüsusən də rəssamlıq, heykəltəraşlıq, rəsm və dizayn sahəsində iştirakını daha da genişləndirəcək.
— Ukraynanın https://newformat.info xəbərlər saytında “Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanın silahlı qüvvələrini təxribatda ittiham edib” sərlövhəli məqalə yerləşdirilib. Məqalədə Ukrayna Azərbaycanlıları Radasının (UAR) baş katibi Ceyhun Məmmədovun fikirlərinə də yer verilib.
— Moldovada yaşayan Azərbaycan icması ölkəmizin dövlət sərhədində Ermənistanın törətdiyi genişmiqyaslı təxribata etiraz məqsədilə Moldova rəsmilərinə və beynəlxalq təşkilatlara müraciət edib. Azərbaycan icmasının bəyanatı Moldovanın https://www.jurnal.md xəbər saytında yerləşdirilib.
— 2 sentyabrda Yunanıstanın https://www.karfitsa.gr xəbər portalında “Azərbaycan yunanları” sərlövhəli məqalə yerləşdirilib.
— “QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun qələmə aldığı məqalədə ölkəmizdə yunanların məskunlaşması tarixi, 1937-ci ildə sovet rejiminin repressiyalarına məruz qaldığı, Qafqazdakı bütün yunanların Qazaxıstana sürgün edildiyi və digər faktlar barədə ətraflı məlumat verilib.
— 15 sentyabr tarixində ABŞ-ın https://texas.statenews.net xəbər portalında ölkəmizin dövlət sərhədində Ermənistan silhlı qüvvələrinin törətdiyi genişmiqyaslı hərbi təxribat barədə Azərbaycan icmasının bəyanatı yerləşdirilib.

— 26 sentyabrda Avstriyanın dasfazit.at xəbər saytında və “Österreich” jurnalında “Vyanada “Azad Şuşa” layihəsi çərçivəsində orqan konserti” və “Konsert heyran etdi” sərlövhəli məqalələr yayımlanıb.
— 3 oktyabrda Yunanıstanın https://www.karfitsa.gr xəbər saytında “Azərbaycan musiqisi” sərlövhəli məqalə yayımlanıb.
— 19 oktyabr tarixində ABŞ-ın https://texas.statenews.net xəbər portalında Amerika Azərbaycanlıları Koordinasiya Şurasının (AAKŞ) İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin bombardman etdiyi Azərbaycan şəhərləri ilə bağlı etiraz bəyanatı yayımlanıb.
— “QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun qələmə aldığı məqalədə Azərbaycan musiqisinin qədim və zəngin tarixi barədə ətraflı məlumat verilib. Məqalədə mədəniyyət paytaxtımız Şuşanın musiqi sahəsində oynadığı rol xüsusilə vurğulanıb.1 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli “Abraham Accords Peace Institute” nun saytında Azərbaycan İsraildə səfirlik açacağı haqda məlumat yerləşdirilib.
— 2 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli “TV7 Israel News” xəbər saytında Azərbaycan İsraildə səfirlik açacağı haqda məlumat yerləşdirilib.
— 2 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə Amerikanın “News Max” xəbər saytında “Azərbaycan 30 ildən sonra İsrail səfirliyini açmağı düşünür” adlı məqalə yerləşdirilib.
— 5 noyabrda Lüksemburqun RTL today radiosunda odlar yurdu Azərbaycanın 11-13 noyabr 2022-ci il tarixində bu ölkədə keçiriləcək 62-ci beynəlxalq xeyriyyə bazarında təmsil olunmasından bəhs edilib. Lüksemburqda yaşayan soydaşlarımız Seymur Əhmədov və Samir Məmmədov Azərbaycan pavilyonunun təşkilatçıları olaraq bu barədə ətraflı məlumat veriblər. 7 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ingilis dilli xəbər saytı olan “7Israel National News” da “Qələbə günün mübarək, Azərbaycan! Azərbaycan Qarabağın azad olunmasını qeyd edərkən onun yəhudi icması və İsraillə sıx əlaqələrini anlamaq vacibdir” adlı məqalə yerləşdirilib.
— 7 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli “Forum Talrini” maliyyə yönümlü xəbər saytında Azərbaycan haqqında məlumat yerləşdirilib.

— 8 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "7 Kanal" xəbər saytında və radio kanalında Azərbaycan haqqında məlumat yerləşdirilmiş və yayımlanıb.
— 14 noyabrda Yunanıstanın https://www.karfitsa.gr xəbər portalında 9 Noyabr – Azərbaycanın Dövlət Bayrağı Gününə həsr olunmuş məqalə yayımlanıb. "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun qələmə aldığı məqalədə Azərbaycan dövlətinin rəmzlərindən biri olan üçrəngli bayrağımızın tarixi barədə məlumat verilib.
— 15 noyabrda Fransanın https://www.lagazetteaz.fr xəbər saytında "Fransa xalqı Senatda Azərbaycana qarşı qətnamə layihəsi əleyhinə səbərbər olunur" sərlövhəli məqalə yerləşdirilib.
— 17 noyabrda Serbiyanın https://www.danas.rs xəbər saytında Azərbaycanın Zəfər Günü münasibətilə "Dağlıq Qarabağın işğalına son – dinc inteqrasiyanın başlanğıcı" sərlövhəli məqalə yayımlanıb.
— 18 noyabrda Almaniyanın nüfuzlu nəşrlərindən biri olan "General Anzeige" qəzetində "Bonn sakini özünü Azərbaycanın elçisi kimi görür" sərlövhəli məqalə dərc olunub.
— 6 dekabrda Fransanın https://www.lagazetteaz.fr xəbər saytında "Azərbaycan etno-cazı Parisdə təqdim olunub" sərlövhəli məlumat yayımlanıb

— 19 dekabrda Portuqaliyanın https://sicnoticias.pt/ xəbər saytında "İsrail və İran: SİC müxbirinin şahidi olduğu böyük hərbi manevrlər" sərlövhəli xüsusi reportaj yayımlanıb.
— Azərbaycan-Amerika Qadın Cəmiyyəti, Nyu-York Azərbaycan Mədəniyyət Mərkəzi və Nyu-York icmasının təşkilatçığı və Komitənin maliyyə dəstəyi ilə keçirilmiş etiraz aksiyaları xarici KİV-də yayımlanıb.
— İsrailin "Jerusalem Post" xəbər saytında "İranla sərhəddə əsas tərəfdaş olan Azərbaycan 30 ildən sonra İsraildə səfirlik açmağı nəzərdən keçirir" haqda məlumat yerləşdirilib.
— 17 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "Israeli Defence" xəbər saytında "Azərbaycan, İsrail və İran arasında yox olmuş bərabərlik" adlı məqalə yerləşdirilib.
— 17 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "Newsly" xəbər saytında Azərbaycanın israildə səfirlik açması haqqında məqalə yayımlanıb.

— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin "İ24NEWS TV" televiziya kanalında İsraildə Azərbaycan səfirliyinin açılması ilə bağlı məlumat yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "Qloubz" iqtisadi saytı və qəzetində "İsrailin ən əsas neft təminatçısı Tel-Əviv şəhərində səfirlik açacaq" adlı məqalə yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit və ingilis dilli xəbər saytı olan "Israel Hayom"da "Diplomatik əlaqələrin formalaşmasından illər sonra Azərbaycan israildə səfirlik açacaq" adlı məqalə yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli xəbər saytı olan "Mako"da "İlk şiə ölkəsi: Azərbaycan İsraildə səfirlik açacağını elan edib" adlı məqalə yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli dini icmasının "Kabinetlər daxilində" saytında Azərbaycanla bağlı məqalə yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli 14-cü Kanal İTV xəbər saytında, həmçinin "TV 14" televiziya kanalında Azərbaycan İsraildə səfirlik açacağı haqda məlumat yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "14-cü Kanal İTV" xəbər saytında, həmçinin "TV 14" televiziya kanalında Azərbaycan İsraildə səfirlik açacağı haqda məlumat yerləşdirilib.
— 18 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə Amerika-İsrail xəbər saytı olan "Allisrael"də "30 illik əlaqələrdən sonra Azərbaycan, nəhayət, İranla artan gərginlik fonunda İsrail səfirliyinin açılmasını nəzərdən keçirir.
— 19 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ingilis dilli "Time News" xəbər saytında "İlk şiə ölkəsi: Azərbaycan səfirlik açdığını elan etdi..." ilə bağlı məlumat verilib.
— 19 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin çox dinlənilən ivrit dilli "Reşet Bet" radiosunda İsrail-Azərbaycan əlaqələri, Azərbaycanda yəhudilərə münasibət və İsraildə Azərbaycan Səfirliyinin açılması ilə bağlı məlumat verilib.
— 20 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin çox dinlənilən ivrit dilli "YNET" radiosunda İsrail-Azərbaycan əlaqələrinin tarixçəsi və İsraildə Azərbaycan səfirliyinin açılmasının önəmli olması ilə bağlı məlumat verilib.
— 20 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin "Yediot axronot" TV YNET studiosunda "Tarixi bir hadisə - İsraildə Azərbaycan

səfirliyinin açılması" başlığı ilə Azərbaycanın ölkə kimi əhəmiyyəti, təbiəti, ənənələri, Azərbaycanda tarix boyu yəhudi icmasına hörmətin bəslənilməsi ilə bağlı müsahibə YNET saytının ön səhifəsində canlı yayımla nümayiş etdirilib.

— 20 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin aparıcı dini icmasına məxsus səyahət saytında Azərbaycan haqqında məlumat yerləşdirilib.
— 20 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin rus dilli əhalisinin izlədiyi və yeganə rus dilli televiziyası olan "9-cu Kanal" ın "Günün hadisəsi" verlişində İsraildə Azərbaycan səfirliyinin açılması mövzusunda Roman Qureviçin şərhində yayımlanıb.
— 26 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ingilis dilli "Time News" xəbər saytında "Rəsmi: Azərbaycan ilk dəfə olaraq İsraildə səfirlik açacaq" haqda məlumat yerləşdirilib.
— 19 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "Israelnews247" xəbər saytında Azərbaycanla bağlı məlumat verilib.
— Noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "YES" xəbər saytında Azərbaycanla bağlı məlumat verilib.
— 29 noyabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin ivrit dilli "Makor rişon" dini xəbər saytı və qəzetində Azərbaycanın baş ravvinin müsahibəsi yerləşdirilib.
— 15 dekabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə Portuqaliyanın https://sicnoticias.pt/ xəbər saytında "İsrail və İran: SİC müxbirinin şahidi olduğu böyük hərbi manevrlər" sərlövhəli xüsusi reportaj yayımlanıb. Portuqal dilində yayımlanan eyniadlı telekanalın Yaxın Şərqdəki müxbiri Enrike Simermanın reportajında müstəqillik əldə ediləndən sonra ölkəmizin son 31 ildə sürətlə inkişaf etdiyi bildirilib, paytaxt Bakı böyük neft və qaz ehtiyatlarına malik olan müasir şəhər adlandırılıb. Azərbaycanda yaşayan əhalinin əksəriyyətinin qonşu İranda olduğu kimi şiə müsəlman olduğu, lakin dövlətimizin özünə dünyəvi yol müəyyənləşdirdiyi, bütün millətlərin Azərbaycanda multikulturalizm və tolerantlıq şəraitində yaşadığı vurğulanıb.
— ABŞ-ın Çapel-Hill şəhərindəki Şimali Karolina Universitetinin "The Daily Tar Heel" qəzetində "Sancar Mərkəzində Azərbaycanın Zəfər və Bayraq günlərinə həsr olunmuş tədbir keçirilib" sərlövhəli məqalə dərc olunub.
— 6 iyul tarixində ABŞ-ın geniş oxucu kütləsinə malik "Frontpage Magazine" jurnalı, həmçinin "The Jewish Press" qəzetində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun İsrailə səfərindən bəhs edən məqalələr dərc olunub.

— 27-30 noyabr tarixlərində Komitənin maliyyə dəstəyi və İsraildəki Azərbaycan diasporunun dəstəyi ilə xarici ölkələrdəki ispandilli kütləvi informasiya vasitələrində fəaliyyət göstərən bir qrup jurnalist Azərbaycana səfər edib.
— 14 dekabr tarixində Komitənin əlaqələndirmə dəstəyi ilə İsrailin "Luçşeye radio"sunun Youtube kanalı vasitəsilə yayımlanan canlı efirində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədovla Dağlıq Qarabağ ərazisində vəziyyətin gərginləşməsini müzakirə edilib.
— 15 dekabr tarixində Komitənin əlaqələndirmə dəstəyi ilə jurnalist Aleksandr Valdmanın "Valdman Line" Youtube kanalındakı "Neytral ərazi" verilişində Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti nəzdində fəaliyyət göstərən "Qadın Sülh və Təhlükəsizlik Mərkəzi"nin rəhbəri Dilarə Əfəndiyeva ilə "Sözün əsl mənasında Laçın dəhlizini kim bağlayır?" mövzusunda müzakirə aparılıb.
— 15 dekabr tarixində Komitənin maliyyə dəstəyi ilə Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekofəalların, könüllülərin və media mənsublarının Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası barədə həqiqətlərin Böyük Britaniya ictimaiyyətinə çatdırılması istiqamətində Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahova ölkənin baş naziri Rişi Sunaka, xarici işlər naziri Ceyms Kleverliyə, Ətraf mühit, ərzaq və kənd təsərrüfatı məsələləri üzrə dövlət katibi Tereza Koffiyə, Britaniya parlmentinin üzvləri Adam Afriyeyə, Penni Mordaunta və nüfuzlu beynəlxalq təşkilatlara müraciət edib.
— 16 dekabr tarixində Komitənin maliyyə dəstəyi ilə İsrailin "9 Kanal" televiziyasının "Günün hadisəsi" verlişində ekofəalların, könüllülərin və media mənsublarının Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası ilə bağlı Roman Qureviç fikir bildirib.
— 9-17 dekabr tarixlərində ABŞ-Azərbaycan Mədəniyyət Fondunun nümayəndə heyəti ölkəmizə səfər edib. Azərbaycanın mədəniyyətinin və tarixinin tanıdılması, ölkəmizlə bağlı sənədli filmin çəkilişlərin aparılması, İsrail, ABŞ və Azərbaycan münasibətlərinin təşviq edilməsi məqsədilə gerçəkləşdirilən səfər zamanı qonaqlar "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu, Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunu, "Atəşgah məbədi" Tarixi Memarlıq Qoruğunu, Qobustan Milli Tarix-Bədii Qoruğunu, Şabran Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər.
— 18 dekabr tarixində Amerika-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri Nurit Qringerin rəhbərlik etdiyi nümayəndə heyəti II Vətən müharibəsi qazisi Arif

Hacıyev ilə İsrailə yola düşüb. Qeyd edək ki, 44 günlük müharibədə gözünü itirmiş əsgər Azərbaycana səfər etmiş israilli həkimlər tərəfindən əməliyyat olunub və ona İsrail vətəndaşı donorluq edib.

— 21 dekabr tarixində Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekofəalların, könüllülərin və media mənsublarının Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası barədə həqiqətlərin Amerika ictimaiyyətinə çatdırılması istiqamətində Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının üzvləri UNESCO-nun Nyu-Yorkdakı nümayəndəliyinin rəhbəri Eliot Minchenberg və nüfuzlu beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar.
— 21 dekabr tarixində Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekofəalların, könüllülərin və media mənsublarının Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası barədə həqiqətlərin Amerika ictimaiyyətinə çatdırılması istiqamətində Amerika-Azərbaycan İnteqrasiya Mərkəzi UNESCO-nun Nyu-Yorkdakı nümayəndəliyinin rəhbəri Eliot Minchenberg, Texas ştatının konqresmeni Troy Nelsə müraciət ünvanlayıblar.
— 26 dekabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə “LaRazon” xəbər saytında “Azərbaycan qazı müqabilində İsrail pilotsuz təyyarələri: İranı qorxudan yeni regional ittifaq, Azərbaycan Dağlıq Qarabağ uğrunda son müharibədə İsrailin hərbi yardımı sayəsində Ermənistana qalib gəlib” adlı məqalə yerləşdirilib.
— 27 dekabr 2022-ci il tarixində Komitənin maliyyə dəstəyi ilə “Azərbaycan əsgəri Xudafərin körpüsünün İranla sərhəd-keçid məntəqəsini qoruyur” adlı məqalə yayımlanıb.
— 29 dekabr 2022-ci il tarixində Böyük Britaniya hökuməti Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahovanın Azərbaycan ərazisindəki ekosistemə Ermənistan tərəfindən ziyan vurulması ilə bağlı məktubunu cavablandırıb.

Xaricdəki soydaşlarımızın təşkilatlanması istiqamətində atılan addımlar

— Türkiyə Respublikasında rəsmi qeydiyyatdan keçmiş "Karabakh is Azerbaijan!" Milli Platformasının Türkiyə Koordinatorluğunun daxilində Komitə tərəfindən maliyyə dəstəyi ilə "Karabağ Azerbaycandır Koordine Etmə Dərnəyi" yaradılıb. Dərnəyin Türkiyə Respublikasının İstanbul şəhərində fəaliyyətinin cari ilin yanvar-dekabr ayları ərzində mütəşəkkil şəkildə davam etməsi üçün Komitə tərəfindən maliyyə dəstəyi göstərilib. Dərnəyin məqsədi Türkiyə Respublikasında platformanın üzvləri olan azərbaycanlı və türkiyəli gənclər tərəfindən Türkiyədə yaşayan azərbaycanlıların maariflənməsi, Azərbaycan həqiqətlərinin və mədəniyyətinin tanıdılması, həmçinin yayılması istiqamətində çoxşaxəli tədbirlər keçirilməsidir.

— Ukrayna Azərbaycanlıları Radasının (UAR) 12 fevral tarixdə keçirilməsi nəzərdə tutulan II qurultayı ilə bağlı təşkilati məsələlərin həll edilməsi, qurultaya hazırlıq işlərinin görülməsi ilə əlaqədar cari 22-26 iyun tarixlərdə Diasporla iş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları Ukraynanın Kiyev şəhərində işçi ezamiyyətdə olub. Səfər çərçivəsində UAR həmsədri, Kiyev Azərbaycanlıları Konqressinin (KAK) sədri Oleq Krapivin, UAR baş katibi Ceyhun Məmmədov və aparat rəhbəri Elşad İbrahimovla görüşlər keçirilib. UAR-ın idarəçiliyində və strukturunda dəyişiklik, təşkilatın tərkibinin genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb. Ukraynanın iri şəhərlərində fəaliyyət göstərən müstəqil diaspor təşkilatlarının (Odessa, Xarkov, Dnepr və sair) ayrı-ayrılıqda UAR ilə əməkdaşlıq memorandumunun imzalanması ilə bağlı fikir mübadiləsi aparılıb. Müzakirələrin nəticəsi olaraq UAR həmsədrlərinin dəyişikliklə bağlı razılığı əldə olunub. Səfər zamanı DİDK nümayəndə heyəti UAR-ın ofisində, təşkilatın hazırkı idarə heyətinin bir sıra üzvləri və yığıncağa xüsusi dəvət olunmuş Ukraynada fəaliyyət göstərən bir neçə regional təşkilatların rəhbərləri və ziyalılar ilə görüş keçirib. İştirakçıların hər biri sözügedən məsələlər ətrafında öz fikirlərini bildirərək ümumilikdə təklif olunan dəyişiklikləri bəyəniblər.

— Fevralın 12-də Ukraynanın paytaxtı Kiyevdə Ukrayna Azərbaycanlıları Radasının (UAR) növbəti - II Hesabat-seçki Qurultayı keçirilib. Qurultayda Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) nümayəndələri, Ukraynanın müxtəlif regionlarından gəlmiş 200 nəfərə yaxın təmsilçi, Ukraynanın dövlət rəsmiləri, deputatlar, jurnalistlər və digər qonaqlar iştirak edib. Çıxışlardan sonra Ukrayna Azərbaycanlıları Radasında təmsil olunmaq üçün müraciət edən 23 təşkilatla UAR arasında qarşılıqlı əməkdaşlığa dair Memorandum imzalanıb. Sonda səsvermə yolu

ilə təşkilatın Əsasnaməsinə edilən dəyişikliyə uyğun olaraq İdarə Heyətinin tərkibi genişləndirilib və yeni üzvlər seçilib. Daha sonra İH-nin üzvləri Ceyhun Məmmədovu UAR-ın icraçı direktoru seçib. Bundan başqa, təşkilatın tərkibində Ziyalılar, Gənclər və İş Adamları şuraları yaradılıb, onların üzvləri müəyyənləşdirilib. Bundan başqa, UAR-ın loqosunun dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürülüb və yekdilliklə qəbul olunub. Sonda UAR-ın II Qurultayının Bəyanatı oxunub və Qurultay iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul olunub.

— Ukrayna Azərbaycanlıları Radasının II Qurultayı incəsənət ustalarının iştirak etdiyi ziyafətlə yekunlaşıb. Qurultay yerli mediada geniş işıqlandırılıb. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— İtaliyanın Merano şəhərində fəaliyyət göstərən Azərbaycan diasporunun "ECN Mədəniyyət Assosiasiyası" adlı yeni təşkilatı dövlət qeydiyyatından keçib. Multikultural dəyərlərə malik olan Meranoda yaşayan soydaşımız Mehriban Ağayevanın təşəbbüsü ilə təsis olunan təşkilatda müxtəlif millətlərin nümayəndələri təmsil olunur.

— Vyana şəhərində fəaliyyət göstərən Azərbaycan Akademik Birliyinin təşəbbüsü və Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə Avstriyadakı Azərbaycan icması ilə görüş keçirilib. Yenidən təşkilatlanmadan sonra geniş tərkibdə baş tutan ilk toplantıda bildirilib ki, bu il yaradılmasından 20 il ötən birlik Azərbaycanın Avstriyada tanıdılması və iki ölkə arasında əlaqələrin inkişafı istiqamətində fəaliyyət göstərib. Pandemiya dövründə yaranan durğunluq səbəbindən təşkilatın yeni idarə heyəti seçilib, nizamnamədə fəaliyyət istiqamətləri genişləndirilib və müxtəlif sahələri əhatə edən tədbirlər planı hazırlanıb.

— Avstriyanın Zalsburq şəhərində fəaliyyət göstərən Avstriya Azərbaycanlıları Cəmiyyətinin sədri və Zalsburq Azərbaycan Evinin rəhbəri Fərid Əzizov Türkiyənin baş konsulu Günay Babadoğan Ertanla görüşüb. Türkiyənin Zalsburqdakı Baş konsulluğunda gerçəkləşən görüş zamanı Azərbaycan icmasının və Azərbaycan Evinin gördüyü işlər, həyata keçirdiyi layihələr barədə müfəssəl məlumat verilib, diasporlarımızın birgə fəaliyyət planları müzakirə edilib. Görüşün sonunda Baş konsula tanınmış fotoqraf Reza Deqatinin Azərbaycanı əks etdirən fotolarından ibarət kitabı və milli süvenirlərimiz təqdim edilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Brüssel şəhərində fəaliyyət göstərən Belçika Azərbaycan Evində bu ölkədə və Niderlandda yaşayan azərbaycanlılarla görüş keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Belçikadakı Səfirliyinin məsul nümayəndələrinin

qatıldıqları tədbirdə Belçika Azərbaycan Evinin fəaliyyət strategiyası və istiqamətləri müzakirə edilib, iş planı müəyyənləşdirilib, təşkilati məsələlər barədə fikir mübadiləsi aparılıb. Görüşdə çıxış edən DİDK sədrinin müavini Elşad Əliyev Komitənin həyata keçirdiyi layihələrdən, bu layihələr çərçivəsində xarici ölkələrdə açılmış Azərbaycan Evlərinin fəaliyyətindən, soydaşlarımızın bir araya gətirilməsi və yerli ictimaiyyət üçün maraqlı məkana çevrilməsinin əhəmiyyətindən danışıb, Avropanın siyasi mərkəzi hesab olunan Belçikadakı Azərbaycan Evində həm də Niderlandda yaşayan soydaşlarımızın müxtəlif tədbirlər və toplantılar keçirə biləcəklərini nəzərə çatdırıb. Sonda rəssam Rasim Hüseynovun rəsm əsəri və "Qarabağ" futbol klubunun geyimi Belçika Azərbaycan Evinə hədiyyə edilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Yunanıstanın Saloniki şəhərində fəaliyyət göstərən Azərbaycan Evində soydaşlarımızla görüş keçirilib. "QALA" Yunanlıstan-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan görüşdə Azərbaycan, Türkiyə, Pakistan və digər icmaların, yerli ictimaiyyətin nümayəndələri, iş adamları və Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər. Görüş zamanı soydaşlarımızın Salonikidə və Yunanıstanda fəaliyyət istiqamətləri, həyata keçirdikləri layihələr barədə ətraflı məlumat verilib. Azərbaycanda və dünyada baş verən proseslər, diasporumuzun fəaliyyətinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Niderlandın Haaqa şəhərində Avropada yaşayan Qərbi azərbaycanlıların toplantısı keçirilib. Niderland-Azərbaycan Türk Kültür Dərnəyində baş tutan tədbir Azərbaycan Milli Məclisinin deputatı, Qərbi Azərbaycan İcmasının (QAİ) sədri Əziz Ələkbərli və Azərbaycan Dillər Universitetinin dosenti, QAİ-nin beynəlxalq əlaqələr üzrə sədr müavini Həqiqət Hacıyevanın iştirakı ilə gerçəkləşdirilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli –inteqrasiya bölməsi ola bilər)

— Avstriyada yaşayan azərbaycanlı rəssam Yeganə Özkanın (Zamanova) Zalsburq şəhərində studiyası açılıb. Y.Özkan bildirib ki, emalatxana kimi fəaliyyət göstərəcək bu məkan həm də əsərlərinin sərgilənməsi məqsədilə istifadə olunacaq. Gələcəkdə isə studiyada digər rəssamların əsərləri də nümayiş ediləcək və Azərbaycandakı həmkarlarının işlərinin təqdimatları həyata keçiriləcək.

— Niderlandın Utrext şəhərində "Birlikdə Güclüyük" Fondunun idarə heyəti üzvlərinin Azərbaycan icmasının nümayəndələri ilə görüşü keçirilib. Görüş zamanı "Birlikdə Güclüyük" Fondunun həmsədri İlkanə Qoca 22-23 aprel 2022-ci ildə Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı haqqında ətraflı məlumat verib və təəssüratlarını bölüşüb. Mötəbər tədbirdə Azərbaycan Prezidenti

İlham Əliyevin çıxışındakı əsas məqamlar, soydaşlarımıza və diaspor təşkilatlarına tövsiyələri icma üzvlərinin nəzərinə çatdırılıb. Eyni zamanda fondun həmsədri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin mövcud vəziyyətinə, Şuşaya və Ağdama səfərlərinə, Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağda, o cümlədən Ağdamda kütləvi şəkildə basdırılan minalar probleminə diqqəti cəlb edib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradov İsveçrəyə səfəri çərçivəsində Sürix şəhərində fəaliyyət göstərən "Buta" rəqs dərnəyinin fəaliyyəti ilə tanış olub. Bildirilib ki, dərnək ötən ilin fevralında milli rəqslərimizin təbliği, xalqımızın mədəni irsini tanıtmaq və sevdirmək məqsədilə DİDK-in dəstəyi ilə "Azərbaycanın Dostları" təşkilatının nəzdində fəaliyyətə başlayıb. Qeyd olunub ki, yeni yaranmasına baxmayaraq, "Buta" rəqs dərnəyi artıq bir sıra uğurlara da imza atıb, 2021-ci ilin may ayında Azərbaycan Respublikasının Təhsil Nazirliyi və 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan Vətənimdir" adlı onlayn beynəlxalq rəqs müsabiqəsində I yerə layiq görülüb. İndiyədək dərnəyin şagirdlərinin ifasında Xocalı soyqırımının ildönümü və Novruz bayramı ilə əlaqədar xüsusi proqramlar da təqdim edilib. Komitə sədri dərnəyin üzvü olan uşaqlarla görüşərək, onların arzu və istəklərini dinləyib. Görüş zamanı gələcəkdə dərnəyin fəaliyyətinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

— Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradov İsveçrənin Sürix və Bazel şəhərlərindəki Azərbaycan icmasının fəal üzvləri ilə görüşüb. Görüş zamanı xarici ölkələrdə Azərbaycanın tarixi və mədəni irsinin təbliği, Azərbaycan dilinin inkişaf etdirilməsi və bu istiqamətdə həyata keçirilən layihələr barədə müzakirələr aparılıb. Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayında vurğuladığı kimi, xaricdə fəaliyyət göstərən həftəsonu Azərbaycan məktəblərinin inkişaf etdirilməsi diaspor təşkilatlarımız üçün prioritet məsələ olmalıdır. Bildirilib ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həmvətənlərimizin kompakt yaşadığı dünyanın 16 şəhərində Azərbaycan Evi açılıb, vətəndən uzaqda böyüməkdə olan gənc nəslə Azərbaycan dilinin tədris edilməsi, vətənpərvərlik hisslərinin aşılanması üçün həftəsonu məktəblərinin təşkilinə dəstək verilib. Görüş zamanı İsveçrədəki Azərbaycan diasporunun gələcək fəaliyyət istiqamətləri və planları müzakirə olunub, həftəsonu məktəblərində dərnəklərin sayının artırılması məsələsinə toxunulub. “Azərbaycanın Dostları” Birliyinin rəhbəri

Arzu Əliyeva Bodmer və valideynlər “Buta” rəqs dərnəyinin fəaliyyətini dəstəklədiyi üçün DİDK-ə minnətdarlıqlarını bildiriblər. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Haaqa şəhərində Qərbi Azərbaycanlılar İcmasının Avropa nümayəndəliyinin ilk toplantısı keçirilib. Niderland-Azərbaycan Türk Kültür Dərnəyinin qərargahında baş tutan toplantıda indiyədək görülən işlərdən və gələcək planlardan danışılıb. Nümayəndəliyin sədri Sima Cəfərova, Niderland-Azərbaycan Türk Kültür Dərnəyinin rəhbəri İlhan Aşkın, toplantıya videobağlantı vasitəsilə qatılan Azərbaycan Qaçqınlar Cəmiyyəti və Qərbi Azərbaycan İcmasının beynəlxalq əlaqələr üzrə sədr müavini, dosent Həqiqət Hacıyeva və İH üzvləri bu tədbirdə çıxış ediblər. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Belçikanın paytaxtı Brüssel şəhərində Avropa Azərbaycanlıları Konqresinin (AAK) VII Qurultayı keçirilib. Qurultayda Avropanın 27 ölkəsində on minlərlə azərbaycanlını öz ətrafında birləşdirən 11 Koordinasiya Şurasının, 50-dən artıq diaspor təşkilatının liderləri, elm, mədəniyyət, idman, media və biznes sahəsində çalışan diaspor üzvləri, Azərbaycanın Belçikadakı Səfirliyinin təmsilçiləri, Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədr müavinləri Vaqif Seyidbəyov və Elşad Əliyev iştirak ediblər. Qurultayda mövcud tələblərə uyğun olaraq yeni idarə formasının yaradılması ilə əlaqədar AAK-ın Nizamnaməsinə dəyişikliklər edilməsi barədə qərar qəbul edilib. Eyni zamanda diaspor təşkilatlarının fəaliyyətinin koordinasiya edilməsi və Avropada yaşayan azərbaycanlıların vahid mərkəzdən idarə olunması məqsədilə AAK-ın yeni strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilib. Səsvermə nəticəsində AAK İdarə Heyətinin yeni üzvləri seçilib.

— Belçikaya səfər çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsi (DİDK) əməkdaşlarının bu ölkədə yaşayan Azərbaycan icmasının üzvləri ilə görüşü keçirilib. Tədbirdə DİDK sədrinin müavinləri, Komitə əməkdaşları, ölkəmizin Belçikadakı Səfirliyinin nümayəndələri, Brüssel şəhərində və ətrafında yaşayan müəllimlər, valideynlər və övladları iştirak ediblər. Dünya Azərbaycanlılarının V Qurultayında müəyyənləşdirilən strategiya və yeni hədəflər, 4 iyun tarixində Brüsseldə keçirilən Avropa Azərbaycanlıları Konqresinin VII Qurultayında qəbul edilmiş qərarlar və Komitənin həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verilib.

— ABŞ-da fəaliyyət göstərən Azərbaycan-Amerika Tələbə Təşkilatı yüksək reytinqə malik olan Florida Beynəlxalq Universitetində təşkil edilən tələbə təşkilatlarının sərgisində ölkəmizi təmsil edib. Azərbaycan guşəsində ölkəmizin qədim və müasir memarlıq abidələrinin fotostendi qurulub, zəngin mədəniyyətimizi və adət-

ənənələrimizi əks etdirən suvenirlər nümayiş etdirilib. Azərbaycan-Amerika Tələbə Təşkilatının həmtəsisçisi, universitetin siyasi elmlər və beynəlxalq münasibətlər fakültəsinin tələbəsi Aydın Eminov guşəni ziyarət edən tələbələrə və xarici qonaqlara ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, milli adət-ənənələri, turizm potensialı, 2020-ci ilin payızında baş verən Vətən müharibəsinin səbəb və nəticələri barədə ətraflı məlumat verib.

— Azərbaycan Kaliforniya ştatının Santa Klara rayonunda yerləşən Mauntin Vyu (Mountain View) şəhərində keçirilən multikultural festivalda təmsil olunub. Şimali Kaliforniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Cəmiyyətinin (ACSNC) qatıldığı festivalda Ukrayna, Meksika, Türkiyə, Peru, İsrail və sair ölkələr iştirak ediblər. Cəmiyyətin təşkil etdiyi Azərbaycan güşəsində ölkəmiz haqqında məlumat posteri, qədim tariximizi, zəngin mədəniyyətimizi əks etdirən milli geyimlər, xalçalar, musiqi alətləri, suvenirlər, təamlar təqdim olunub. Soydaşlarımız guşənin önündə Azərbaycan rəqslərini, eləcə də birlik və həmrəylik rəmzi olan "Yallı" rəqsini nümayiş etdiriblər.

— ABŞ-ın Florida Dövlət Universitetində (FIU) keçirilən VII İllik Ümumdünya Sərgisində ölkəmiz təmsil olunub. Universitetdə fəaliyyət göstərən Azərbaycan-Amerika Gənclər Təşkilatının təşəbbüsü ilə yaradılmış Azərbaycan guşəsində ölkəmizin qədim tarixini və zəngin mədəniyyətini əks etdirən kitablar, xalçalar, suvenirlər, fotomateriallar və Azərbaycan brendləri nümayiş etdirilib. Florida Dövlət Universitetində təhsil alan milli geyimli azərbaycanlı tələbələr sərgi iştirakçılarına multikultural dəyərlərə malik olan ölkəmiz barədə ətraflı məlumat veriblər.

— Torontonun Natan Filips meydanında təşkil edilən 23 Aprel – Türkiyənin Milli Suverenlik və Uşaq Bayramı festivalında şəhər Təhsil Mərkəzinin Xarici Dillər bölməsinin Azərbaycan dili sinfinin şagirdləri də iştirak ediblər. Kanada Türk

Cəmiyyətinin keçirdiyi tədbirə azərbaycanlı şagirdlər sinfin baş müəllimi və rəhbəri Yeganə Cəfərovanın, köməkçi müəllimlər Gülnar Nəsirova və Aysel Dadaşovanın təşkilatçılığı ilə qatılıblar. Azərbaycan guşəsində ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, milli adət-ənənələrini əks etdirən kitablar, geyimlər və suvenirlər nümayiş etdirilib. Kanada Türk Cəmiyyəti fəal iştiraklarına görə Azərbaycan dili sinfinin müəllimlərini və şagirdlərini təşəkkürnamələrlə mükafatlandırıb.

— Nyu-York şəhərində keçirilən Türk Günü Yürüşündə ABŞ-da fəaliyyət göstərən Amerika Azərbaycanlıları Koordinasiya Şurası (AAKŞ) da təmsil olunub. AAKŞ üzvləri olan Azərbaycan-Amerika Qadın Cəmiyyəti, Nyu-York-Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə ölkəmizin bayraqları və cəmiyyətlərin bannerləri ilə bəzədilmiş xüsusi avtomobil Nyu-York şəhərinin Madison küçəsindən başlayan möhtəşəm karvanla birlikdə hərəkət edib. Azərbaycan musiqisinin sədaları altında irəliləyən avtomobil və soydaşlarımız meqapolisin küçələrindən və tribuna önündən keçiblər. Türk Günü Yürüşü ilk dəfə 1981-ci ildə ABŞ-da erməni terror təşkilatı ASALA tərəfindən türk diplomatlarının şəhid edilməsinə cavab olaraq təşkil edilib. Sonrakı illərdə ənənə halını alan Türk Günü Yürüşünün builki mövzusu "Aypara və Ulduzlu Yüzilliyə" olub.

— Şimali Karolina ştatının Roli şəhərində keçirilən beynəlxalq mədəniyyətlərarası festivalda ölkəmizi Azərbaycan Dostluq Təşkilatı təmsil edib. ABŞ-da yaşayan müxtəlif xalqların milli mədəniyyətlərinin, adət-ənənələrinin və mətbəxlərinin təbliği məqsədilə təşkil edilən festivalda 26 ölkənin nümayəndələri iştirak edib. Azərbaycan Dostluq Təşkilatının rəhbəri, Amerika Azərbaycanlıları Koordinasiya Şurasının üzvü Adika İqbal və digər icma fəallarımız yerli sakinlərə və qonaqlara ölkəmizin mədəniyyəti və mətbəxi barədə ətraflı məlumat verib. Amerikalılarda böyük rəğbət doğuran Azərbaycan guşəsində ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, turizm potensialı və Azərbaycan mətbəxinin ləziz təamları ilə yaşayışı mətbəximizə dair ingilis dilində kitablar, suvenirlər də nümayiş etdirilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avstraliya İttifaqı və Yeni Zelandiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının iştirakı ilə onlayn formatda görüş keçirilib. DİDK-in sədr müavini Elşad Əliyevin moderatorluğu ilə baş tutan görüşdə bu qitədə yaşayan soydaşlarımız və həmvətənlərimiz, Avstraliyada fəaliyyət göstərən Avstraliya Azərbaycanlılarının Mədəniyyət Assosiasiyasının, Avstraliya Azərbaycanlıları Assosiasiyasının, Kuizlənd Azərbaycanlıları Cəmiyyətinin, Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyasının, Yeni Zelandiyadan isə "Azəri" Yeni Zelandiya-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərləri və fəal üzvləri iştirak ediblər. Sözügedən ölkələrdə məskunlaşan və fəaliyyət göstərən azərbaycanlılarının birliyinin, həmrəyliyinin gücləndirilməsinin və milli-mənəvi dəyərlərin qorunub saxlanılması məqsədilə Avstraliya və Okeaniya ölkələri üzrə Koordinasiya Şurasının təsis olunması və həftəsonu Azərbaycan məktəbin açılması müzakirə edilib. Diaspor nümayəndələri Avstraliyada Azərbaycan Evinin açılması təklifini irəli sürüblər.

— Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Daşkənd vilayəti üzrə Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin sədri Qalib Müslümovla görüş keçirilib. Görüş zamanı milli mədəniyyətimizin Özbəkistanda tanıdılması istiqamətində əməkdaşlıq məsələləri və gələcək planlar barədə fikir mübadiləsi aparılıb. Mərkəzi ofisi Nurafşan şəhərinə köçürülən Daşkənd vilayəti üzrə Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinə qədim tariximizin və zəngin mədəniyyətimizin təbliği üçün əyani vəsaitlər və kitab kolleksiyası hədiyyə edilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Dmanisi rayonunda fəaliyyət göstərən “Cəmiyyətin və Təhsilin İnkişafı" təşkilatı tərəfindən həyata keçirilən “Dmanisinin İnkişafı” adlı layihə başlayıb. Cari ilin iyun ayının 10-da Komitənin əməkdaşı kursları müvəffəqiyyətlə bitirmiş 50-dək yeniyetmə və gəncə sertifikatların təqdim olunması tədbirində iştirak edib. Tədbirdə rayonun icra və təhsil strukturlarının rəhbər şəxsləri çıxış edib, layihənin əhəmiyyətini vurğulayıblar.

— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və “Vətəndaş-Cəmiyyətin Təhsili və İnkişafı üçün Vətəndaş Birliyi” nin təşkilatşılığı ilə 3 ay müddətində davam edən “Kvemo Kartlidə azərbaycanlı icmasının - müəllimlər və məktəb direktorlarının peşə qabiliyyətinin artırılması” adlı layihə başa çatıb.

Layihə çərçivəsində "peşə bacarığı" imtahanına hazırlanma üzrə kurslarda iştirak edən müəllimlərə sertifikatlar təqdim olunub.

— Diasporla İş üzrə Dövlət Komitəsinin V Ərazi şöbəsinin müdiri V.Məmmədov Gürcüstan Azərbaycanlıları İş Adamları Birliyinin (AZEBİ) idarə heyətinin sədri Nəriman Qurbanov və Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin müşaviri Sərxan İsmayılov ilə birlikdə "Alyans" Gənclər Mərkəzində kurslara qatılan 60 tələbəyə sertifikatların təqdim olunması tədbirində iştirak edib. Mərkəzdə dərslərə qatılan tələbələr Azərbaycan, gürcü dilində şerlər səsləndirib, rəsm əsərlərini, xalça toxunuşlarını nümayiş etdiriblər. V.Məmmədov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri cənab Fuad Muradovun salamlarını tədbir iştirakçılarına çatdırıb, Komitənin fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayında müəyyənləşdirdiyi strategiya barədə məlumat verib.

— İyunun 8-də Özbəkistanın Daşkənd vilayətindəki Nurovşan şəhərində fəaliyyət göstərən Azərbaycan diasporunun "Dostluq Evi"nin açılış mərasimi keçirilib. Daşkənd vilayəti Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı, Özbəkistandakı Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin və Azərbaycanın bu ölkədəki səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə baş tutan tədbirdə yerli ictimaiyyətin nümayəndələri və soydaşlarımız iştirak ediblər. Mərkəzin ofisinin yerləşdiyi "Dostluq Evi"ndə Azərbaycan dili, rəsm, şahmat üzrə dərnəklər də fəaliyyət göstərəcək.

— Gürcüstanın Dmanisi rayonunda "Cəmiyyətin və Təhsilin İnkişafı" təşkilatı Dmanisi meriyası ilə birgə tədbir keçirib. Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradovun salamlarını tədbir iştirakçılarına çatdıran DİDK-nın şöbə müdiri Vüsal Məmmədov qurumun dəstəyi ilə həyata keçirilən layihələr barədə ətraflı məlumat verib, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında dərin məzmunlu çıxışındakı tövsiyələrini iştirakçıların diqqətinə çatdırıb. Azərbaycanlı gənclərin gürcü dilində, gürcü gənclərin isə Azərbaycan dilində çıxışları tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb. Sonra layihəyə qatılmış 50-dək yeniyetmə və gəncə sertifikatlar təqdim edilib. Tədbirin sonunda layihə rəhbəri Kamran Xıdırov tərəfindən komitəyə və səfirliyə xatirə hədiyyələri təqdim edilib. DİDK adından isə Dmanisi meriyasına və Dmanisi Resurs Mərkəzinə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin gürcü dilinə tərcümə olunmuş kitabları hədiyyə olunub. Qeyd edək ki, tədbirdə ölkəmizin

Gürcüstandakı Səfirliyinin müşaviri Sərxan İsmayılov, Dmanisi merinin müavinləri və Dmanisi Resurs Mərkəzinin rəhbəri iştirak ediblər. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Fuad Muradovun Moldova Azərbaycanlıları Konqresinin (MAK) rəhbəri Elçin Bayramovla görüşü keçirilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Rusiya Federasiyasının Stavropol diyarının Pyatiqorsk şəhərində Rusiya və Azərbaycan arasındakı diplomatik münasibətlərin 30 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. "Araz" Pyatiqorsk Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə təşkilatın İdarə Heyətinin üzvləri, Rusiyanın digər bölgələrindən olan Azərbaycan icmalarının rəhbərləri, Pyatiqorsk və Kislovodsk şəhərindəki diaspor fəlları iştirak ediblər. Tədbir iştirakçıları öncə görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin S.M.Kirov adına sanatoriyadakı xatirə lövhəsini ziyarət ediblər. Ulu öndərin əziz xatirəsi ehtiramla yad edilib və lövhənin önünə gül dəstələri düzülüb. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının ofisində Rusiya paytaxtında yaşayan fəal azərbaycanlı xanımlarla görüş keçirilib. "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının sədri Bəxtiyar Həsənov elm, təhsil, mədəniyyət və digər sahələrdə uğurlu fəaliyyət göstərdiklərinə və diaspor həyatında fəal iştirak etdiklərinə görə qadınlarımıza dərin minnətdarlığını bildirib, azərbaycanlıların həmrəyliyi istiqamətində təşkilatın konsepsiyası və onun reallaşdırılması yolları barədə ətraflı məlumat verib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının sədri Bəxtiyar Həsənov və sədr müavini Həşim Əliyevlə görüşüb. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Rusiyanın Həştərxan şəhərində "Azərbaycan" milli mədəniyyət regional ictimai təşkilatının yaradılmasının 20 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə Həştərxan vilayət Dumasının sədri İqor Martınov, vilayətin qubernatoru yanında Daxili Siyasət İdarəsi rəisinin birinci müavini Andrey Sızranov, Həştərxan vilayətinin mədəniyyət və turizm nazirinin müavini Qalina Zoteyeva, Həştərxan şəhər bələdiyyəsinin rəhbəri Oleq Polumordvinov, şəhər Dumasının sədri İqor Sedov, Xəzər Dəniz və Çay Nəqliyyatı İnstitutunun direktoru Olqa Kartaşova və

müxtəlif icmaların rəhbərləri iştirak ediblər. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Sentyabrın 26-sı Finlandiyanın paytaxtı Helsinkidə Azərbaycan Evinin açılış mərasimi keçirilib. Mərasimdə Diasporla İş üzrə Dövlət Komitəsinin, Finlandiyadakı diplomatik korpusun, Azərbaycan diasporunun, yerli ictimaiyyətin və müxtəlif icmaların nümayəndələri iştirak ediblər.

— 28 noyabrda Fransanın paytaxtı Paris şəhərində yerləşən Azərbaycanın Mədəniyyət Mərkəzinin nəzdində "Natəvan" Azərbaycan həftəsonu məktəbi yenidən fəaliyyətə başlayıb.

— 28 noyabrda Finlandiyanın paytaxtı Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evində Espoo şəhərinin miqrasiya xidmətinin əməkdaşları ilə görüş keçirilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— 16 dekabrda Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının növbəti toplantısı keçirilib.Sonra Koordinasiya Şurasının əlaqələndiricilərinin seçkisi keçirilib. Səsvermə nəticəsində Elxan Mirhəşimli növbəti mərhələdə Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi seçilib.

— Britaniya Azərbaycanlılarının Koordinasiya Şurası Kraliça II Yelizavetanın 8 sentyabr 2022-ci il tarixində vəfatı ilə əlaqədar Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza və Baş nazir Liz Trassa başsağlığı məktubu göndərib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— 25 iyul Diasporla Iş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov qarışıq döyüş sənəti (MMA) üzrə peşəkar döyüşçü, yüngül çəkidə "AMC Fight Nights" çempionu Nəriman Abbasovla görüşüb. Qonağı salamlayan Komitə sədri bu ilin iyun ayında çempionluq titulu uğrunda Moskvada keçirilən "AMC Fight Nights"da növbəti parlaq qələbə qazanması münasibətilə Nəriman Abbasovu təbrik edib.

— 28 avqust tarixində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ABŞ-da yaşayan azərbaycanlı idmançılar Nazim Sadıxov və Elgün Xanoğlanlı ilə görüşüb. Elgün Xanoğlanlının yarışlarda iştirakı ilə bağlı məşqlərə intensiv hazırlığına Komitə tərəfindən maliyyə dəstəyi göstərilib.

— 11 sentyabr tarixində ABŞ-dakı İndiana Universitetinin Ceykobs musiqi məktəbində Ford-Krouford zalında Azərbaycan əsilli amerikalı musiqişünas, pedaqoq, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aida Hüseynovanın xatirəsinə həsr olunmuş konsert keçirilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— 7 sentyabr tarixində Komitənin maliyyə dəstəyi ilə Azərbaycanda səfərdə olan Amerika-Azərbaycan Cəmiyyətinin (ASA) rəhbəri Tomris Azerinin başçılıq etdiyi

nümayəndə heyəti Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ilə görüşüb. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— 30 sentyabr tarixində ABŞ-da fəaliyyət göstərən azərbaycanlı jurnalist Vüsalə Abbasova Birləşmiş Millətlər Təşkilatının (BMT) Reham əl-Farra memorial jurnalistika təqaüdü proqramına seçilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli –inteqrasiya bölməsi ola bilər)

— 19 oktyabr tarixində ABŞ-ın Kaliforniya ştatında fəaliyyət göstərən Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzində ABŞ Nümayəndələr Palatasına keçiriləcək 8 noyabr 2022-ci il tarixli seçkilərlə bağlı maarifləndirici seminar keçirilib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli –inteqrasiya bölməsi ola bilər)

— 30 oktyabr tarixində Amerika-Azərbaycan Cəmiyyəti (ASA) 2022-ci il üzrə payız semestrinin təqaüd proqramının qaliblərini elan edib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— 2 noyabr tarixində ABŞ-ın Nyu-York şəhərində yaşayan yeniyetmə müğənni Elana Keniq Nyu-York Mets oyunları çərçivəsində stadiondakı səhnəyə parlaq Zəfərimizin rəmzi olan “Xarı bülbül” kulonlu boyunbağı ilə çıxıb. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli –inteqrasiya bölməsi ola bilər)

— 14 avqust 2022-ci il tarixdə ABŞ-ın Texas ştatında təşkil edilmiş qaydasız döyüş üzrə UFC Fight Pass yarışlarında orta çəkidə çempionluq kəməri uğrunda döyüşdə iştirak edən Şimali Kaliforniya Azərbaycan Mədəniyyət mərkəzinin üzvü, qaydasız döyüş növü üzrə dəfələrə yarışların qalibi Hüseyn Əliyev ABŞ dan olan idmançı Neyt Riçardsona qalib gələrək növbəti mərhələyə yüksəlib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

Gənclərin diaspor fəaliyyətinə cəlb edilməsi

— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Çexiyanın Brno şəhərində yaşayan və təhsil alan azərbaycanlı gənclərin 2 fevral - Gənclər Günü münasibətilə görüşü təşkil olunub. Tədbirdə Gənclər Gününün əhəmiyyətindən, Azərbaycan gəncliyinin ölkəmizin ictimai-siyasi, humanitar sahələrində və diaspor quruculuğunda öynadığı müstəsna xidmətlərdən danışılıb.
— Xaricdə yaşayan fəal diaspor gənclərinin Azərbaycan televiziyalarında dəfələrlə iştirakı təmin edilib.
— "Azərbaycanın xarici mediada müsbət imicinin formalaşdırılması" mövzusu üzrə araşdırmalar aparan bir qrup ADA tələbəsinin BƏGŞ-ə təqdim etdiyi əlaqədar suallar ingiliscə cavablandırılıb.
— Diaspor gəncləri ilə ZOOM platforması üzərindən görüşlər və müzakirələr təşkil edilib.
— Ukrayna Azərbaycanlıları Radasının II - Hesabat-Seçki Qurultayından sonra təşkilatın ofisində gənc diaspor fəalları ilə görüşdə geniş müzakirə aparılıb. Əksəriyyəti Ukraynada doğulub böyüyən, ölkənin müxtəlif ali məktəblərində təhsil alan, yerli cəmiyyətə inteqrasiya olunmuş gənc oğlan və qızların iştirak etdiyi görüşdə mövcud problemlər, gələcək fəaliyyət planlarına dair fikir mübadiləsi aparılıb. Müzakirələrin sonunda Ukrayna Azərbaycanlı Gənclər Radasının rəhbəri Vaqif Nağıyev Ukrayna Azərbaycanlıları Radası ilə əməkdaşlıq haqqında memorandum imzalayıb. Digər təşkilatların təmsilçiləri də yaxın vaxtlarda birgə fəaliyyətə dair müvafiq razılıq əldə edəcəklərini bildiriblər.
— Finlandiyanın https://www.espoo.fi xəbər saytında bu ölkənin Espoo şəhərində yaşayan gənc soydaşımız Aylin Cabbarovaya həsr olunmuş məqalə dərc olunub. Elli Perttilyanın qələmə aldığı "Məktəb xorundan səsini yazdıran artistliyədək – Aylinin hekayəsi" sərlövhəli məqalədə soydaşımızın peşəkar musiqiçi olmaq arzusundan, 8 yaşında öz dostları ilə birlikdə musiqi qrupu yaratmasından, 12 yaşında olarkən "Səs uşaqlar" ("The Voice Kids") beynəlxalq musiqi müsabiqəsində uğurlu iştirakından, 2021-ci ildə Aylinin səsyazma şirkəti ilə müqavilə imzalamasından, onun məktəb məzunlarına həsr etdiyi "Kun Etikseen sä astut" ("Siz içəri girəndə") adlı mahnının populyarlıq qazanmasından bəhs edilib. Aylinin ifasında həmin mahnının videosunu https://youtu.be/HUd0xBJuk1Q linki vasitəsilə izləmək olar. Qeyd edək ki, 19 yaşlı Aylin Cabbarova Azər-Türk gənclər təşkilatının fəal üzvü, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlan\pdiya üzrə əlaqələndiricisi, Azər-Türk gənclər təşkilatının sədri Ülviyyə

Cabbarovanın övladıdır. (https://www.espoo.fi/fi/uutiset/2022/02/koulun-kuorosta-levyttavaksi-artistiksi-aylinin-tarina)

— ABŞ-ın Pensilvaniya ştatının Mexaniksburq (Mechanicsburg) şəhərində yaşayan gənc soydaşımız Ayxan Kərimov "Cumberland Valley" orta məktəbinin 12-ci sinfini bitirib və artıq Pensilvaniyanın Blumsburq Universitetinə (Bloomsburg University) daxil olub.

— Bursada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) II Diaspora Forumu çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Azərbaycan diaspor təşkilatlarının təmsilçiləri ilə görüşü keçirilib. Görüş zamanı dövlətimizin diaspor siyasəti, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişləri və tapşırıqları əsasında diaspor quruculuğu sahəsində həyata keçirilən fəaliyyət istiqamətlərinin və layihələrin əhəmiyyəti, vətəndaşlarımızın və soydaşlarımızın yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiyası, Azərbaycan həqiqətlərinin təbliğ olunması yönündə fəallığı və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb, problemlər və çətinliklər dinlənilib, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi yollarına dair təkliflər müzakirə edilib. Diaspor sahəsində fəal iştiraklarına görə Lətifə Nağdəliyevaya və Adil Alisoya Diasporla İş üzrə Dövlət Komitəsinin təşəkkürnaməsi təqdim edilib.

— Nyu-York şəhərindəki Türk Evində "Türk dünyasının yəhudi icmaları: keçmişdən gələcəyə dəyərlərin qorunaraq çatdırılması" adlı tədbir keçirilib. Türkiyənin Nyu-Yorkdakı Baş Konsulluğunun və Amerika-Azərbaycan Cəmiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə Buxara, Qafqaz, Səfərad və Aşkenazi yəhudilərinin nümayəndələri iştirak ediblər. Müsəlman və yəhudilərin ümumi dəyərləri, tarixi bağları və müasir dünyadakı əlaqələri haqqında açılış nitqi ilə çıxış

edən Amerika-Azərbaycan Cəmiyyətinin rəhbəri Tomris Azəri Türkiyə, Azərbaycan, Özbəkistan və Qazaxıstanda məskunlaşan yəhudi icması üzvlərinin əsrlərdir sülh və əmin-amanlıq, tolerantlıq şəraitində yaşadıqlarını, yerli xalqlarla birgə əməkdaşlığını xüsusi vurğulayıb. Türkiyənin Nyu-Yorkdakı Baş konsulu Reyhan Özgür müxtəlif dinlərdən olan qədim xalqların əsrlər boyu türk dünyası ərazilərində birgə yaşayışından danışıb.

— Martın 28-də Dövlət Komitəsinin nümayəndə heyəti 2022-ci il üzrə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunmuş Bursa şəhərində Türk Dövlətləri Təşkilatının II Diaspor Forumunda iştirak edib. Tədbirdə Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin rəhbəri (YTB) Baş İdarəsinin rəhbəri Abdullah Eren, Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaş, Bursa valisi Yakup Canpolat, Türk Dövlətləri Təşkilatının Baş Katibi Bağdat Amreyev, Türkiyənin Mədəniyyət və Turizm Nazirinin müavini Serdar Çam, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım çıxış ediblər. "TDT-yə üzvü olan ölkələrin diasporlarının mövcud vəziyyəti və gələcək perspektivləri" mövzusuna həsr olunmuş panel iclasında YTB sədri Abdullah Eren, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Qazaxıstanın "Vətəndaşlar" Fondunun vitse-prezidenti Magauiya Sarbassov, Qırğızıstan Xarici İşlər Nazirliyinin Məcburi Miqrasiya üzrə Departamentinin direktoru Taştanbek Kayimazarov, Özbəkistan Nazirlər Kabineti nəzdində Millətlərarası Əlaqələr və Xarici Ölkələrlə Dostluq Komitəsinin sədri Rustambek Kurbanov çıxış ediblər. Forumun akademik sessiyası "TDT-yə üzv olan ölkələrin diasporlarının tarixi prosesi", QHT-lər sessiyası "Diasporda QHT-lərin bacarıqlarının artırılması – çağırışlar" mövzularına həsr edilib. Martın 29-da isə "Diaspor İnstitusional Təcrübə Mübadiləsi Proqramı" təşkil edilib. Bu istiqamətdə aparılan panel müzakirələri

türk dünyasının elm xadimləri və QHT nümayəndələrinin iştirakı ilə davam edib.

— Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Türk Dövlətləri Təşkilatının (TDT) Bursada təşkil olunan II Diaspor Forumu çərçivəsində bir sıra görüşlər keçirib. Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin (YTB) rəhbəri Abdullah Eren, Qırğızıstan Xarici İşlər Nazirliyinin Məcburi Miqrasiya üzrə Departamentinin direktoru Taştanbek Kayimazarov və Özbəkistan Nazirlər Kabineti nəzdində Millətlərarası Əlaqələr və Xarici Ölkələrlə Dostluq Komitəsinin sədri Rustambek Kurbanov ilə keçirilən görüşlərdə Komitə sədri Azərbaycanın diaspor siyasəti, Vətən müharibəsi dövründə diasporun fəaliyyəti, son illər həyata keçirilən layihələr haqqında ətraflı məlumat verib, Şuşa Bəyannaməsinin tələbləri, eləcə də birgə fəaliyyət planları barədə danışıb. Görüşlərdə türk dövlətləri diaspor təşkilatlarının təcrübə mübadiləsi, yeni platformalar üzərindən ortaq layihələrin reallaşdırılması imkanları barədə geniş müzakirə aparılıb, əlaqələrin davamlı inkişaf edəcəyinə əminlik ifadə olunub.

Cari istiqamətlər

— Meksikada yaşayan diaspor nümayəndəsi Sevda Verdiyeva UNESCO-nun Meksika ofisinə, Kosta Rikada yaşayan diaspor nümayəndəsi Solmaz Rəhimova isə Kosta Rika ofisinə müraciət ünvanlayıb.
— Monreal Kanada-Azərbaycan Cəmiyyətinin sədri Rəna Müslümova UNESCO-ya, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Şimali Amerika ofisinə, eləcə də Ümumdünya İrs Şəhərləri Təşkilatına (OWHC) müraciət ünvanlayıb.
— "Qarabağ" Azərbaycan dili məktəbinin rəhbəri Vüsalə Əhmədova UNESCO-ya, Çili Respublikasında yaşayan diaspor nümayəndəsi Şəhriyar Nəsirov isə UNESCO-nun Çili ofisinə müraciət ünvanlayıb.
— Torontodakı Azərbaycan dili sinfinin müəllimi Yeganə Cəfərova və Kvebek Azərbaycanlıları Assosiasiyasının sədri Məsud Əliyev BMT-nin Ətraf Mühit Proqramı (UNEP) Şimali Amerika ofisinə müraciət ünvanlayıb.
— Tobaqo və Trinidad Respublikasında yaşayan diaspor nümayəndəsi Emiliya Əhmədova "Amnesty International" və "Human Rights Watch" beynəlxalq qurumlarına müraciət ünvanlayıb.
— Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin rəhbəri, bəstəkar Nərgiz Əliyarova UNESCO-nun Nyu York ofisinə müraciət ünvanlayıb.
— Amerika Azərbaycanlıları Tibb Asosiasiyasının təsisçisi, həkim cərrah Rauf Şahbazov BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Nyu-York ofisinə müraciət ünvanlayıb.
— ABŞ AKŞ üzvü Münəvvər Vahabova Nyu-Cersi senatoru Bob Menendezə müraciət ünvanlayıb.
— ABŞ AKŞ üzvü Münəvvər Vahabova Nümayəndələr Palatasının üzvü Alexandria Ocasio-Cortez-ə və Nyu-York şəhər meriyasının ofisinə müraciət ünvanlayıb.
— Azərbaycan Amerika Mədəniyyət Assosiasiyası rəhbəri Töhfə Eminova Hallandale Beach şəhərinin meri Joy Cooper-ə və Aventura şəhərinin meri Enid Weisman-a müraciət ünvanlayıb.
— Azərbaycan – Nyu-York Assosiasiyasının üzvü Mehriban Nəsib Konqres nümayəndələrinə müraciət ünvanlayıb.
— Amerika Azərbaycanlıları Koordinasiya Şurası rəhbəri Samir Novruzov Ağ Evə və Texasın qubernatoru Greg Abbott-a müraciət ünvanlayıb.
— Türkiyənin Eskişehir şəhərində ilk dəfə olaraq "sosial və akademik standup" (SAS) layihəsinin təqdimatı keçirilib. Eskişehir Azərbaycanlılar Dərnəyinin (EAD) layihə

komandasının təşəbbüsü və təşkilatçılığı ilə gerçəkləşdirilən layihə akademik biliklərin yumor vasitəsilə izləyicilərə çatdırılması, gənclərə səhnə mədəniyyətinin, nitq qabiliyyətinin və ictimaiyyət qarşısında çıxış etmək bacarığının aşılanması məqsədinə xidmət edir. 100-dən çox izləyicinin qatıldığı tədbirdə 5 gənc çıxış edib. "Standup"çılar uğurlu təqdimatlarına görə "SAS" layihəsinin sertifikatları ilə təltif ediliblər.

— Türkiyədə səfərdə olan azərbaycanlı gənc müəllimlər Bursa şəhərinin nüfuzlu məktəblərində təlim proqramına qatılıblar. "Türkiyə-Azərbaycan Müəllimlərinin I Təhsil Zirvəsi" layihəsi çərçivəsində baş tutan proqram Bursa Böyükşəhər Bələdiyyəsinin dəstəyi, Bursa Azərbaycan Həmrəylik və İnnovasiya Dərnəyi, Uludağ Universiteti Azərbaycan Mədəniyyət və İncəsənət Birliyi, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının birgə təşkilatçılığı ilə gerçəkləşdirilib. Eyni zamanda gənc müəllimlər Bursa Uludağ Universitetində müəllim və tələbələrin iştirakı ilə təşkil edilən "Azərbaycan-Türkiyə təhsil sistemində yeni trendlər" mövzusunda tədbirdə iştirak ediblər. Tədbirdə Azərbaycan və Türkiyə təhsil sistemindəki bənzər və fərqli metodlar haqqında fikir mübadiləsi aparılıb. Səfər çərşivəsində soydaşlarımız Bursanın rəsmi şəxsləri ilə görüşüb və bu şəhərdə müalicə alan Vətən müharibəsi qazilərini ziyarət ediblər.

— Bursaya səfər çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Bursada müalicə olunan 14 nəfər Vətən müharibəsi qazisi ilə görüşüb. Qazilərə ən qısa zamanda sağlamlıqlarına qovuşmaları arzulanıb, Vətən uğrunda müqəddəs və şərəfli xidmətlərinə görə bir daha hər birinə təşəkkür edilib.

— Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Gürcüstanın Tbilisi şəhərində "Qanun" Hüquqi Yardım Mərkəzi fəaliyyətə başlayıb. Layihə çərçivəsində hüquqi problemlərlə qarşılaşan soydaşlarımız mərkəzə müraciət edərək, təmənnasız hüquqi yardım almaq imkanına malikdir. Mərkəzin ofisi Tbilisinin Kazbeqi küçəsi-44 ünvanında yerləşir.

— "Ağa Musa Nağıyev adına Milli Dəyərlərin Qorunması" İctimai Birliyin sədri Dilarə Nağıyeva tərəfindən neftin banisi Ağa Musa Nağıyevin ömür yolu və fəaliyyəti mövzusunda olan və Azərbaycan Respublikasının möhtərəm Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin II Qarabağ müharibəsində qələbəsinə və şəhidlərin ruhuna ithaf etdiyi "Hər Tamaşa isə Bir Ömür" adlı kitabın ilk təqdimat mərasimi Komitənin inzibati binasında baş tutub.

— Beynəlxalq Əlaqələr və gənclərlə iş şöbəsinin baş məsləhətçisi Nyu-York şəhərində keçirilən ilk Beynəlxalq Miqrasiya İcmalı Forumuna həsr edilmiş "Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakt" habelə ölkəmizin qoşulduğu BMT-

nin Miqrasiya Şəbəkəsinin “Çempion ölkələr” təşəbbüsü ilə bağlı məlumatlılığın artırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən virtual formatda çıxışçı və dinləyici qismində iştirak edib.

— Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən təşkil olunan “Azərbaycanda pul köçürmələrinin sosial-iqtisadi təsirlərinin yaxşılaşdırılması” adlı layihədə bir sıra ölkələrdəki Azərbaycanın diaspor nümayəndəlikləri İşçi Qrupuna müşahidəçi qismində cəlb olunub.

— İşğaldan azad olunmuş ərazilərdə mövcud su, minaların yaratdığı ekoloji və humanitar məsələləri üzrə iki yazılı bəyanat Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası (ECOSOC) yanında əsas məşvərətçi statusuna malik olan və Cenevrədə yerləşən təşkilatlar vasitəsilə BMT-nin Nyu-Yorkda keçiriləcək Davamlı inkişaf üzrə Yüksək səviyyəli Siyasi Forumuna təqdim olunub.

— Cenevrədə yerləşən Davamlı İnkişaf Məqsədləri üzrə Gənclər Parlamentinin (Youth Parliament for SDG) sədri Asmita Baidya tərəfindən BMT-nin 49-cu İnsan Haqları Şurasının ümumi müzakirələr sessiyasında Azərbaycanda mövcud olan məcburi köçkün və qaçqın məsələləri gündəmə gətirilib və məsələ üzrə təqdim olunan bəyanat beynəlxalq qurum tərəfindən qəbul olunub.

— Cenevrədə yerləşən Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitutun (Global İnstitute for Water, Environment and Health GIWEH) direktoru Nidal Salim tərəfindən BMT-nin 49-cu İnsan Haqları Şurasının ümumi müzakirələr sessiyasında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində suların çirkləndirilməsinə dair məsələlərin gündəmə gətirilib və məsələ üzrə təqdim olunan bəyanat beynəlxalq qurum tərəfindən qəbul olunub.

— Cenevrədə yerləşən Hüquq və İnkişaf üzrə Beynəlxalq İnstitutun (İnternational İnstitute for Rights and Dvelopment-Geneva, İRDG) katibi Riçard Belliti tərəfindən BMT-nin 49-cu İnsan Haqları Şurasının ümumi müzakirələr sessiyasında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minaların yaratdığı ekoloji və humanitar problemlər gündəmə gətirilib və məsələ üzrə təqdim olunan bəyanat beynəlxalq qurum tərəfindən qəbul olunub. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— Cenevrədə yerləşən Davamlı İnkişaf Məqsədləri üzrə Gənclər Parlamenti (Youth Parliament for SDG) tərəfindən beynəlxalq platformada otuz il ərzində erməni rejimi tərəfindən Azərbaycanın mədəni və tarixi izini silmək məqsədilə törədilmiş vandalizm və barbarlıq üzrə BMT-nin 50-ci İnsan Haqları Şurasının ümumi müzakirələr sessiyasına bəyannamə təqdim olunub.(dəqiqləşdirilməli)

— Beynəlxalq Hüquq və İnkişaf İnstitutu (İRDG) tərəfindən Cenevrə Mətbuat Klubunda (Swiss Press Club) Beynəlxalq Mina Xəbərdarlığı Gününə həsr olunmuş "Azərbaycanda minaların zərərləşdirilməsinə aparan yol: beynəlxalq çağırış" mövzusunda mətbuat konfransı təşkil olunub. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)
— Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) birgə təşkilatçılığı ilə "Humanitar məqsədlərlə minasızlaşdırma və DİM-ləri" üzrə konfransda, AZIZ tərəfindən Musiqi akademiyasında təşkil edilmiş tədbirdə, Gənclərin Respublika Bədii Yaradıcılıq Evi tərəfindən təşkil olunan tədbirdə, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı Nümyəndəliyi tərəfindən Baku Fairmont Hoteldə təşkil olunan "Qadın, Sülh və Təhlükəsizlik" mövzusunda konfransda, Dövlət Miqrasiya Xidməti tərəfindən təşkil olunan "Beynəlxalq Miqrasiya Hüququ" mövzusunda təlimdə, Nyu-York şəhərində keçirilən ilk Beynəlxalq Miqrasiya İcmalı Forumuna həsr edilmiş "Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakt" habelə ölkəmizin qoşulduğu BMT-nin Miqrasiya Şəbəkəsinin "Çempion ölkələr" təşəbbüsü ilə bağlı məlumatlılığın artırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən təşkil edilmiş tədbirdə, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən təşkil olunan "Azərbaycanda pul köçürmələrinin sosial-iqtisadi təsirlərinin yaxşılaşdırılması" adlı layihədə bir sıra ölkələrdəki Azərbaycanın diaspor nümayəndələrinin İşçi Qrupuna müşahidəçi qismində cəlb olunması məqsədilə iştirakı təmin edilib.
— Komitənin təşkilatçılığı ilə 22 nəfər ekspertin iştirakı ilə "Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf" başlığı altında dəyirmi masa təşkil edilib. Tədbir çərçivəsində xarici ekspertlərdən ibarət nümayəndə heyətinin cari ilin 13 iyun tarixində işğaldan azad olunmuş Ağdam şəhərinə səfər baş tutub. 14 iyun tarixində ekspertlər ADA Universitetində təşkil olunan dəyirmi masada ekspertlər və mütəlif dövlət qurumlarının rəhbərləri iştirak edib. Sözügedən tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi- Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri cənab Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri xanım Fərəh Əliyeva, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi Emin Hüseynov, Xarici İşlər naziri cənab Ceyhun Bayramov, İqtisadiyyat Naziri , Azərbaycan

Respublikası Mədəniyyət nazir müavini cənab Elnur Əliyev, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisi cənab Vüsal Hüsenov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri cənab Rövşən Rzayev, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri cənab Rəhman Hacıyev, Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri cənab Vüqar Süleymanov, Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun rəhbəri cənab İsmayıl Axundov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri cənab Fərid Şəfiyev, Alman-Azərbaycan Cəmiyətinin rəhbəri Çingiz Abdullayev və başqaları iştirak edib. (məlumatın yerləşdirildiyi bölmə düzgün seçilməli)

— 5 sentyabr tarixində Ankara şəhərində "Şuşa Bəyannaməsi ilə qardaşlıqdan müttəfiqliyə gedən yol" mövzusunda tədbir keçirilib. Şuşa Konqres Mərkəzində baş tutan tədbir ölkəmizin Türkiyədəki səfirliyinin, Türkiyə–Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Vəqfinin nəzdindəki Azərbaycan Evinin, Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin birgə təşkilatçılığı ilə gerçəkləşdirilib. Tədbirdə ölkəmizin və digər türk dövlətləri səfirliklərinin diplomatları, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri və soydaşlarımız iştirak ediblər.

— 22 oktyabr tarixində "Şuşa İli" çərçivəsində Azərbaycanın Qətərdəki səfirliyinin təşəbbüsü və bu ölkədəki Azərbaycan icmasının təşkilatçılığı ilə Dohada Bakının Xəzər rayonunun Binə qəsəbəsində yerləşən "Ümid yeri" uşaq sığınacağının sakinlərinin əl işlərindən ibarət xeyriyyə sərgisi və Azərbaycan icmasının üzvlərinin azyaşlı övladları arasında rəsm müsabiqəsi təşkil olunub. Müsabiqədə iştirak edən uşaqlara səfirlik tərəfindən sertifikatlar verilib.

— 2 noyabr tarixində Türkiyənin Kayseri şəhərində Azərbaycan Qardaşlıq Parkının təntənəli açılış mərasimi keçirilib. Tədbir Kayserinin Talas Bələdiyyəsinin və Azərbaycan-Türkiyə Təhsil, Mədəniyyət və Yardımlaşma Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutub. Parkın ərazisində Qarabağın və Şuşanın rəmzlərindən biri olan İsa bulağı tikilib, Azərbaycanın qan yaddaşı sayılan Xocalı soyqırımı qurbanlarının abidəsi ucaldılıb. Bu parkda tikiləcək Şuşa Mədəniyyət Evinin təməli qoyulub. Açılış mərasimində Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, Erciyes Universitetinin, bələdiyyələrin və qeyri-hökumət təşkilatlarının rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

— 8 noyabr tarixində Türkiyənin Antalya şəhərində Şuşanın 270 illiyi ilə bağlı "Cənnətim Qarabağ" adlı tədbir keçirilib. Tədbir, Antalya Azərbaycan Kültür və Dayanışma Dərnəyi, Antalya Təhsil şöbəsi və Kəpəz Bələdiyəsinin birgə təşkilatçılığı ilə təşkil olunub. Tədbirin sonunda iştirakçılara xatirə lövhələri, təşəkkürnamələr və hədiyyələr təqdim edilib.

— 15 noyabr tarixində "Xarı bülbül" Vizyon Teatr Dərnəyi və İstanbulun Ümraniyə bələdiyyəsinin birgə təşkilatçılığı ilə Türkiyənin İstanbul şəhərində Azərbaycanın Qarabağ Zəfərinin ikinci ildönümü, "Şuşa İli" və görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

Dünya Azərbaycanlılarının V Qurultayı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinin 24 nömrəli 16 mart 2022-ci il tarixli Sərəncamı ilə "Dünya Azərbaycanlılarının V Qurultayının 2022-ci ilin aprelin 21-25-də Şuşa şəhərinə keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib. DİDK bununla əlaqədar ciddi hazırlıq işlərinə başlayıb. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi yaradılıb, qurultay nümayəndələrinin siyahısı müəyyənləşdirilib. Tədbirdə iştirak etmək üçün 65 ölkədən 400-ə yaxın nümayəndə seçilib.

Qurultay öncəsi və sonrası fəal diaspor nümayəndələrinin Azərbaycanın aparıcı media qurumlarında müsahibələri, tədbirin əhəmiyyəti ilə bağlı sosial şəbəkələrdə paylaşımlarının təşkili təmin edilib.

Dünya Azərbaycanlılarının V Qurultayının ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsinə dair məlumatlandırma xarakterli kampaniyaya start verilib. Paytaxt Bakıda və Şuşa istiqamətində yollarda qurultayın başlanması ilə

bağlı lövhələr yerləşdirilib. Lövhələrdə Şuşanın görüntüsü fonunda V Qurultay barədə qısa məlumat və şüarlar əks olunub.

Aprelin 20-də Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçıları və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları Fəxri Xiyabanda görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarını, I və II Şəhidlər Xiyabanını ziyarət ediblər.

Aprelin 21-də qurultay nümayəndələrinin Şuşa şəhərinə yola salınması həyata keçirilib.

Aprelin 22-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı işə başlayıb. Qurultayı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev açıq elan edib və qurultay iştirakçılarını Qarabağ torpağında salamlayıb.

Daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Prezident İlham Əliyev tədbirdə geniş nitq söyləyib, azad Qarabağda, azad Şuşada keçirilən qurultayın əhəmiyyətini vurğulayıb, IV qurultaydan ötən müddət ərzində Azərbaycan diasporunun fəaliyyətinə qiymət verib və gələcək fəaliyyəti ilə bağlı tövsiyələrini çatdırıb.

"Qurultaydan-qurultaya" sənədli filminin nümayişindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov məruzə ilə çıxış edib, IV Qurultaydan ötən müddət ərzində Komitənin və Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti barədə məlumatları diqqətə çatdırıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair videohesabat təqdim olunduqdan sonra Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi münasibətilə təbriklərini çatdırıb. Qurultay iştirakçıları adından Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, Hatay Azərbaycan Evinin rəhbəri Başar Kömür, Almaniyada yaşayan dünya şöhrətli alim, fizika-riyaziyyat elmləri doktoru, professor, Aleksandr fon Humboldt mükafatına layiq görülmüş ilk azərbaycanlı Məsud Əfəndiyev və Kanadada fəaliyyət göstərən "Vətən" İncəsənət və Mədəniyyət Mərkəzinin rəhbəri Lalin Həsənova çıxış edib.

Qurultayın "Post-müharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi" mövzusunda keçirilən ilk panel iclası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun moderatorluğu ilə baş tutub. İclasda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor,

multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Almaniya Azərbaycanlıları Alyansının sədri, tibb elmləri doktoru Nuran Abdullayev, Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin sədri Nəriman Qurbanov, Böyük Britaniyada fəaliyyət göstərən "Sara Xatun" Qadınlar Cəmiyyətinin rəhbəri Simuzər Baloğlanova və Türkiyənin "Star" qəzetinin xarici siyasət yazarı, araşdırmaçı jurnalist Sevil Nuriyeva çıxış edib.

"Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri" mövzusunda ikinci panel iclasının moderatoru isə Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev olub. İclasda Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Birinci vitse-prezidentin köməkçisi Emin Hüseynov, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacı, Kopenhagen Universitetinin nevrologiya üzrə professor və baş məsləhətçisi, Beynəlxalq Baş ağrıları Cəmiyyətinin rəhbəri və İnsan Miqreni Araşdırma Birliyinin direktoru, "YAŞAT" Fondunun Himayəçilik Şurasının üzvü, Danimarkada Azərbaycan diasporunun fəal üzvü, azərbaycanlı tibb professoru Məsud Aşina, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun Azərbaycanlı Əməkdaşlar Assosiasiyasının təsisçisi Bəxtiyar Kərimov, Sankt-Peterburq Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri Niyazi Niyazov, Florida Azərbaycan icmasının mərkəzi, Amerika Azərbaycanlıları Koordinasiya Şurasının İdarə Heyətinin üzvü Esmira Bayramova çıxış edib.

Aprelin 23-də Dünya Azərbaycanlılarının V Qurultayı işini davam etdirib. İlk olaraq Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təltif olunmuş diaspor nümayəndələrinə fəxri adları, orden və medalları təqdim edib. Fərəh Əliyeva çıxışında diaspor nümayəndələrini əziz, doğma Şuşada görməkdən şad olduğunu bildirib.

Daha sonra Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada yüksək səviyyədə təşkil olunmasına göstərdiyi dəstəyə görə Diasporla İş üzrə Dövlət Komitəsinin adından dövlət qurumlarına təşəkkür bildirilib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhəri üzrə xüsusi nümayəndəsi Aydın Kərimov Qarabağın bərpasına Azərbaycan diasporunun ciddi töhfələr verə biləcəyini qeyd edib.

Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov növbəti Qurultayın da yenilənmiş və bərpa edilmiş Şuşada keçirilməsini təklif edib.

Daha sonra bir qrup diaspor fəalına “Diaspor fəaliyyətində xidmətə görə” medalı təqdim edilib.

Müzakirələr nəticəsində Qurultayın yekun sənədləri - qurultayın qətnaməsi, Dünya Azərbaycanlılarının V Qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti, Dünya

Azərbaycanlılarının V Qurultayı nümayəndələrinin dünya azərbaycanlılarına müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayının BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatına (UNESCO) və BMT-nin Ətraf Mühit Proqramına (UNEP) müraciəti, Dünya Azərbaycanlılarının V Qurultayının Azərbaycanın Ermənistanın işğalından azad olunmuş ərazilərində yaratdığı mina problemi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciəti yekdilliklə qəbul edilib.

Tədbirdə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yeni tərkibi təsdiq olunub. Prezident İlham Əliyev Qurultay iştirakçıları tərəfindən Şuranın sədri, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Şuranın icraçı katibi seçilib.

Yekun sözü ilə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında diasporun gələcək fəaliyyəti ilə bağlı səmərəli müzakirələrin aparıldığını söyləyib və qurultay iştirakçılarına təşəkkürünü bildirib.

Bununla da Dünya Azərbaycanlılarının V Qurultayı başa çatıb.

Bakıda “Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf” mövzusunda beynəlxalq tədbir keçirilib

ADA Universitetində Diasporla İş üzrə Dövlət Komitəsinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə “Cənubi Qafqazda post-münaqişə dövründə inkişaf” mövzusunda dəyirmi masa-dinləmələr keçirilib.

Tədbirdə dövlət qurumlarının nümayəndələri, ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Fransa, İsrail, İtaliya, Türkiyə, Gürcüstan və Yunanıstanın müxtəlif təhlil mərkəzlərini, universitetlərini və mediasını təmsil edən 22 xarici ekspert iştirak edib.

Müzakirələr ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə baş tutub.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dəyirmi masa iştirakçılarına Cənubi Qafqazda Azərbaycanın aparıcı rolu və irimiqyaslı layihələrdə iştirakı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun işğaldan azad etdiyi torpaqların minalardan təmizlənməsi və beynəlxalq təcrübə əsasında bu ərazilərdə aparılan bərpa-quruculuq işləri, məcburi köçkünlərin doğma yurdlarına geri qaytarılması və dövlət tərəfindən görülən digər tədbirlər barədə ətraflı məlumat verib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov beynəlxalq ictimaiyyətin məlumatlandırılması məqsədilə görülən işlər - əcnəbi tarixçilərin, jurnalistlərin və ekspertlərin işğaldan azad olunmuş ərazilərə səfərlərinin təşkili, Azərbaycan həqiqətləri, Ermənistan tərəfindən regionun mədəni irsinə qarşı törədilmiş vandalizm aktları və post-münaqişə dövründə Azərbaycan dövlətinin apardığı bərpa-quruculuq işləri barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində Azərbaycan diasporunun fəaliyyəti və Komitənin beynəlxalq təşkilatlarla əlaqələri barədə məlumat verib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Birinci vitse-prezidentin köməkçisi Emin Hüseynov Qarabağda aparılan irimiqyaslı bərpa-quruculuq işləri, inkişaf perspektivləri və mövcud resurslar, sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün bilik əsaslı iqtisadiyyatın yaradılması, Qarabağın inkişafında yeni strategiyaların tətbiqi və rəqəmsal strategiyalara üstünlük verilməsi barədə ətraflı məlumat verib,

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Qarabağ münaqişəsinin tarixi, Ermənistan tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə siyasəti, Cənubi Qafqaz regionunda Azərbaycanın strateji rolu və beynəlxalq ictimaiyyətin doğru məlumatlandırılmasının əhəmiyyətindən danışıb.

Tədbirdə Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov,

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov, Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova post-münaqişə dövründə Azərbaycan dövlətinin gördüyü işlər və gələcək perkspektivlər barədə çıxış ediblər.

Dinləmələr zamanı Cənubi Qafqaz regionunun inkişafı, Qarabağda həyata keçirilən bərpa-quruculuq işləri və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında xarici ekspertlərin əhəmiyyətli rol oynadığı vurğulanıb.

Diaspor Gənclərinin III Yay Düşərgəsi

Diasporla İş üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu ilə birlikdə 2022-ci ilin 2-8 avqust tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Diaspor Gənclərinin III Yay Düşərgəsini təşkil edib.

Düşərgənin tərəfdaşları Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi olub.Bu möhtəşəm layihədə 50 ölkəni təmsil edən 115 nəfər iştirak edib. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri, o cümlədən Qarabağ xanlığının banisi Pənahəli xanın varisi və Vətən Müharibəsi Qəhrəmanının övladı da olub.Layihənin xalqımızın Qarabağda parlaq qələbəsindən və Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayından sonraya təsadüf etməsi xüsusi önəm daşıyır. 2022-ci il aprelin 22-23-də Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xaricdə yaşayan azərbaycanlıları hər zaman tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə, ana dilini unutmamağa, Azərbaycan tarixini və mədəniyyətini öyrənməyə, Azərbaycan həqiqətlərini dost xalqların diasporları ilə birlikdə təbliğ etməyə çağırıb. Bu mənada Diaspor Gənclərinin Yay düşərgələri Azərbaycan Prezidentinin tövsiyələrinin gerçəkləşdirilməsi kimi də qiymətləndirilə bilər.

Düşərgənin açılış mərasimində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, gənclər və idman naziri Fərid Qayıbov, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin direktoru Məhəmməd Abdullayev, İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Ayaz Əliyev və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov çıxış ediblər.

Yay düşərgəsinin proqramına Şuşanın işğal dövründə dağıdılmış abidələri ilə tanışlıq, Cıdır düzünü, İsa bulağını, Vaqifin məqbərəsini və digər tarixi abidələri ziyarət, dövlət qurumlarının nümayəndələri, şəhid ailələrinin üzvləri və qəhrəman qazilərimizlə, həmçinin müxtəlif sahələr üzrə ekspertlərlə, tarixçi alimlər, incəsənət xadimləri və tanınmış blogerlərlə görüşlər, eləcə də gənclər üçün əyləncəli proqramlar, intellektual oyunlar daxil olub.

Düşərgənin hər günü yoqa üzrə ixtisaslaşmış təlimçi Ruqiyyə Əşrəflinin apardığı dərslə başlayıb. Azərbaycan Dillər Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasının müəllimi Səbinə Əliyeva isə düşərgə iştirakçılarına Azərbaycan dili təlimini tədris edib.

"Azərbaycan diasporu və dövlət gənclər siyasəti", "Dövlət qurumları ilə ictimai əlaqələrin qurulması", "Layihələrin yazılması və "Fundraising" prosesinin təşkili", "Azərbaycanın müstəqillik tarixi", "Xalq diplomatiyasında və lobbi fəaliyyətinin qurulmasında diaspor gənclərinin rolu", "Qarabağın inkişaf strategiyası", "Şəbəkənin genişləndirilməsi və Azərbaycan Diaspor Gənclərinin (ADG) təqdimatı" mövzularında keçirilən panellər diaspor gəncləri tərəfindən maraqla qarşılanıb. Onlar ölkəmizi uğurla təmsil etmək bacarıqları, şəbəkələşmək və yeni dostlar qazanmaq imkanları əldə ediblər.

Dövlət Komitəsinin əməkdaşları Qarabağdakı N saylı hərbi hissədə olub

Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) yaradılmasının 20 illik yubileyi münasibətilə Qarabağdakı "N" saylı hərbi hissədə "Gücümüz birliyimizdədir" adlı möhtəşəm bayram tədbiri və konserti keçirilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra ulu öndər Heydər Əliyevin milli kimlik və diaspor haqqında tarixi çıxışlarını, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsi haqqında fikirlərini, Avropada Qarabağla bağlı keçirilən izdihamlı mitinqləri və aksiyaları, mədəniyyət paytaxtımız Şuşa şəhərində baş tutan Dünya Azərbaycanlılarının V Qurultayını əks etdirən video-çarxlar nümayiş etdirilib.

Yubiley sevincini Qəhrəman və Qalib Ordumuzun əsgər və zabitləri ilə paylaşmaq məqsədilə gerçəkləşdirilən tədbirdə DİDK əməkdaşları, xarici ölkələrdə fəaliyyət göstərən diaspor nümayəndələrindən ibarət sənətçi qrupları və tanınmış incəsənət xadimləri iştirak ediblər.

Tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ölkəmizin diaspor siyasəti, Azərbaycan diasporunun Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük rolu, Vətən müharibəsi və post-müharibə dövründə diasporun fəaliyyəti, Silahlı Qüvvələrimizə, şəhid ailələrinə və qazilərə göstərdikləri maddi və mənəvi dəstək barədə məlumat verib. Komitənin 20 illik yubileyinin azad olunmuş Qarabağda keçirilməsinin çox böyük əhəmiyyət daşıdığı nəzərə çatdırılıb.

Bədii hissə ilə davam edən tədbirdə diaspor fəalları - xanəndə, II Muğam Televiziya Müsabiqəsinin qalibi Güllü Muradova (Almaniya), xanəndə Zahid Quliyev (Almaniya), Azərbaycanın əməkdar artisti, İstanbul Filarmoniyası Orkestrinin daimi dirijoru, bəstəkar və pianoçu, Turan Manafzadə (Türkiyə), Beynəlxalq Muğam Mərkəzinin və Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti, xanəndə Rəvanə Qurbanova, estrada müğənnisi, "Səs Azərbaycan" beynəlxalq televiziya müsabiqəsinin qalibi Emiliya Yaqubova (Böyük Britaniya), müğənni Nailə İmran (Qazaxıstan), kamança ifaçısı, San-Fransisko Dünya Musiqi Festivalının musiqi direktoru, diaspor fəalı İmamyar

Həsənov (ABŞ), tarzən Rüfət Həsənov, yəhudi əsilli kamança ifaçısı Salman Rabayev (İsrail), eləcə də gitara ifaçısı Cavid Məmmədov, “Bu şəhərdə” teatrının aktyorları, Azərbaycan Dövlət Rəqs Ansamblının və “Ritm” rəqs qrupunun solistləri çıxış ediblər.

Konsert proqramı, o cümlədən Azərbaycan əsgərinin Turan Manafzadə ilə birlikdə “Sarı gəlin” xalq mahnısını ifa etməsi, hərbçilərimizin Komitənin yubileyi münasibətilə hazırladıqları döyüş şousu böyük maraq və alqışlarla qarşılanıb.

Əsgər və zabitlərimizin böyük maraq və məmnunluqla iştirak etdiyi yubiley tədbiri xalqımızın birliyinin və həmrəylinin rəmzi olan “Yallı” milli rəqsinin birgə ifası ilə yekunlaşıb.

“Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu”

— 20-21 dekabr tarixlərində Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı-Şuşa Forumu keçirilib.

Forum Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Türk Dövlətləri Təşkilatının tərəfdaşlığı ilə baş tutub.Forum iştirakçıları öncə Fəxri Xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsini böyük ehtiramla yad ediblər. Qonaqlar adından ümummilli liderin məzarı önünə əklil qoyulub. Şəhidlər Xiyabanını və Türk Şəhidliyini də ziyarət edən forum iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Qonaqlar adından “Əbədi məşəl” abidəsinə əklil qoyulub.

Sonra iştirakçı qurumların 2023-cü il üçün diaspor üzrə birgə fəaliyyət planının və fəaliyyət strategiyasının müzakirəsi keçirilib. Forumda dünyadakı türk diasporlarının inteqrasiyasına yönəlmiş mühüm layihələr, TDT-yə üzv ölkələr arasında mədəni-humanitar əməkdaşlığın dərinləşməsi, diaspor qurumları arasında işbirliyinin vacibliyi, vətəndən kənada yaşayan türk icmalarının ana dilində təhsil almaq imkanlarına malik olması və digər vacib mövzular ətrafında da fikir mübadiləsi aparılıb.Forum Azərbaycan, Özbəkistan, Türkiyə və Qırğızıstanın müvafiq qurumları arasında anlaşma memorandumlarının imzalanması mərasimi ilə davam edib.

“Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu”nun ikinci günü ölkəmizin mədəniyyət paytaxtı Şuşada davam edib. Öncə Gəncə qapılarını və “Güllələnmiş heykəllər”i ziyarət edən qonaqlara şəhərdə aparılan yenidənqurma və bərpa işləri barədə ətraflı məlumat verilib.

Şuşadakı forum üzv dövlətlərin öz ərazilərində yaşayan və fəaliyyət göstərən iştirakçı dövlətlərin diasporlarının fəaliyyətinin qarşılıqlı tənzimlənməsi və koordinasiya məsələlərinin müzakirəsindən başlayıb.

Forum iştirakçısı olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri diasporlar arasında ardıcıl və sistemli əməkdaşlığın qurulmasının vacibliyini vurğulayıblar.

Daha sonra 2023-cü ildə Türk Dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsi təklif olunan tədbirlər ətrafında fikir mübadiləsi aparılıb, "Türk diasporu həftəsi"nin keçirilməsi təklif olunub. Tədbir “Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu”nun iştirakçı qurumlarının birgə bəyanatının qəbul olunması ilə yekunlaşıb.

INTERNATIONAL BAKU / SHUSHA FORUM
OF THE HEADS OF STATE INSTITUTIONS
IN CHARGE OF DIASPORA AFFAIRS
IN PARTNERSHIP WITH THE ORGANIZATION OF TURKIC STATES
DECEMBER 19-22, 2022
Şuşa

Şuşa

DİASPOR MƏSƏLƏLƏRİNƏ MƏSUL
DÖVLƏT QURUMLARI RƏHBƏRLƏRİNİN
BEYNƏLXALQ BAKI / ŞUŞA FORUMU
INTERNATIONAL BAKU / SHUSHA FORUM
OF THE HEADS OF STATE INSTITUTIONS
IN CHARGE OF DIASPORA AFFAIRS

AZƏRBAYCAN DİASPORUNA DƏSTƏK FONDU

Cari il ərzində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fonduna ümumilikdə 276 məktub daxil olub ki, onlardan 209-u təşkilatlar, 67-si isə vətəndaşlar tərəfindəndir. Cari ildə göndərilən məktubların sayı 176 olub. Həmçinin bu dövr ərzində 25 ezamiyyə əmri, 19 məzuniyyət əmri, 10 kadr əmri, 25 ümumi əmr, 58 təqdimat və 39 sərəncam verili. Xidməti fəaliyyətlərlə bağlı 51 təqdimat olub. Əlavə olaraq 32 ərizə qeydiyyata alınıb.

Ümumilikdə Fondun elektron sistemində 151 təşkilat və 197 fiziki şəxs qeydiyyatdan keçib. 2022-ci il ərzində qeydiyyatdan keçən təşkilatların sayı 10, fiziki şəxslərin isə 25 olub. LAYİHLƏRİ

İl ərzində layihələrin qeydiyyat sisteminə 42 müraciət daxil olub ki, bunlardan 19-u təşkilatlardan, 23-ü isə fərdi (xaricdə yaşayan azərbaycanlılardan) müraciətlər olub. Cari ildə Fondun Müşahidə Şurasının 5 iclası keçirilib. Şuranın iclaslarında 34 layihə təklifinə baxılıb, 12-si ilə bağlı müsbət, 22-si ilə bağlı mənfi qərar verilib. 2021-ci ilin ikinci yarim ilində keçirilən iclaslarda bir sıra layihələrlə bağlı müsbət qərar verilib, sözügedən layihələr cari ildə həyata keçirilib. Əlavə olaraq Fondun elektron poçt ünvanına layihə ilə bağlı müraciətlər daxil olub ki, bunlardan bir sıra layihələrə sərəncam ilə maliyyə dəstəyi ayrılıb.

Fondda layihələrin idarəedilməsi 4 ərazi bölgüsü üzrə həyata keçirilib.

MDB ölkələri, Ukrayna, Moldova, Belarus, Gürcüstan və Orta Asiya ölkələri üzrə daxil olmuş 7 layihə təklifindən (təşkilatlardan 6, fərdi şəxslərdən 1) 2-sinə (təşkilatlardan 2) Müşahidə Şurası tərəfindən müsbət rəy verilib və o layihələr icra olunub.

Avropa ölkələri istiqaməti üzrə daxil olmuş 12 layihə təklifindən (təşkilatlardan 2, fərdi şəxslərdən 10) 3-nə (fərdi şəxslərdən 3) Müşahidə Şurası tərəfindən müsbət rəy verilib və o layihələr icra olunub. Əlavə olaraq Fonda daxil olan müraciətlərdən sərəncam ilə 5 layihəyə maliyyə vəsaiti ayrılıb.

ABŞ, Latın Amerikası ölkələri, Kanada və İsrail üzrə 2022-ci ildə Fonda 5 (təşkilatlardan 3, fiziki şəxslərdən 2) layihə təklifi daxil olub. Bunlardan 2 (təşkilatlardan 1, fiziki şəxslərdən 1) layihəyə maliyyə vəsaiti ayrılıb. Eyni zamanda Fonda daxil olan müraciətlərdən sərəncam ilə 3 layihəyə maliyyə vəsaiti ayrılıb.

Türkiyə, Avstraliya və Okeaniya ölkələri, Asiya və Afrika ölkələri üzrə 2022-ci ildə Fonda 14 (təşkilatlardan 6, fiziki şəxslərdən 8) layihə təklifi daxil olub. Bunlardan 5 (fiziki şəxslərdən 5) sayda layihəyə maliyyə vəsaiti ayrılıb. Eyni

zamanda Fonda daxil olan müraciətlərdən sərəncam ilə 2 layihəyə maliyyə vəsaiti ayrılıb.

“ŞUŞA İLİ” çərçivəsində həyata keçirilən tədbirlər

Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını əsas götürərək Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə il ərzində bir sıra layihələr həyata keçirilib. Dünyanın müxtəlif ölkələrində həyata keçirilən bu tədbirlər ilə bağlı məlumatlar aşağıdakı kimidir:

“Qarabağ Azərbaycandır” adlı CD diskin çap olunması layihəsindən



“History of Shusha” adlı qısametrajlı filmin DVD disk formasında çap olunması layihəsindən

“Shusha Victory Project” layihəsindən

“Şuşa ili” ilə əlaqədar CD diskin çapı və Polşa Respublikasında Zəfər Gününə həsr olunmuş konsert proqramında diskin təqdimatı layihəsindən



Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunmuş “Natəvan” bədii filminin və kitabın hazırlanması layihəsindən

AZƏRBAYCAN EVLƏRİ

Fond tərəfindən üç Avropa ölkəsində (Estoniya Azərbaycan Evi, Macarıstan Azərbaycan Evi və Finlandiya Azərbaycan Evi) və Gürcüstanın Marneuli şəhərində Azərbaycan Evinin maliyyələşdirilməsi həyata keçirilir.

1 aprel 2022-ci il tarixində Estoniya-Azərbaycan Evində “İnsan hüquqları XXI əsr - Azərbaycan” Fondu, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Diasporuna Dəstək Fondunun birgə səyləri nəticəsində "Erməni vandalizmi: işğaldan öncə və sonra" adlı foto-sərgi keçirilib.

Foto-sərginin aşılış mərasimində Estoniya ictimaiyyətinin, Estoniyada yaşayan müxtəlif xalqların nümayəndələri, Azərbaycan Diasporuna Dəstək Fondunun əməkdaşları, Azərbaycan Respublikasının və Türkiyə Respublikasının səfirliyinin əməkdaşları, Estoniyada yaşayan azərbaycanlılar iştirak edib, Estoniyada təhsil alan azərbaycanlı gənclərin ifasında tədbirin mahiyyətinə uyğun milli müsiqilərimiz ifa olunub.

20 gün müddətində Azərbaycan Evində davam edən foto-sərgini yüzlərlə insan ziyarət edib.

30 aprel 2022-ci il tarixində Macarıstan Azərbaycan Evində “İnsan hüquqları XXI əsr-Azərbaycan” Fondu, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Diasporuna Dəstək Fondunun birgə səyləri nəticəsində "Erməni vandalizmi: işğaldan öncə və sonra" adlı foto-sərgi keçirilib.

Foto-sərginin açılış mərasimində Azərbaycanın Macarıstandakı səfiri cənab Tahir Tağı-Zadə və səfirliyin əməkdaşları, Macarıstanda yaşayan və təhsil alan müxtəlif xalqların nümayəndələri, Azərbaycan Diasporuna Dəstək Fondunun əməkdaşları, Macarıstanda yaşayan və təhsil alan azərbaycanlılar iştirak edib, Macarıstanda təhsil alan Ramil Şükürovun ifasında tədbirin mahiyyətinə uyğun milli müsiqilərimiz ifa olunub.

20 gündən artıq davam edən foto-sərgini ümumilikdə yüzlərlə insan ziyarət edib.

Tbilisidə XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri, Borçalı aşıq məktəbinin yetirməsi olan Kamandar Əfəndiyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, ölkəmizin Gürcüstandakı səfirliyinin və Azərbaycan Diasporuna Dəstək Fondunun birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbirdə aşıq Kamandar Əfəndiyevin keçdiyi ömür yolundan bəhs edən videoçarx nümayiş olunub, videoçarxda ustad aşığın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşündən olan fraqmentlər və ulu öndərin onun haqqında söylədiyi fikirlər yer almışdır.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyə səfirliyinin məsul əməkdaşı Onur Sevim, Gürcüstan parlamentinin sabiq deputatı Ruslan Hacıyev, TİKA-nın Gürcüstan nümayəndəliyinin rəhbəri Tuba Özütok və başqaları çıxış edərək, Aşıq Kamandar yaradıcılığından söz açıb, fikirlərini bölüşüblər.

“Qardaşlaşmış Qarabağ Məktəbləri”

18-24 iyul 2022-ci il tarixlərində Azərbaycan Diasporuna Dəstək Fondu “Qardaşlaşmış Qarabağ Məktəbləri” adlı layihə həyata keçirib. Layihənin tərəfdaşlarından biri Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi olub. Layihə çərçivəsində İsveçrədə fəaliyyət göstərən həftəsonu məktəbinin şagirdləri, keçmiş məcburi köçkün və şəhid ailələrinin övladları Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən “Cırtdan” Respublika Uşaq İstirahət və Sağlamlıq mərkəzində bir həftə ərzində səmərəli vaxt keçiriblər. Şagirdlərin mədəni-maarifləndirici panellərdə iştirakı, ölkəmizin dilbər guşələrinə səyahəti, muzeylərə səfəri baş tutub. Layihədə İsveçrədən 10 şagird və 2 təlimçi, yerli məktəblərdən 14 şagird və 2 təlimçi iştirak edib. Burada onlara daimi kommunikasiya və şəbəkələşmə ilə yanaşı, Azərbaycan dili təlimləri də keçirilib. Layihənin növbəti mərhələsində isə yerli şagirdlərin İsveçrəyə səfəri nəzərdə tutulur.

Xaricdə Yaşayan Aztəminatlı Azərbaycanlılara sosial yardım

"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 426-VQD nömrəli Qanununun tətbiqi və "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 fevral tarixli 859 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 11 yanvar tarixli 1188 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin **"Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında 4 noyabr 20220-ci il tarixli 441 nömrəli Qərarı 1 yanvar 2021-ci il tarixindən qüvvəyə minib. Qərarda aşağıdakı** 3 istiqamətdə aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi nəzərdə tutulur:

1. qəyyumluğunda (himayəsində) hər iki valideyni vəfat etmiş 18 yaşınadək olan azərbaycanlı şəxslər olduqda;

2. fövqəladə hallar, müharibə və hərbi əməliyyatlar zamanı zərər çəkdikdə və yaşadığı ölkədə dəymiş zərərin ödənilməsi ilə bağlı sığorta və digər vasitələrdən zəruri yardım almadıqda;

3. vəfat etmiş yaxın qohumunun cənazəsinin Azərbaycan Respublikasına gətirilməsi zərurəti yarandıqda.

Qərarda həmçinin xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi üçün elektron müraciət portalı hazırlanması tapşırılmışdır. Nəticədə https://azdiasporasocial.az **portalı hazırlanmış və istifadəyə verilmişdir.**



FOND SOSİAL MEDİADA

Azərbaycan Diasporuna Dəstək Fondunun 2022-ci il üzrə nəzərdə tutulan sosial media strategiyası üzrə inkişaf planı "Facebook", "Instagram", "Twitter", "Youtube" sosial şəbəkə hesabları üzərindən həyata keçirilmişdir.

Hesabat dövrünün əvvəlində cari il üçün Fondun Sosial Media Strategiyası hazırlanaraq təsdiqlənmişdir. Bu plana əsasən sosial media hesabları üzrə paylaşımlar hər ayın əvvəli hazırlanaraq təsdiqlənmişdir.

Göstərilən tarix aralığında ADDF hesablarında paylaşılan postlar üzrə aktivlik aşağıdakı kimidir: